Osman Gündüz

# Jurnalistlər üçün informasiya texnologiyaları

Multimedia
İnformasiya Sistemləri və Texnologiyaları
Mərkəzi

Bakı – 2009

downloaded from KitabYurdu.org

**Müəllif:** Gündüz Osman Mehdi oğlu
Multimedia İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti

**Redaktor:** Rasim Əliquliyev
AMEA-nın müxbir üzvü, İnformasiya Texnologiyaları İnstitutunun direktoru, texnika elmləri doktoru, professor

**Jurnalistlər üçün informasiya texnologiyaları**

Bu kitab internet-jurnalistikanın inkişafına kömək məqsədilə yazılıb. Kitabda müasir dövrdə informasiya münasibətlərinin qurulmasında, informasiya istehsalı prosesində informasiya texnologiyalarından səmərəli və effektiv istifadə üsullarına geniş yer verilib. Kitabda veb-jurnalistlərin istifadəsi üçün gərəkli texnoloji alətlər haqqında bilgilər verilib.

Kitabda İnternet və elektron poçt proqramları, messencerlər, bloqların yaradılması və sosial şəbəkələrdən istifadə qaydaları, mobil İnternet texnologiyalarından səmərəli istifadə üsulları haqqında faydalı bilgilər özünə yer alıb.

Kitab jurnalistlər, öz fəaliyyətləri haqqında effektiv yollarla məlumat yaymaq və əlaqələr qurmaq istəyənlər, informasiya sahəsində çalışanlar üçün nəzərdə tutulub.

Kitab Multimedia Mərkəzi tərəfindən IREX–Media qurumunun dəstəyi ilə həyata keçirilən "Jurnalistlərin peşəkarlığının artırılmasına dəstək" Layihəsi çərçivəsində hazırlanıb və çap olunub.

Naşir: Multimedia Mərkəzi. AZ 1001, Bakı, M.Əfəndiyev küçəsi, 5.
Tel. 492-44-44, www.cit.az, www.aif.az, E-mail: osman@cit.az

**Osman Gündüz. Jurnalistlər üçün informasiya texnologiyaları**

**ISBN 978-9952-8128-0-0**

**© Multimedia Mərkəzi**
**© IREX–Media**

downloaded from KitabYurdu.org

## Mündəricat

Müəllifdən ........................................................5
Giriş ................................................................6
İnternet jurnalistikaya nə yeniliklər gətirir? ..........................7
Veb-jurnalist üçün minimal texnoloji tələblər ...........................9
Milli veb-saytların yaradılması ........................................10
Bloq. Bloq nədir və necə yaradılır .....................................12
Bloq yaratmaq üçün beynəlxalq və yerli resurslar .......................23
Beynəlxalq platformalar ................................................23
GoogleAdSence – reklamdan necə pul qazanmaq olar? ......................24
Outlook Express ........................................................27
İnternetdə informasiya axtarışı ........................................34
Wikipedia – indi də azərbaycanca .......................................48
Mən necə yardım edə bilərəm? ...........................................50
Məqalələrin yaradılması ................................................51
İnternetdə şəkil axtarışı ..............................................54
Azərbaycan dilində informasiya axtarışı ................................56
İnternet statistikası ..................................................58
Çat (söhbət). Audio və videokonfranslar ................................59
Pulsuz telefon xidməti göstərən pulsuz proqram.
Addım-addım Skype ......................................................61
İnformasiya təhlükəsizliyi. Virus nədir? ...............................63
İnternetdə sosial şəbəkələr ............................................67
Videonu internet-resursa necə yükləməli? ...............................73
Mobil telefonla foto və videoçəkiliş ...................................74
Piksel nədir? ..........................................................76
3GP videoların emalı ...................................................77



downloaded from KitabYurdu.org

Sizi hansı problemlər gözləyə bilər? ........................................84
Etiket ........................................................................................86
Beynəlxalq jurnalist qurumlarının internet-resursları ...............90
Jurnalist qurumları ......................................................................91
Qəzetlər və jurnallar. Elektron xülasələr.................................91
İnformasiya agentlikləri ............................................................100
İstifadə olunmuş ədəbiyyat.......................................................102



downloaded from KitabYurdu.org

## Müəllifdən

Müasir dünyada jurnalistikanın rolu durmadan artmaqdadır. Xüsusilə də yeni informasiya texnologiyalarının sürətli inkişafı jurnalistlərdən yeni bacarıq və biliklərə malik olmağı tələb edir. Artıq elə bir dövr yetişib ki, hər gün öz üzərində işləmədən, yeni media texnologiyaları mənimsəmədən irəli getmək mümkün deyil. Müasir dövr, formalaşmaqda olan İnformasiya cəmiyyəti daha sürətlə ənənəvi jurnalistikanın və İnternetin, kommunikasiyaların və distant texnologiyaların inteqrasiyasını tələb edir. İnternet-jurnalistika bütövlükdə jurnalist fəaliyyətinin inkişafında ciddi rol oynamağa başlayıb. Əlbəttə, hazırda internet-jurnalistikanın sərhədlərini dəqiq müəyyən etmək o qədər də asan deyil. Jurnalistin hansı səviyyədə informasiya texnologiyalarını bilməsi, internet-qəzetin vebmasterinin jurnalistikaya nə dərəcədə yaxın olması, onların hər ikisinin İnternetin mahiyyətindən, online informasiya subyektindən baş çıxarması media mütəxəssislərini düşündürən ciddi suallardandır.

Bu kitabın yazılmasında məqsəd də məhz belə suallardan heç olmasa bir qisminə cavab tapmaqdan ibarətdir.

Bu kitabda diqqət daha çox informasiya münasibətlərinin, informasiya istehsalı və ötürülməsi prosesinin daha effektiv və çevik qurulmasında yeni informasiya texnologiyalarından istifadəyə yönəlib.

Kitabda müəllifin həm informasiya texnologiyaları sahəsində elmi-ictimai araşdırmalar çərçivəsində əldə etdiyi, həm də artıq bir neçə il BDU və Bakı Slavyan Universitetində internet-jurnalistika kursunun tədrisi prosesində toplanılan təcrübəsindən geniş istifadə olunub. Kitabın yazılmasında həmçinin Azərbaycan İnternet Forumu və Multimedia Mərkəzi tərəfindən internet-jurnalistikanın inkişafı istiqamətində gerçəkləşdirdiyi layihələrin materiallarından istifadə edilib. Adıçəkilən qurumlar tərəfindən müxtəlif zamanlarda ACİ–Yardım Fondunun, IREX–Medianın, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin və bir sıra özəl qurumların dəstəyi ilə internet-jurnalistikanın inkişafı istiqamətində çoxsaylı treninqlər keçirilib.

Müəllif kitabın yazılmasında göstərdikləri köməyə, təqdim etdikləri materiallara görə jurnalistlərin İT bacarıqlarının artırılmasında fəal iştirak edən, Azərbaycan İnternetinin və yeni media texnologiyalarının inkişafında ciddi əməyi olan ekspertlər **Vahid Qasımov, Emin Hüseynov, Emin Hüseynzadə, Qabil Qasımov və Rəşad Əliyevə** dərin minnətdarlığını bildirir.

Müəllif kitabın hazırlanması və çap olunmasına göstərdiyi köməyə görə IREX–Media qurumunun rəhbərliyinə təşəkkürünü bildirir.

*Osman Gündüz,*
*Multimedia Mərkəzinin direktoru,*
*AİF-in prezidenti*



downloaded from KitabYurdu.org

# Giriş

Bu gün yüksək peşəkarlıqla informasiya toplamaq və yaymaq istəyən müasir jurnalistin qarşısında xeyli problemlər və öz cavabını gözləyən suallar durur. Az qala hər an dəyişən və yeniləşən texnologiyalar haqqında biliklərə yiyələnmədən bu problemləri həll etmək və suallara cavab vermək mümkün deyil.

Müasir informasiya texnologiyaları KİV sahəsində əvvəllər həlli mümkün olmayan çoxlu sayda problemin aradan qaldırılmasına imkan verir, informasiyanın həm istehsalçıları, həm də istehlakçıları üçün əlverişli şərait yaradır.

Artıq İnternet, veb-texnologiyalar jurnalistlər üçün adi gerçəklikdən sərt zərurətə çevrilib. Media bazarında yeni nəşrlərin və ənənəvi KİV-in elektron versiyalarının meydana gəlməsi jurnalistikadan yeni keyfiyyətlər tələb edir. Bu tələbat da texnologiyaların inkişaf sürətindən asılı olaraq daim yeniləşir.

Sürətli dəyişkənliklər veb-jurnalistdən daha çox peşəkarlıq və böyük həcmli informasiyalarla ani olaraq işləmək vərdişləri tələb edir.

Elə buradan da işə girişib yeni başlayan jurnalistləri informasiyanın axtarılması və işlənməsi ilə bağlı bir sıra peşəkar bilgilərlə tanış etməyə çalışaq. Beləliklə, hər bir jurnalistin aşağıdakıları bilməsi vacibdir:

- Artıq az qala hər bir İnternet istifadəçisinin jurnalistə çevrilmək imkanı yaranıb. İnternetdə bloqların sürətli inkişafı, populyarlığı durmadan artmaqdadır.
- İnternet bütün KİV-in mətbəxinə daxil olub və bununla da hər bir əməkdaş özü üçün həm jurnalist, həm də redaktor olmaq imkanı əldə edib.
- Müasir informasiya-kommunikasiya mühiti dünyada bütün səviyyələrdə yazarlar üçün informasiya əldə etməklə bağlı bərabər imkanlar yaradır. Yəni, informasiyaya giriş sahəsində bərabərlik yaranıb.
- İnformasiyanın toplanması və ötürülməsi artıq peşəkar jurnalistlərin inhisarından çıxıb. Kameralı mobil telefon sahibi olan hər kəs çox nadir informasiya sahibinə çevrilib onu İnternet vasitəsilə hüdudsuz sayıla biləcək auditoriyaya ötürə bilər.



downloaded from KitabYurdu.org

- Jurnalistin fəaliyyətindəki vacib məqamlardan biri də kommunikasiya vasitələrindən tam olaraq istifadə barədə təsəvvürlərin olmasıdır.
- İnformasiya heç də həmişə hazır formada olmur. Bununla belə, sensasiya yarada biləcək materialın hazırlanması üçün çox zaman hamıya bəlli olan faktlar arasında rabitəni bərpa etmək yetərlidir.
- İnformasiya axtarışı heç də hər zaman yalnız eyni üsulla həyata keçirilə bilməz; informasiyanın axtarılması elə onun axtarılması yollarının axtarılması deməkdir.

## İnternet jurnalistikaya nə yeniliklər gətirir?

Bütün dünyaya səpələnmiş kompüterlərin telefon xətti ilə birləşdirilməsi, daha doğrusu, İnternetin yaranması yeni növ kommunikasiyanın əsasını qoydu. Yeni növ kommunikasiya da yeni bir jurnalistikanın – şəbəkə jurnalistikasının, İnternet jurnalistikasının meydana gəlməsinə səbəb oldu. Öz fəaliyyətində jurnalist müxtəlif informasiya mənbələrindən istifadə edir. İndiki dövrdə bu mənbələrin ən əlçatanı İnternetdir.

İnternet, internet-jurnalistika aşağıdakı xüsusiyyətlərinə görə olduqca əhəmiyyətlidir:

- multimedialıdır;
- interaktivdir;
- effektivdir;
- fərdə yönəlikdir;
- arxivləşmə imkanlıdır;
- anidir;
- genişmiqyaslıdır;
- elastikdir;
- qarşılıqlı əlaqəlidir;
- qənaətcildir;
- sərhədsizdir.

***Multimedialılıq** – informasiyanı yalnız mətn formasında deyil, həm də audio, video, animasiya və s. keyfiyyətlərlə birgə ötürməyə imkan verir ki, bu da həm oxucular üçün, həm də bu sahənin inkişafında əhəmiyyətli rol oynayan reklamverənlər üçün mühüm əhəmiyyət kəsb edir.*



downloaded from KitabYurdu.org

***İnteraktivlik:*** Dialoq imkanları, interaktivlik elə İnternetin məğzi deməkdir. Özü də bu interaktivlik həm "oxucu-oxucu", həm də "oxucu-kompüter" formada, çatlar (söhbətlər), forumlar, telekonfranslar formasında gerçəkləşə bilir. Bu da jurnalistikanı sözdə deyil, əməldə birtərəfli əlaqə üsullarından imtinaya məcbur edən amildir. Həm də ki, yalnız veb-jurnalistikanı deyil, bütövlükdə jurnalistikanı. İnternet-texnologiyalar yalnız naməlum oxucuya nəyisə çatdırmaqla kifayətlənməyib, onun fikrini öyrənməyə də imkan verir. Oxucuya yönəlik ənənəvi metodlar burada keçərli deyil.

***Effektivlik:*** Telefon, faks və digər kommunikasiya vasitələrinə nisbətən daha effektivdir

***Fərdə yönəliklik:*** Tək bir oxucunun və ya oxucular qrupunun tələbat və vərdişlərini nəzərə almaq imkanı yaranıb. İnternet-KİV-də informasiyaların ənənəvi qaydada əvvəlcədən planlaşdırılmış müəyyən efir məkanı və zamanında deyil, istifadəçiyə məkandan və zamandan asılı olmadan onun sifarişinə görə verilməsinə şərait yaradıb. Artıq oxucu öz arzusuna uyğun olaraq konkret mövzu üzrə xəbərlərə abunə yazıla və istədiyini də saatbasaat, gün ərzində və ya həftəlik olmaqla əldə edə bilər.

***Arxivləşmə:*** İstənilən həcmə malik informasiya istənilən an yenidən istifadə edilmək üçün arxivə göndərilə bilər.

***Anilik:*** İnformasiyaların ötürülməsi bir anda baş verir.

***Miqyaslılıq:*** Şəbəkənin elə imkanları (məsələn, ziyarətçi sayğacı) var ki, istənilən dərcin populyarlığını müəyyən etməyə şərait yaradır. Beləliklə də media bazarının elementləri öz-özünə bütün lazımi ünsürləri ilə buraya tətbiq edilmiş olur. Reklam materiallarına ən adi tıqlamalar belə (demək olar ki, ən minimal xəta ilə) hansı materialın maraq doğurduğunu, hansınınsa doğurmadığını müəyyən etməyə imkan verir.

***Elastiklik:*** Materialı ən ağlagələn formada yerləşdirib onu lazımi anda yeniləməyə imkan verir. Üstəlik, ziyarətçilərin özlərinin səhifənin quruluşunu seçmələrinə şərait yaradır. Bu isə, öz növbəsində, onların daimi olaraq maraq dairəsində qalmalarını təmin edir.

***Qarşılıqlı bağlılıq:*** Müxtəlif formatlarda (mətn, audio, video, foto və s.) olan informasiyalar hipertexnologiyaların köməyi ilə bir-biri ilə qırılmaz tellərlə bağlıdır.

***Qənaətcillik:*** İnformasiya münasibətlərinin qurulması, informasiya istehsalı və yayılması üçün hələlik bundan effektli və ucuz vasitə yoxdur. Veb-nəşr kağız-nəşrdən qat-qat ucuz başa gəlir.



downloaded from KitabYurdu.org

***Sərhədsizlik:*** Artıq virtual məkanın yaratdığı imkanlar hesabına bir ölkədə yaşamaqla digər ölkələrdə fəaliyyət göstərən KİV-in əməkdaşı olmaq, onlar üçün lazımi materiallar hazırlamaq asan bir işə çevrilib.

Veb və veb-jurnalistika haqqında yuxarıda deyilənlər İnternet barədə şəxsi təcrübə olmadan elə də asan anlaşıla biləcək şeylər deyil. Ancaq xoşbəxtlikdən İnternetlə ünsiyyət imkanları hər kəs üçün əlçatandır.

## Veb-jurnalist üçün minimal texnoloji tələblər

Artıq qəbul edilmiş faktdır ki, online jurnalistin yalnız yaxşı offline jurnalist olması yetərli deyil. Ona daha başqa biliklər də lazımdır. Başqa sözlə, İnternet jurnalistikası ilə məşğul olmazdan öncə özünü aşağıdakılara inandırmaq vacibdir:

- siz İnterneti bilirsiniz;
- öz vəzifələrinizin həlli məqsədilə (informasiya əldə etmək, yeni ideyalar axtarıb tapmaq) ondan səmərəli istifadə etməyi bacarırsınız;
- siz kompüterdə və şəbəkədə işləmək üçün gərəkli vərdişlərə sahibsiniz.

İlk baxışdan adama elə gəlir ki, İnterneti öyrənib ondan istifadə etmək vərdişləri qazanmaq olduqca sadə işdir. Əslində isə heç də belə deyil. Ən azı ona görə ki, İnternet durmadan dəyişir və buna görə də ondan istifadə edənlərin daim öyrənməsi vacibdir.

İnternetdə baş verən dəyişiklikləri isə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Yeni internet-texnologiyalar, yeni informasiya resursları meydana çıxır, köhnələri yox olur və ya strukturunu dəyişir. Bu isə, öz növbəsində, İnternetdən istifadə ilə bağlı vərdişləri yeniləməyi vacib edir.
2. İnformasiyaların, biliklərin təqdim edilməsinin yeni texnologiyaları meydana çıxır. Onlardan bəziləri dəbə minir və hər cür dəb kimi, keçici olur; bəziləri isə əksinə, standart statusu qazanır. Bununla belə, birini digərindən əvvəlcədən ayırd etmək mümkün deyil. Elə ona görə də hər ikisini mə-



downloaded from KitabYurdu.org

nimsəmək lazım gəlir. Məhz buna görə də informasiyaların təqdim edilməsi ilə bağlı baş verən texnoloji yenilikləri mütəmadi izləmək lazımdır. Həmçinin onları sınamaq və mənimsəməklə ən mükəmməlinə sahib olmaq vacibdir. Yalnız belə olacağı təqdirdə İnternetin inkişaf səviyyəsinə uyğun həddə çatmaq olar.

3. Yeni proqram məhsulları dəyişir, təkmilləşir. Özü də yeni funksiya və interfeyslə. Üstəlik, bu yeni proqramlar yeni, daha sürətli və daha etibarlı texnika tələb edir. Əgər aparat və proqram sahəsində tərəqqiyə uyğun olaraq texnoloji standartların dəyişməsini də nəzərə alsaq, onda hər bir mütəxəssisin (ən adi istifadəçinin də) daim kompüter avadanlıqlarının və proqramların yenilənməsinin qayğısına qalması zərurəti ortaya çıxar. Dövrümüzdə avadanlıqların və proqramların yenilənməsi dövriliyi artıq bir ildən də az vaxt təşkil edir. Hətta bir çox proqramlar az qala gündəlik olaraq yenilənmə tələb edir. Bu isə o deməkdir ki, İnternet jurnalistinin iş yerində ildə bir neçə dəfə kiçik "yenidənqurma" edilməlidir. Bu "yenidənqurma" isə ondan ibarətdir ki, köhnəlmiş avadanlıq və proqramlar yeniləri ilə əvəz olunmalıdır. O da, öz növbəsində, yeni bilik və bacarıqların öyrənilməsini zəruri edir.

Buna görə də texnologiyanın yenilənməsini sərbəst şəkildə həyata keçirməyi öyrənmək, həmçinin yeni proqramlarla işləmək üçün sürətli üsullara öyrəşmək lazımdır.

Əlbəttə, dərsliklər, treninqlər sizə yardımçı ola bilər. Lakin bu, heç bir halda yetərli olmayacaq. Çünki, qeyd etdiyimiz kimi, texnologiyalar daha sürətlə yenilənir, nəinki sizin hansısa konkret müddətdə əldə etdiyiniz bilik və vərdişlər.

Buradan da belə nəticə çıxarmaq olar ki, əsas diqqət özünütəlimə yönəldilməlidir – İnternetdə özünütəlimə. İnternetin imkanları ilə daha dərindən tanış olmağın ən yaxşı üsulu elə İnternetə birbaşa "səyahətə" çıxmaqdır.

## Milli veb-saytların yaradılması

Artıq Azərbaycan İnternet seqmentində nəinki ayrı-ayrı təşkilatlar, həmçinin xeyli sayda fiziki şəxslər öz fərdi saytlarını və səhifələrini yaratmaqdadırlar. Bəziləri özlərini təsdiq etmək, özləri



downloaded from KitabYurdu.org

haqqında məlumat vermək məqsədi güdür, bəziləri sadəcə pul qazanmaq məqsədilə virtual ofis açırlar. Burada qeyd etmək yerinə düşər ki, ümumiyyətlə sayt və ya səhifə yaratmaq elə bir xüsusi bilik tələb etmir. İnternetdə işləməyi bacaran kəs özünə sadə bir veb-səhifə hazırlaya bilər. Əslində, ***.htm** və ya ***veb-page*** formatında saxlanılmış hər hansı bir adi word sənədi elə veb-səhifə deməkdir. Veb-sayt (çox halda buna İnternet saytı da deyilir) isə mahiyyətcə bir-birinə yaxın, təkrarlanan dizayna malik və fiziki olaraq eyni bir veb-serverdə yerləşən səhifələrin məcmusu kimi anlaşıla bilər.

Sayt yaratmaq üçün nəzərdə tutulan hipermətn dil proqramları (HTML, PHP, ASP və s.) daha çox professionallar üçün nəzərdə tutulub. Adi qaydada sadə saytlar və səhifələr yaratmaq üçün hazır proqramlar – "Microsoft FrontPage", "Macromedia Dreamweaver" və s. bu kimi proqram təminatları mövcuddur. Azərbaycanda İnternetin sürəti xeyli zəif olduğundan saytları mümkün qədər yüngül elementlərdən istifadə edərək hazırlamaq daha səmərəli olardı. Çoxlu şəkilləri olan, animasiyalar və videofayllar yerləşdirilən səhifələri ziyarət etmək üçün Azərbaycan istifadəçisi xeyli vaxt sərf etməli olur. Saytınızın istifadəçilər tərəfindən tez axtarılıb tapılmasını istəyirsinizsə, o zaman bütün populyar axtarış serverlərində onu qeydiyyatdan keçirməyiniz vacibdir. Bunun üçün həmin axtarış serverlərində **Add URL** və ya **Submit a site** keçidlərindən (linklərindən) istifadə etməlisiniz. Bir daha təkrar edirik ki, saytları hazırlayarkən şrift probleminə xüsusi diqqət yetirilməlidir.

Ölkədə son dövrlərdə azərbaycandilli milli resurslar hazırlamaqla məşğul olan xeyli sayda peşəkar veb-studiya yaranıb. Bu cür studiyalar həm də saytınız üçün domen qeydiyyatı, saytın yeniləşdirilməsi və hostinq probleminin həllində sizə yardımçı ola bilər. İstənilən halda veb-studiya ilə müqavilə bağlamaq (qiymət, saytın yeniləşdirilməsi, hostinq, domen qeydiyyatı, saytın təhlükəsizliyinin təmin edilməsi, müəllif hüquqları və s. prosedurları müəyyənləşdirən sənəd) tövsiyə olunur. Saytın hazırlanması üçün müqavilə üzrə nəzərdə tutulan vəsaitin müəyyən hissəsini sayt İnternetdə yerləşdirildikdən və fəaliyyətə başladıqdan sonda ödəmək daha məqsədəuyğun olardı.

Son dövrlərdə qlobal şəbəkədə olduğu kimi, Azərbaycan İnternetində də sosialyönümlü resurslar yaranmağa başlayıb: myxazar.com,



downloaded from KitabYurdu.org

www.azeriblog.com, www.azcomonline.net, www.emi.az sosial şəbəkəsi.

Ölkədə saytların hazırlanması ilə bağlı xərclərin konkret həddi dəqiq müəyyənləşdirilməyib. Hazırda bir veb-saytın yaradılması üçün sifarişçi zövqündən asılı olaraq 300-5000 manat arasında xərc çəkməlidir. Amma ucuz resurslar bir qayda olaraq lisenziyasız proqramlardan istifadə edilməklə hazırlanır. Sayt yaradılması prosesində qeyri-lisenziyalı və pulsuz proqramlardan istifadə edilməsi sonda ciddi problemlər yaradır. Belə ki, bir sıra hallarda bu tip proqramların zəif cəhətlərini bilən hakerlər, rəqib şirkətlər, elə həmin proqramların istehsalçıları bu proqramlar vasitəsilə hazırlanan və ciddi əhəmiyyət kəsb edən İnternet resurslarını öz iqtisadi, siyasi və ideoloji maraqlarını təmin etmək məqsədilə dağıdırlar.

Professional səviyyəli saytların hazırlanması üçün veb-studiyalara müraciət etmək daha səmərəli və doğru olardı. Təəssüf ki, ölkəmizdə professional veb-ustaların zəhməti yetərincə qiymətləndirilmədiyindən bir sıra hallarda onlar daha yüksək əməkhaqqı ödənilən yaxın və uzaq xarici ölkələrə üz tuturlar.

Ölkəmizdə fəaliyyət göstərən veb-studiyalar daha geniş məlumatı “İnternet. Azərbaycan İnternet resursları” kitabından əldə edə bilərsiniz.

## Bloq

### *Bloq nədir və necə yaradılır*

**Blog** sözü ingilis dilindəki **veb** və **log** sözlərinin birləşməsindən alınan “veblog” sözündən götürülüb. Hərfi mənası **“şəbəkə gündəliyi”, “gündəlik”** kimi anlaşılır. Bloq – yazıların əsasən xronoloji qaydada düzüldüyü (yenidən köhnəyə doğru) sadə bir saytdır. Bloqların əksəriyyətinə şərh yazmaq imkanı olur. Yəni başqaları sizin yazılarınıza öz şərhlərini yaza bilər. Məsələn, siz yazdınız ki, filankəs Azərbaycanın ən yaxşı səsinə malik müğənnisidir, başqa birisi isə elə həmin yerdə sizinlə razılaşmayıb başqa bir şərh yaza bilər. Beləliklə, ünsiyyət yaranır: biri öz fikrini yazır, o birilər onunla razılaşır, ya da razılaşmır. Bəzi çox məşhur bloqların hər yazısına 100-200-dən çox şərh verilir.

İlk bloqlar 1990-cı illərin ortalarında yaranmağa başlayıb, yalnız 2003-cü ildən sonra bloqlar populyarlaşıb. Artıq xaricdə bir çox



downloaded from KitabYurdu.org

tanınmış siyasətçilər, dövlət adamları, müğənnilər və ictimai liderlər öz fikir və amallarını, dünyagörüşlərini, baxışlarını öz şəxsi bloqları vasitəsilə çatdırırlar.

Azərbaycanda aktiv bloqlaşma prosesi son 2 il ərzində müşahidə olunur. İlkin dövrlərdə xarici bloq sistemlərindən istifadə olunmaqla bloqların yaradılmasına üstünlük verilirdi. *Blogspot.com, Blog.com, Livejournal.com* və bu kimi digər bloq sistemləri Azərbaycandakı istifadəçilər tərəfindən yaradılan ilk bloqlar üçün əsas olub.

Azərbaycandilli bloq sistemlərinin yaranması isə ölkədə qısa müddətdə bloqların sayının kəskin surətdə artmasına gətirib çıxardı. 2006-cı ilin sonundan etibarən Multimedia Mərkəzi tərəfindən ACİ–Yardım Fondunun dəstəyi ilə **"Yeni informasiya texnologiyalarının tətbiqi əsasında söz və fikir azadlığının gerçəkləşməsi üçün effektiv mexanizmlərin yaradılması"** Layihəsi çərçivəsində milli bloqların inkişafı istiqamətində bir sıra addımlar atılıb. **"Bloq sistemindən istifadə Qaydaları"** mövzusunda jurnalistlər üçün treninqlər keçirilib. Nəhayət 2007-ci ilin əvvəlində Multimedia Mərkəzi öz vəsaiti hesabına azərbaycandilli istifadəçilərin öz fikir və baxışlarını, müxtəlif məsələlərə gündəlik rəylərini bildirmək üçün milli *BlogAz* resursunu yaratdı. Qısa müddətdə öz ətrafında xeyli sayda bloqqer toplamasına baxmayaraq, texniki problemlər ucbatından *BlogAz* öz fəaliyyətini davam etdirə bilmədi. 2007-ci ilin ortalarından etibarən AzNet-də yeni bir milli bloq sistemi – *AzeriBlog* resursu fəaliyyətə başladı.




Hazırda (15.09.2008 tarixinə) burada aşağıdakı statistika görünür:

bloqların ümumi sayı: 6666, fəal bloqçular – 4909, yazıların cəmi – 56578.



downloaded from KitabYurdu.org

Yaradıcısının sözlərinə görə, bloqların sayı daha çoxdur, amma onlar bir müddət aktiv olmadığı üçün bağlanılır.

### *Foto, səs yayımları və videobloqlar (podkastlar)*

Bu sahədə ölkədəki vəziyyətin qənaətbəxş olmamasının səbəbi əsasən İnternet sürətinin az olması ilə bağlıdır. Çünki aşağı sürətli İnternet videoların və səs fayllarının yüklənməsinə imkan vermir və ya çox keyfiyyətsiz şəkildə həyata keçirir. Bunlara baxmayaraq, artıq bu sahədə də bir sıra cəhdlər edilir. Bundan əlavə, canlı radio və televiziyaların yaradılması da müşahidə olunur. Fotobloqlar isə nisbətən daha çoxdur.

### *Yaş, yer və dil bölgüsü*

Bloqçuların əksəriyyəti gənclərdir. İngilisdilli bloqlar əsasən daha yaşlı bloqçular tərəfindən yaradılır. Bunun səbəbi, əsasən, xaricdə yaşayan azərbaycanlıların xarici dilli bloqların yaradılmasına təşəbbüs göstərmələridir. Rusdilli bloqçuların yaşı da orta Azərbaycan bloqçusundan çoxdur. Burada orta yaşlı bloqçular da az deyil. *Livejournal.com* kimi qapalı bloq sistemində qalmağı üstün tutanlar və digər rusdilli bloqçular bu imkanı daha tez öyrəniblər və ona görə də digərlərinə nisbətən daha uzunömürlü bloqçu sayıla bilərlər.

Amma əlbəttə ki, ən çox bloqçu azərbaycandillidir. Təxminən bütün bloqların 92 faizi bu qrupa aiddir.

İnternetin real inkişaf səviyyəsi bu hər üç amilə (dil, yaş, yer) öz təsirini göstərir. Əgər əvvəllər rusdilli və ingilisdilli bloqçular daha çox idisə, indi İnternetin ölkədə populyarlaşması ilə azərbaycandillilərin sayı yüz dəfələrlə artıb.

Hazırda ölkədə bloqların inkişafı ilə bağlı müxtəlif qurumlar tərəfindən müəyyən tədbirlər həyata keçirilir. İndiki mərhələ daha çox bloqların müxtəlif mövzular üzrə ixtisaslaşması (siyasi, demokratiya, din, tarix, İKT və s.), onların daha da professionallaşması kimi səciyyələnə bilər.



downloaded from KitabYurdu.org

## Bloqun yaradılması

Qlobal şəbəkədə artıq bloqların sayı milyonlarladır. Yazıldıqları dillərin sayı 100-ə yaxındır, mövzuları da təsəvvür edə bildiyiniz bütün istiqamətlərdədir. Əksər bloqların sahibləri Şimali Amerika, Şərqi Asiya və Qərbi Avropada yaşayır.

### *Bloq yaradılması üçün dörd addım*

Bloqu yaratmaq üçün hər bloqçunun dörd əsası olmalıdır.

1. Kompüter.

Sizə kompüter lazım olacaq, amma özünüzünkü olmaya da bilər. Bloqları yaratmaq, ora yazı əlavə etmək, fayl yerləşdirmək, arxivə göndərmək üçün proqramların hamısı İnternetdə var. Buna görə də istədiyiniz kompüterdən və İnternet-klubdan bloqla bağlı bütün işləri görə bilərsiniz.

2. İnternetə giriş

Yüksək sürətli İnternet video və səs faylları ilə işləmək üçün daha yaxşı imkanlar yaradır. Ancaq yazı bloqları üçün aşağı sürətli İnternet də yetər.

3. Proqram təminatı

İlk növbədə bloq yaratmaq üçün hansı proqramlardan istifadə edəcəyinizi müəyyənləşdirin. İnternetdə ən məşhur platformalardan bəziləri bunlardır: www.blogger.com və www.wordpress.com, www.azeriblog.org resursundan istifadə etməklə Azərbaycan dilində proqram təminatından yararlanaraq bloqunuzu yarada bilərsiniz.

4. Fikirlər və yazılar

Ən sonda və ən vacibi – sizə mövzu lazımdır. Bəziləri bloqlarına hamı üçün açıq şəxsi gündəlik kimi baxırlar və buna görə də öz həyat təcrübələrini orada bölüşürlər. Digərləri siyasəti, ya da dünyadakı vəziyyəti müzakirə etməyi xoşlayırlar. Yazının mövzusu sizdən asılıdır. Amma bu elə bir mövzu olmalıdır ki, sizin uzun müddət ərzində onunla bağlı yazılar yazmağa həvəsiniz olsun.

> **Qeyd:** Bloqun yaradılması üçün qeydiyyatdan keçmək lazımdır. Bir çox platformalarda bunu etmək çox sadədir. Əksər platformalarda qeydiyyat üçün minimal informasiyaya gərək var.

Beləliklə:



downloaded from KitabYurdu.org

1. Hər hansı bir bloq sisteminə daxil olun. Misal üçün, www.wordpress.com saytına daxil olandan sonra yuxarıda görünən **Sign Up Now!/İndi qeydiyyatdan keç** düyməsinə basın.

2. İstifadəçi adı, Şifrə, Şifrənin təsdiqi, E-mail ünvanı bölmələrini doldurub, şərtlərlə razılaşdığınız haqda “quş” qoyduqdan sonra **Next/Növbəti** düyməsini basın. Sadə adlar artıq tutulduğundan bir qədər fərqli adlar seçməyə çalışın.

3. Açılan səhifədə bloqun domen adı, bloqunuzun adını, yazacağınız dili seçib **Signup/Qeydiyyat** düyməsini basın.

Ən uzağı 30 dəqiqəyə e-mail ünvanınıza bloqun aktivləşdirilməsi ilə bağlı məktub gələcək. Məktubda qeyd olunan linki (keçidi) aktivləşdirdikdən sonra bloqunuz hazırdır! Bundan sonra birbaşa wordpress.com ünvanından öz istifadəçi adınız və şifrənizlə daxil olub yazılar yaza, şəkil və videolarınızı yükləyə bilərsiniz. Gördüyünüz kimi, bloq yaratmaq çox asandır.

Bloqlar ənənəvi jurnalistikadan və ədəbiyyatdan fərqli olaraq qeyri-formal, məişət dilində də yazıla bilir. Bu onları özünəməxsus və oxunaqlı edir. Yazılış dilinin özü də bloqun stilini və mövzusunu müəyyənləşdirə bilər.

### İnzibatçının sistemə girişi

Bloqun “xarici görünüşü” (ziyarətçinin daxil olduğu zaman gördüyü səhifə) olur. Bundan başqa, onun tətbiqi, “görünməyən tərəfi” (informasiyanın işlənməsi və başqa funksiyaları yerinə yetirən, ziyarətçiyə görünməyən proqram təminatı) də var ki, orada yenilənmə və saytın dəstəklənməsi həyata keçirilir. Tətbiqi hissəyə girişi qeydiyyat zamanı əldə edilən istifadəçi adı və şifr vasitəsilə həyata keçirmək olar.



downloaded from KitabYurdu.org

## Elektron informasiya paneli

Bloqların çoxunda "elektron informasiya paneli" olur. Bu isə bloqda baş verən hər şeyi, o cümlədən son qeydləri, şərhləri və geri bağlantıları görməyə imkan verir. Buradan bloqun bütün imkanlarına giriş əldə etmək, onun görünüşünü dəyişmək, buraxılış gücünü dəyişmək, yazıları redaktə etmək, istifadəçilərin girişini idarə etmək olar.

## Materialları necə yerləşdirmək olar

Bloqun veb-saytdan əsas fərqlərindən biri onun yenilənməsinin asan olmasıdır. Platformaların əksəriyyəti xəbərləri sadə mətn formasında yerləşdirməyə imkan verir. Yeni material yerləşdirmək üçün əksər bloqyaratma sistemlərində bunları etmək lazım gəlir:

1. Öz adınız və şifrənizlə sistemə daxil olun.
2. **Edit** və ya **Send** düyməsinə basın.
3. Yazının adını və mətnini əlavə edin.
4. Mətnin formasını düzənləyin.
5. Yazını mövcud rubrikalardan birinə aid edin, yaxud da uyğun bir rubrika qurun.
6. Səhifənin sonundakı **Yadda saxla** düyməsini basın. Bununla da iş bitmiş olur.

Ola bilər ki, bir sıra sistemlərdə bu proses və menyular bir qədər fərqli olsun. Ancaq yazıların yerləşdirilməsi ardıcıllığı və görüləcək işlər əksər bloq sistemlərində oxşardır.

## Bloq axtarışı

Bəzi saytlar, məsələn, *Technorati*-nin səhifəsi sizi maraqlandıran bloqları axtarmaq üçün yaxşı vasitədir.

Bu sayt "Google"a bənzəyir, amma bütün İnternetdə deyil, yalnız vətəndaş KİV-i (kütləvi informasiya vasitələri) arasında bloq, şəkil və videoları axtarır. Tutalım ki, Bakıda yaşayırsınız və öz şəhəriniz haqqında yazan bloqları axtarmaq istəyirsiniz. Sadəcə technorati.com adını brauzerdə yazırsınız və **Bakı** sözünü axtarırsınız. Siz yalnız bloq, yazı, şəkil, ya da video bölmələrindən birini seçməklə axtarışı



downloaded from KitabYurdu.org

tezləşdirə bilərsiniz. Bloqların sayı çoxdursa, dəqiq rayon, ya da mövzu üzrə axtarış etmək olar. Həm də bu üsulla sizinlə bu mövzuda həmfikir olan adamları və onların bloqlarını tapa bilərsiniz:




Aşağıdakı resurslardan da bloq axtarışı üçün istifadə edə bilərsiniz:

Blogwise: www.blogwise.com
Daypop: www.daypop.com
Feedster: www.feedster.com
Technorati: www.technorati.com
Waypath: www.waypath.com
Blogarama: www.blogarama.com
Syndic8: www.syndic8.com

## RSS-ə giriş. Sindikasiya

Bloqların ən faydalı xüsusiyyətlərindən biri həm də ən çətini ola bilər. İndi bütün bloqların ünvanlarına daxil olub oxumaq əvəzinə sizi maraqlandıran bütün bloqları bir səhifədən oxumaq mümkündür. Bunun üçün abunə sistemləri var. İnternetdə buna RSS deyirlər. Bu səhifə toplantı məntəqəsidir, hətta onu şəxsi online qəzetiniz saya bilərsiniz – hansı məqalələrin görünəcəyi seçdiyiniz və abunə olduğunuz bloqlardan asılı olacaq.

Bu texnologiyanın adı RSS-dir **(really simple syndication – doğrudan da sadə ittifaqlaşma)**, əslində online abunə deməkdir. Öz bloqunuzda yazı yazan kimi, o həm sizin bloqunuzda çap oluna və həm də RSS formatında, kompüterinizdə olan proqramlar hesabına digər saytlarda da görünə bilər. Bu mexanizmin necə işlədiyini daha yaxşı başa düşmək üçün ən populyar abunə sistemlərindən "Google Reader"in www.google.com/reader/ səhifəsinə daxil olun və seçdiyiniz İnternet ünvanlarını əlavə edin. Hər gün daxil olub görəcəksiniz ki, bloqlarda və ya qəzetlərdəki ən son yazılar sizin "Google Reader"in səhifənizdə görünür. Bu sizin işinizi dəfələrlə yüngülləşdirəcək.



downloaded from KitabYurdu.org




## Fotokamera əvəzinizə danışsın

Hamı bilir ki, şəkil “min sözə dəyər”. Düzdür, çoxumuz yazıb-oxumağı sevirik, amma digərləri görüntüylə ünsiyyət qururlar. Rəqəmsal fotokameraların ucuzlaşması və əl telefonlarında kameraların quraşdırılması hesabına öz ailə, dost-tanışlarımızın şəkillərini bütün dünya ilə paylaşmaq imkanımız yaranıb.

Əksərimiz professional fotoqraf olmaq istəmirik, sadəcə olaraq gördüklərimizi çəkmək, bu şəkilləri dostlar və onlara marağı ola biləcək hər kəs arasında göstərməyi xoşlayırıq.

Bəzi saytlar şəkilləri İnternetdə yerləşdirməyi tamamilə pulsuz təklif edir. Həmçinin şəkillərinizi öz bloqunuza da yükləyə bilərsiniz. Hərdən hadisəni/vəziyyəti şəkillər və şəkilaltı yazılar vasitəsilə göstərmək daha məqsədəuyğundur. Şəkil bloqçusu olmaq istəyirsinizsə, məsələn, www.photoblog.com-dan istifadə edə bilərsiniz. O həm də ana dilimizdə işləyir.




## Bloqçuların beynəlxalq qurumları

“Global Voices” – vətəndaş mediasını inkişaf etdirmək istəyənlərin online ünsiyyətinə əsaslanan birlikdir. Bu birlik adi adamların, öz olaylarını, şəkillərini və fikirlərini dünyanın bir çox yerində yaşayanlarla ingilis dilində bölüşən adamların birliyi kimi sizə kömək edə bilər. İnanırıq ki, siz bu ünsiyyətdə iştirak edəcəksiniz.

**www.globalvoicesonline.org**



downloaded from KitabYurdu.org

***Bloqların yazılması üzrə veteran Coy İtonun bütün bloqçulara 5 məsləhəti:***

1. Sadə olun – İnternet böyük dünyadır və orada sizin yazdığınız mövzunu sizdən yaxşı bilən adam, yəqin ki, tapılar. Bu o deməkdir ki, bu mövzuda yazmağa başlasanız da, sadəcə mövzu haqda hər şeyi bildiyinizi göstərməyə çalışmayın.
2. Kömək üçün müraciət edin – əgər problemlə qarşılaşmısınızsa və kömək lazımdırsa, oxuculara yardım üçün müraciət edin. Beləliklə, ünsiyyət qurmaq olar.
3. Öz baxışınız olsun – Vikipedia kimi saytlar tərəfsizlik və obyektivlik tələb edir, amma bloqlarda da öz dünyagörüşümüzü müdafiə edib, başqalarına hörmət və dözümlülük nümayiş etdirmək olar.
4. Keçidlər (linklər) – öz yazınızı əlavə etməmişdən qabaq başqa bloqlarda axtarış aparmağa çalışın. Əgər başqa bloqlarda da mövzunuza bənzərini müzakirə edirlərsə, öz yazılarınızda onlara **Keçid (Link)** qoyun. Öz sevimli mövzunuzun üstündə durmaq əvəzinə müzakirələrdə iştirak etməyə çalışın.
5. Tez yazın, tez-tez yazın – öz nöqteyi-nəzərinizi çatdırmaq üçün diqqət edin. Orfoqrafiya və qrammatik səhvlər etmək məsləhət görülmür.

## Anonim bloqlama kimə lazımdır

Bəziləri fikirləşir ki, yazdıqlarına başqalarının müdaxiləsi olmayanda və müəllifliklərini gizləyə bilsələr, online yazmağa başlaya bilərlər.

Bu cür adamlar əsasən müxtəlif ölkələrdən olan hüquq müdafiəçiləri, humanitar təşkilatların işçiləri, jurnalistlər, dövlət və özəl təşkilatlarda çalışan aktiv vətəndaş mövqeyi olan adamlardır.

Nə etməli?

Birinci növbədə bloqu yaradarkən istifadə etdiyiniz e-mail ünvanının kimə məxsusluğu barədə məlumatları dəyişdirin. Yeni e-mail açmanız daha məsləhətlidir.

IP-ünvanınızı gizlədin.



downloaded from KitabYurdu.org

Məlumdur ki, şəbəkəyə daxil olan bütün kompüterlərin IP-ünvanı var. Əgər anonimliyi qorumaq istəyirsinizsə, onda IP-ünvanınızı gizlətmək lazımdır.

Bunun üçün

- *Firefox* brauzerini quraşdırın (www.mozilla.org). Onu *Mozilla* saytından yükləmək və bloqu daxil edəcəyiniz kompüterdə quraşdırmaq lazımdır.
- *Tor* proqramının son versiyasını onun saytından yükləyin (www.torproject.org) və öz kompüterinizə quraşdırın. Quraşdırma üçün təlimata riayət edin. Siz 2 proqram təminatı paketini quraşdırmalı və *Firefox*-un quraşdırılmasına bəzi dəyişiklik etməli olacaqsınız.




- *Tor* – proksi-serverlərin mürəkkəb şəbəkəsidir. Proksi-serverlər sizin adınızdan veb-səhifəni soruşur. Bu isə o deməkdir ki, veb-server kompüterin IP-ünvanını görmür. *Tor*-dan istifadə edən zaman hər səhifənin yüklənməsi üçün 3 müxtəlif proksi-serverdən istifadə edilir. Serverlər arasında ötürüldükdə səhifələr kodlaşdırılır və hətta bir və ya iki server sındırılsa da, hansı səhifəni yüklədiyiniz və ya göndərdiyinizi görmək çox çətin olacaq. *Tor*-la birlikdə *Privoxy* proqramı da yüklənir. O, brauzerinizdə təhlükəsizlik məqamlarını artırır, *cookies*lər və digər müşahidə proqramlarını qeyri-aktiv edir və bundan əlavə, veb-səhifələrdəki reklam bannerləri də kilidlənir.
- Eyni zamanda yaxşı olardı ki, *Torbutton* proqramı da quraşdırılsın (https://addons.mozilla.org/firefox/addon/2275), çünki *Tor*-u yükləyəndən sonra brauzerdə bir-bir həddən artıq



downloaded from KitabYurdu.org

çox dəyişiklik etmək lazım gəlir. Amma *Torbutton* bunu bir dəfə tıqlamaqla edir və işinizi yüngülləşdirir.




**Diqqət!** Təhlükəsizliyinizi artıracaq bu dəyişikliklər İnternetdəki işinizin sürətini xeyli azaldacaq. Ona görə seçim sizindir!

Yuxarıda sadalanan anonimliyi/gizliliyi saxlamaq üçün proqramlar İnternetdə açıq istifadədə olanların yalnız bir qismidir. Araşdırıldıqda daha çox pulsuz və səmərəli gizlilik yollarını tapmaq və istifadə etmək mümkündür.

## Bloqların reklamı/tanıdılması

Bir-birindən maraqlı bloqları fərqləndirən nədir? Aşağıda bloqları populyarlaşdıra biləcək əsas özəlliklərin təsviri verilir.

## Bloqu necə "məşhurlaşdırmalı"?

Bütün dünyadakı milyonlarla bloqdakı milyardlarla yazını fərqləndirən nədir? Ziyarətçilərin təkrar-təkrar müraciət elədiyi və media tərəfindən qəbul olunan müəllifi nə fərqləndirir?

Bu, hər şeydən öncə əks-əlaqədir. Öz oxucuları ilə daim əlaqə saxlayaraq onları əyləndirib maarifləndirməyi bacaran bloqqerlər uğur qazana bilirlər. Bu oxucuların sayı istər 10 olsun, istərsə də 10 min. Bir çoxları bloqqerlərlə jurnalistlər, yazıçılar, bazarlama mütəxəssisləri arasındakı fərqi ayırd etməyə çalışırlar. Ancaq onların hamısının məqsədi eynidir: adamların yaxasından yapışıb onlardan əl çəkməmək.

Söz azadlığının, vicdan azadlığının, mətbuat azadlığının pozulduğu ölkələrdə bloqqerlərin səsi bilgilərin yayılmasında vacib amilə çevrilir. Bloqqerlərin yerləşdirdiyi fotolar və xəbərlər hamıya lazımdır. Bəs bu və ya digər maraqlı bloqları bir-birindən nə fərqləndirir? Aşağıda bloqları populyarlaşdıra biləcək əsas özəlliklərin təsviri verilir.



downloaded from KitabYurdu.org

## Nadirlik

Ən yaxşı bloqqerlərin ətrafdakılara öz baxışı olur. Onlar öz nadir şəxsiyyətləri ilə fərqlənir və gerçək olaylar haqqında söz açırlar. Vebbloqların əsasında online jurnal, şəxsi gündəlik ideyası durur. Buna görə də anlamaq lazımdır ki, jurnalın aparılması akademik məqalələrdən, şəxssiz teleqraf stilindən fərqlənir.

## Ən yeni informasiya

Bir çox bloqun yeni informasiya yaymaqda çətinlik çəkməsi və bunun ucbatından ziyarətçilərə köhnə xəbərlər verməsi ciddi problemdir. Bu da ondan irəli gəlir ki, bloqqerlər öz işlərinə görə kimdənsə maliyyə almır və gündəlik fəaliyyətlərinin çoxluğu üzündən bloqlarını vaxtında yeniləyə bilmirlər. Bir çoxları bloqda bəzi yazılar yerləşdirir, sonra isə onu yeniləmək üçün vaxt tapa bilmir. Uğur qazanmaq üçünsə onlar daim öz resurslarını yeniləməli, ümumi qiymətləndirici materiallar yerləşdirməlidirlər. Bu heç də o demək deyil ki, onlar gündə çoxlu material yerləşdirməlidirlər. Ancaq bloqu bir neçə həftə yeniləməsən, ziyarətçilər səni tərk edəcəklər.

## Oxucularla əlaqə

Bloqları fərqləndirən əsas cəhət onların interaktiv olmasıdır. Oxucuları cəlb edib onları müzakirələrə həvəsləndirmənin, əks-əlaqənin qurulmasının çoxlu üsulu var. Misal üçün, online sorğu təşkil etmək olar, yaxud da e-poçt ünvanı vermək və ya sadəcə materialları şərhetmə imkanı vermək olar.

## Bloq yaratmaq üçün beynəlxalq və yerli resurslar

***Beynəlxalq platformalar***

**Blogger** – www.blogger.com. Pulsuzdur. 1999-cu ildə qurulub və 2003-cü ildə "*Google*" tərəfindən alınıb. Ən iri şəbəkələrdən biri hesab edilir. Burada səkkiz milyona yaxın bloq yerləşir. Platforma istifadə üçün rahat olsa da, bir sıra imkanları məhduddur.

**LiveJournal** – www.livejournal.com. Pulsuz və ya pulludur (ayda təxminən 2 ABŞ dolları). Ən köhnə platformalardan biridir, altı milyon bloqu var və əsasən də gənclər istifadə edir.



downloaded from KitabYurdu.org

**MSN Spaces** – www.msnspaces.com. Pulsuzdur. “*Microsoft*”un platformasıdır və 2004-cü ildə qurulub. Çoxlu imkanları var (foto mübadiləsi, **Messenger** keçidi). Yalnız 13 yaşdan yuxarı olanlar qeydiyyatdan keçə bilər.

www.wordpress.com – Pulsuzdur. Xeyli imkanları var. Kifayət qədər sadədir.

**AzeriBlog** – www.azeriblog.com – Azərbaycan dilində bloq yaratmağa imkan verən resurs.

### *GoogleAdSence* – reklamdan necə pul qazanmaq olar?

Son dövrlərdə “Google” reklamları adı altında müxtəlif saytlarda müxtəlif reklamlarla rastlaşırıq. Görəsən bunlar nədir? Bu, əgər internet-resursa, lap elə sadə bir bloqa sahibsinizsə, sizin də pul qazanmağınıza imkan verən internet-reklam texnologiyalarından biridir.

Hazırda kontekst (məzmun) reklam sistemləri həm veb-studiyalar tərəfindən, həm də reklamverənlər tərəfindən populyarlıq qazanmağa başlayır. Bunu kontekst reklamının İnternet reklamı içində daha effektiv olması ilə izah etmək mümkündür. Reklamverən üçün reklam aksiyasının analizi məqsədilə çox güclü imkanlar təklif olunur, reklamı qəbul edən İnternet resurs sahibləri üçün isə gözəl pulqazanma vasitəsi yaranır.

Həm internet-resurs sahibləri, həm də reklamverənlər üçün ən optimal sayıla bilən sistem *GoogleAdSence* sistemidir. Həmin sistemə qoşulmaq üçün, demək olar ki, heç bir sayta məhdudiyyət qoyulmur, bu da reklam yerlərinin sayının artmasına gətirib çıxarır (İstisna olaraq erotik saytlar, klik satan saytlar və qanunsuz (warez) saytlar qəbul olunmur). *AdSence*-a qoşulmaq üçün hətta saytın populyar olmasını gözləməyə ehtiyac yoxdur, sistemdəki hər bir resurs işlədiyi nisbətdə pulunu qazana biləcəkdir.

Reklam aksiyalarının təşkil olunmasında *GoogleAdSence* eyni zamanda *Google Analitics* sistemi ilə birlikdə istifadə olunduqda çox güclü bir kompleks vasitəsi təşkil edir.

> **Qeydiyyat:** *AdSence* sistemini İnternet resursuna yerləşdirmək üçün əvvəlcə qeydiyyatdan keçmək lazımdır. Bunun üçün əvvəlcə “Google”da qeydiyyatınız olmalıdır. Qeydiyyatdan http://www.google.com/webmasters/tools/ ünvana daxil



downloaded from KitabYurdu.org

olaraq keçmək mümkündür. “Google”da üzvlüyünüz varsa, https://www.google.com/adsense ünvanından *AdSence* üçün müraciət edə bilərsiniz. *AdSence* qeydiyyatında bütün məlumatları tam düzgün yazmağa diqqət edin, çünki məktub göstərilən ünvana göndəriləcək və pul alanda şəxsiyyət vəsiqəsini göstərməli olacaqsınız.




Problem törədə biləcək yeganə məsələ dillər kateqoriyasında Azərbaycan dilinin olmamasıdır. Onu da azərbaycanca saytlar üçün türk dilini seçməklə həll etmək mümkündür.

### *AdSence* ilə işləmək

Qeydiyyatdan keçəndən sonra tənzimləmələr bölməsindən **JavaScript** kodunu götürə bilərsiniz. Həmin kodu internet-resursunuzda reklamların göstərilməsini istədiyiniz səhifələrin HTML kodunun içərisinə yerləşdirməlisiniz. Bir səhifəyə bir neçə reklam bloqu da yerləşdirmək mümkündür. Reklam yerlərinin ölçüsü *Google-AdSence* idarəetmə panelində veb-usta tərəfindən müəyyənləşdirilir.

Həmin reklam yerlərində hansı reklamların göstərilməsi isə tamamilə “Google”a aid bir məsələdir. Saytınızın kontenti (məzmunu)



downloaded from KitabYurdu.org

*GoogleAdSence* tərəfindən təhlil edilir və ona ən uyğun reklamlar seçilərək əks olunur. *GoogleAdSence*-ın bu xüsusiyyəti saytınızda görünən reklamların istifadəçisinin diqqətini çəkməsi üçün daha yaxşı imkan yaradır və reklama klikləməklə internet-resurs sahibinə pul qazandırır.

### *AdSence* fəaliyyətdə

İnternet-resursunuzu ziyarət edən istifadəçilərin "Google" reklamları üzərinə tıqlamalar nəticəsində hesabınıza pul yığılmağa başlayır. Hesabınızda artıq 50$ yığılandan sonra "Google" qeydiyyatdan keçərkən qeyd etdiyiniz poçt ünvanınıza bu ünvanın düzgünlüyünü yoxlamaq məqsədilə məktub göndərəcəkdir. Məktubda yazılan rəqəm kodunu *GoogleAdSence* saytında qeyd edib ünvanınızı təsdiqləməlisiniz. Bundan sonra "Google" sizə həmin ünvana çeklər göndərəcəkdir. Çek üçün minimum məbləğ 100$ təşkil edir.

### Qazandığınız pulların əldə olunması

Artıq Azərbaycanda da pulların alınması problemi aradan qaldırılmışdır. Əvvəllər "Google" çeklərinin nəğdləşdirilməsində alıcılar çətinlik çəkirdilər və köçürmə əməliyyatlarında bir qədər pul itirirdilər. Hal-hazırda "Google" şirkətinin göndərdiyi xarici çekləri Azərbaycanın bir sıra banklarında problemsiz nəğdləşdirmək mümkündür, sadəcə bunun üçün 1 aya yaxın vaxt gözləmək lazım gəlir.

### Bunlar əhəmiyyətlidir

*GoogleAdSence* ilə yeni tanış olanlarda daha çox pul qazanmaq üçün öz saytlarındakı reklamlara tıqlama ideyası yarana bilər. Ancaq belə bir fikri ağlınıza belə gətirməyin. "Google" belə cəhdləri tezliklə təsbit edir, belə yollara müraciət edənləri isə sistemdən uzaqlaşdıraraq cəzalandırır. Belə hallar eyni zamanda bütün Azərbaycan *AdSence* üzvlərinə də ziyan gətirə bilər. Buna görə də maksimum dərəcədə düzgün işləmək lazımdır ki, "Google" da sizi etibarlı tərəfdaş kimi qəbul etsin.



downloaded from KitabYurdu.org

## Outlook Express




**Microsoft Outlook Express** proqramı elektron poçt xidmətinin təşkili sahəsində ən populyar proqramlardan biridir. “Windovs XP”-nin standart paketinə daxildir. Bu proqramdan istifadə etmək üçün öncə elektron ünvanlarınızı burada qeydiyyatdan keçirməlisiniz. Bunun üçün **Tools (Alətlər)** menyusunun **Accounts (Uçot)** bəndini seçmək, sonra isə **Add (Əlavə et)** düyməsini basıb **Mail (Poçt)** bəndini seçmək lazımdır. Ekrana çıxan pəncərələrdə əvvəlcə adınızı yazmaq, **Next (Növbəti)** düyməsini basdıqdan sonra e-mail ünvanınızı daxil etmək təklif olunur.

Burada qeyd etdiyiniz ad gələcəkdə məktubunuzun kim tərəfindən göndərildiyini müəyyənləşdirəcək.

Sonra dialoq pəncərəsində uyğun poçt protokollarını (gələn və göndərilən poçtların serverlərinin ünvanını) daxil edirik. Bunları provayder sizə ünvan verərkən özü təqdim edir. **Next** düyməsi vasitəsilə proses davam etdirilir. Sonra poçt qutusuna daxil olarkən tələb olunan login və password qeyd olunur. Əgər parolunuzu hər dəfə yazmaq istəmirsinizsə, **Remember Password (Parolu yadda saxla)** sahəsinə işarə qoymalısınız. Hər şeyin dəqiqliyinə əminsinizsə, **Finish** düyməsini basmaq olar. Artıq bundan sonra məktubu göndərə və qəbul edə bilərsiniz.

Yeni məktub yazmaq üçün **New Mail** düyməsini basmaq və ekrana çıxan pəncərənin müvafiq sahələrini doldurmaq lazımdır. **To (Kimə)** sahəsində kimə göndərdiyinizi, **Subject (Mövzu)** sahəsində isə mək-



downloaded from KitabYurdu.org




tubun adını (mövzusunu) qeyd edə bilərsiniz. Bundan sonra əsas mətni yığmaq və məktubu göndərmək üçün **Send (Göndər)** düyməsini basmaq lazımdır.

Əgər məktublarınızın formasını dəyişmək və ya blank formasından istifadə etmək istəyirsinizsə, **Greate Mail** düyməsini basaraq istədiyiniz formanı seçə bilərsiniz. Əgər özünüz hansısa spesifik bir forma yaratmaq istəyirsinizsə, **Select Stationery** bəndini seçmək, sonra isə **Create New** düyməsini basmaq lazımdır.




"Outlook Express"də yazdığınız yeni məktubların və cavab verdiyiniz məktubların avtomatik olaraq imzalanmasını, yəni məktublarınızın sonunda haqqınızda məlumatları siz yazmadan vermək mümkündür.

Bunun üçün **Tools** menyusundan **Options** bəndini seçmək və ekrana çıxan pəncərədə **Signatures** səhifəsini açmaq lazımdır. Burada isə **New** düyməsini seçməklə **Text** bölməsinə məktublarınızı imzalamaq üçün istifadə edəcəyiniz məlumatları daxil edə bilərsiniz. Bu pəncərədəki **Fayl** bəndini seçməklə və **Browse** düyməsi vasitəsilə imza məqsədilə istifadə etmək istədiyiniz və qabaqcadan hazırladığınız fayldan da yararlana bilərsiniz.



Adi real məktublaşma zamanı adətən zərfin içərisinə digər bir məktubun və ya açıqcanın qoyulması mümkündür. Elektron məktublaşmada da bu imkan nəzərdə tutulub. Bunun üçün məktubu yazıb qurtar-



downloaded from KitabYurdu.org









downloaded from KitabYurdu.org

dıqdan sonra **Insert** menyusundan **Fayl attachment** bəndini seçirsiniz. Ekrana çıxan pəncərədə məktuba əlavə etmək istədiyiniz faylı seçib **Attach** düyməsini basırsınız. Bu zaman göndərmək istədiyiniz məktubun **Attach** bəndinin qarşısında əlavə etmək istədiyiniz faylın adını və onun həcmini görəcəksiniz. Deməli, məktub və ona əlavə etmək istədiyiniz fayl göndərilmək üçün hazırdır. **Send** düyməsini basıb məktubu yola saldıqdan sonra göndərilmiş məktublar qovluğunda həmin məktubun adının qarşısında **Attach** işarəsi olacaq. Həcmi böyük olan faylları müxtəlif arxiv proqramlarının (WinZip, WinRar) köməyi ilə sıxdıqdan sonra göndərmək məqsədəuyğundur.







Sizə gələn məktubda **Attach** işarəsi varsa, deməli, məktuba əlavə fayl (və ya fayllar) da qoşulub. Əlavə olunmuş faylı oxumaq üçün mausu onun üzərinə gətirərək faylı aktivləşdirmək və ekrana çıxan pəncərədə **Open** düyməsini basmaq lazımdır. Əlavə olunmuş faylı kompüterinizə köçürmək üçün mausla **Attach** işarəsini aktivləşdirdikdən sonra **Save attachments** menyusunu basmaq, **Browse** düyməsi vasitəsilə faylı hara köçürəcəyinizi müəyyən etmək, mausla əlavə olunmuş faylı (və ya faylları) seçmək və **Save** düyməsini basmaq lazımdır.

Bəzən eyni məktubu bir neçə nəfərə göndərmək lazım gəlir. Bu halda **Cc** bölməsinə müvafiq ünvanlar aralarında vergül qoymaqla qeyd edilir. Bu məktubu alanlar məktubun başqaları tərəfindən də alındığını bilirlər. Məktubun birinci alıcısının o birilərdən xəbərinin olmaması vacibdirsə, onda onların ünvanları **Bcc** bölməsinə yazılmalıdır.



downloaded from KitabYurdu.org

Büdcənizə qənaət üçün məktubunuzu İnternetə daxil olmadan *New mail* vasitəsilə yazaraq və **Save** menyusundan istifadə edərək **Drafts (Qaralama)** qovluğunda saxlaya bilərsiniz. İnternetə daxil olduğunuz zaman **Drafts** qovluğuna daxil olaraq həmin məktubu istənilən an göndərə bilərsiniz.

Gələn məktuba cavab vermək üçün **Reply (Cavab vermək)** düyməsindən istifadə etmək olar. Bu zaman gələn məktubun **Subject** hissəsinin qarşısında **Re:** sözü yazılacaq.

Əgər sizə gələn məktub eyni zamanda digər şəxslərə də ünvanlanıbsa, **Reply all (Hamıya cavab vermək)** düyməsini basmaqla göndərəcəyiniz cavab məktubunu sizə gələn məktubda qeyd olunan bütün ünvanlara göndərmək olar. Bu zaman göndərəcəyiniz məktubun mətn hissəsində rəngli şəkildə qeyd olunan ünvanları silə bilərsiniz. Əgər bu halda yalnız **Re** düyməsindən istifadə edilsəydi, onda cavab məktubunuz yalnız sizə məktub göndərənə ünvanlanacaqdı.

Gələn məktubu yeni ünvana göndərmək üçün **Forward** düyməsindən istifadə etmək lazımdır.

Sizə gələn məktubu hələ oxumağa imkan tapmamısınızsa, onda onun "Outlook Express"də adı və digər parametrləri qalın şriftlə görünəcək.




"Outlook Express" proqramı hər 30 dəqiqədən bir poçt qutusunu avtomatik yoxlayır və bu haqda səs salaraq xəbərdar edir. **Tools (Alətlər)** menyusunun **Options** bəndini seçərək **General** pəncərəsindəki parametrləri dəyişməklə poçtun avtomatik yoxlanılması müddətini və səs effektini dəyişmək olar. Əgər özünüz hər an poçtunuzu yoxlamaq istəyirsinizsə, **Send and receive (Göndər və qəbul et)** düyməsindən istifadə edə bilərsiniz.

"Outlook Express" proqramının 5 əsas qovluğu var: **Inbox** – Gələn məktublar qutusu, **Outbox** – Göndəriləcək məktublar qutusu, **Send Items** – Göndərilmiş məktublar qutusu, **Deleted items** – Silinmiş məktublar qutusu, **Drafts** – Qaralamalar qutusu.



downloaded from KitabYurdu.org

Yazdığınız məktublar göndərilənədək **Drafts** qovluğunda qalır. Silinmiş məktublar **(Deleted items)** qovluğundakı məktublardan hər zaman yenidən istifadə edə bilərsiniz. Lakin bu qovluqdakı məktubları bir daha sildikdən sonda onlardan istifadə mümkünsüzdür.

Arzunuza uyğun olaraq yeni adlar altında qovluqlar yaratmaq mümkündür. Bunun üçün "Outlook Express"in sol yuxarı küncündəki **Folders (Qovluqlar)** üzərinə mausu gətirərək sol düyməni basaraq **New folder** bəndini seçmək lazımdır. Ekrana çıxan pəncərənin yuxarısında yaratmaq istədiyiniz qovluğun adını yazmaq, aşağıda isə qovluğun yaradılacağı yeri mausla seçmək lazımdır.




E-poçt proqramında tanışlarınızın və məktublaşdığınız şəxslərin ünvanlarından ibarət ünvanlar kitabı "düzəltmək" mümkündür. Bunun üçün **Addresses book (Ünvanlar kitabı)** menyusundan **New** düyməsini basmaq, sizə məlum olan şəxslərin məlumatlarını müvafiq bölmələrə qeyd etmək lazımdır. Bu siyahıdan kiməsə məktub göndərilən zaman onun ünvanını yenidən yazmağa ehtiyac yoxdur. **To** bəndinin (həmçinin **Cc** və **Bcc** bəndlərinin) qarşısındakı düyməni basmaqla yuxarıda söhbət açılan ünvan kitabını, oradan isə lazım olan ünvanı mausla qeyd etmək kifayətdir. **Ctrl** düyməsini basıb saxlamaqla bir neçə ünvanı birdəfəyə seçmək mümkündür.

**Addresses book** pəncərəsində **New** menyusundan **New group** bəndini seçməklə maraqlarınıza uyğun olan ünvanlar üzrə müxtəlif qruplar hazırlamaq olar. Bunun üçün ekrana çıxan pəncərədə qrupun adını daxil etmək, **Select Members** düyməsi vasitəsilə bu qrupa aid edəcəyiniz ünvanları seçmək və siyahıya daxil etmək lazımdır. Həmin ünvanlarla məktublaşmaq üçün sadəcə bu qrupun adını məktubun **To** (həmçinin **Cc** və **Bcc)** hissəsinin qarşısına yazmaq kifayətdir. Məktub qrupun daxilində olan bütün ünvanlara gedəcək.

Əgər göndərdiyiniz məktub ünvanına yetişməyibsə, bu haqda sizə məktub daxil olur. Bu mesajın içərisində geri qayıtmanın səbəbləri qeyd edilir. Belə hallarda adətən ünvan səhv yazılmış olur.



downloaded from KitabYurdu.org

Bir sıra serverlər **Mailing list (Məktublaşma siyahısı)** adlı xidmət təklif edirlər. Server sahibləri malik olduqları informasiyanı buna maraqlı insanlara çatdırmaq üçün öz səhifələrində avtomatlaşdırılmış informasiya sistemi qururlar. Səhifədə müvafiq yerdə öz elektron poçtunuzu qeyd etdikdən sonra bu informasiya sistemi **Məktublaşma siyahısı**na daxil olan bütün istifadəçilərə əvvəlcədən qeyd olunmuş vaxtlarda avtomatik məktub yollayır. Bu cür siyahılara daxil olan istifadəçilərin öz aralarında informasiya mübadiləsinə imkan yaradan informasiya sistemləri də fəaliyyət göstərir. **Mailing list (Məktublaşma siyahısı)** sisteminin elektron ünvanına məktub yollasanız, məktubunuz bu siyahıya daxil olan bütün istifadəçilərə göndəriləcək. Əgər poçtunuza daxil olan aramsız məktublar sizi artıq bezdirirsə, o zaman **Mailing list** səhifəsinə daxil olun və siyahıdan çıxmaq prosedurunu yerinə yetirin.

Daxil olan elektron məktublarla bir qədər ehtiyatlı davranın. Mətn redaktorları ilə yığılmış fayla müxtəlif proqramlar da əlavə etmək mümkün olduğundan bu cür fayllarda viruslar da olur. Əgər kompüterinizə normal antivirus yükləməmisinizsə, mausu həmin məktubun üzərinə gətirdiyiniz an (hətta məktub açılmadığı halda) virus kompüterinizə keçir. Əgər kompüterinizdə tez-tez yeniləşdirdiyiniz antivirus proqramı varsa, o, sizə gələn və kompüterinizdən çıxan bütün məktubların "viruslu" olub-olmadığını sizdən xəbərsiz yoxlayır. Son dövrlərdə meydana çıxan kompüter viruslarını hətta ən güclü antivirusların da "zərərsizləşdirə" bilmədiyi hallar olur. Belə hal olduqda mütəxəssisə müraciət etmək tövsiyə olunur. Kompüterinizdə virus olmasından şübhələnirsinizsə və ya dostlarınızdan kimsə sizdən viruslu məktublar gəldiyini söyləyirsə (siz məktub göndərməsəniz də) əmin ola bilərsiniz ki, kompüterinizdə "Troyan" adlanan viruslardan biri özünə rahat yer tapıb. Və o, İnternetə daxil olduğunuz andan proqramınızın yaddaşında olan bütün ünvanlara sizdən xəbərsiz məktublar yola salmaqla məşğuldur.

Elektron məktubu yola salarkən onun çatmasını təsdiqləyən məlumatın sizə göndərilməsini də təmin edə bilərsiniz. Məktub çatan kimi poçtunuza bu haqda bildiriş daxil olur.

Uzaq səfərlərdə olarkən bəzən yerli provayderlərin, yerli poçt xidmətlərinin serverlərindən istifadə etmək problemi yaranır.



downloaded from KitabYurdu.org

Bununla belə, dünyanın harasında olmağınızdan asılı olmayaraq, poçtunuzu yoxlamağa imkan verən proqramlar mövcuddur. www.mailstart.com və ya www.mail2veb.com saytlarına daxil olaraq şifrənizi və E-poçt ünvanınızı daxil etməklə poçtunuzdan asanlıqla istifadə edə bilərsiniz.

İnternet vasitəsilə göndərdiyiniz faylların qarşı tərəfdə başqasının əlinə keçmədən çatmasına əmin olmaq istəyirsinizsə, bir çox şifrələmə proqramlarından istifadə edə bilərsiniz. Bu proqramlar vasitəsilə məktublarınız müxtəlif alqoritmlərlə şifrələnərək göndərilir. Bəzi kəşfiyyat proqramları isə informasiyanı adi bir şəkil faylının içində gizlədib göndərməyə də imkan verir.

## İnternetdə informasiya axtarışı

İnternetdə bəlkə də ən çox çətinlik yaradan problemlərdən biri nəyisə axtarıb tapmaqdır. Ancaq İnternetdə də adi kitabxanalarda kitabların axtarılıb tapılmasına oxşar bir sistem var. Bu axtarış sistemləri müxtəlif xüsusiyyətlərə malikdir.

Ən populyar axtarış serverləri www.google.com, www.yahoo.com, www.altavista.com, milli axtarış server-kataloqlarından isə www.search.az, www.saznet.org, www.kataloq.net, www.azeroo.com, www.yumroo.az və s. göstərmək olar.

İnternetdə informasiya axtarışını həyata keçirən axtarış serverləri axtarma mexanizmlərinin strukturuna görə bir neçə cür olur:






downloaded from KitabYurdu.org

Axtarış sistemləri – İnternetdəki dəyişiklikləri izləyən və yeni resursları avtomatik olaraq öz bazasına əlavə edən sistemlər;

Kataloqlar üzrə axtarış sistemləri – konkret mövzular üzrə qovluqlar yaradan və yeni resurlar haqqında məlumatları bu qovluqlara daxil edən axtarış serverləri;

Metaaxtarış – digər bir və ya bir neçə axtarış sisteminin bazasında axtarış aparan sistemlər.

Xarici axtarış maşınlarının əksəri ingiliscə, az qismi isə rus dilindədir. Yalnız "**Google**" Azərbaycan dilinə tərcümə edilib. Bununla belə, bəzi axtarış proqramları Azərbaycan sözlərini axtara bilir.

Azərbaycandilli resursların ən səmərəli əsas axtarış sistemi www.google.az-dır.

### Lazımi informasiyanı İnternetdə necə tapmalı

Axtarış sistemləri qrupuna daxil olan axtarış serverləri xüsusi proqram vasitəsilə İnternetdə mövcud olan, hətta yeni daxil edilən səhifələr haqqında məlumatları avtomatik öz yaddaşlarına köçürür (məlumat bazası yaradır). Bu prosesi çox vaxt **indeksləmə** də adlandırırlar.

Sizi maraqlandıran mövzuya dair açar sözü, ifadəni yazıb serverə göndərirsiniz. O isə, öz növbəsində, bu sözlərə uyğun gələn saytların siyahısını sizə təqdim edir. İnternetdə nəsə axtarıb tapmağın ən asan yolu budur.




İnternetdə axtarış aparmağın digər üsulu da axtarış qovluqlarından (**Internet directories**) istifadə etməkdir. Qovluqlarda mövzulara görə ayrılmış şəbəkə resurslarına, əsasən də WWW sənədlərə keçidlər yığılır. Bu keçidlərin yığımı avtomatik olaraq hər bir qovluğun yönəticisi tərəfindən həyata keçirilir. Bu da istifadəçilər üçün rahatlıq yaradır. Belə ki, artıq bütün İnternetdə deyil, konkret mövzuya aid qovluqda aparılan axtarış daha



downloaded from KitabYurdu.org

səmərəli olur. İnternet qovluqlarla işləyən axtarış saytları əlavə xidmətlər də göstərir: açar sözə görə axtarış, son daxil olunmuş resursların siyahısı, təsadüfi istinadlar siyahısı, yeni daxil olan resurslar haqqında e-mail-ə xəbər göndərmək və s. Bütün bunlar İnternet qovluqlarla işləməyi daha da asanlaşdırır. Bu üsulla işləyən axtarış saytlarından ən məşhur olan *Yahoo.com*, milli resurslardan www.kataloq.net saytlarını göstərmək olar.

İnternetdə tez-tez axtarış aparanlar üçün "Explorer 6"da axtarış aparmaq imkanı da nəzərdə tutulub. **Search (Axtar)** düyməsini basmaqla sol tərəfdə çıxan paneldən axtarış aparmaq üçün istifadə edə bilərsiniz. Ünvan sətrinə açar sözlərin daxil edilməsi zamanı axtarış ilkin vəziyyətdə MSN-də aparılacaq. Başqa axtarış sistemlərinə keçmək üçün bu paneldəki **Customize** düyməsini basmaq kifayətdir. Bu halda əksər axtarış sistemlərinin adları qeyd olunan panel qarşınıza çıxacaq. İstədiyiniz axtarış sisteminin adının qarşısında mausla işarə qoyaraq və axtarış sətrinə müvafiq açar sözlərini yazaraq axtarışa başlaya bilərsiniz.

Axtarış səhifələrinin əksəriyyətində **Ətraflı axtarış, Seçimlər** və s. bu kimi təkmilləşdirilmiş axtarış mexanizmləri yaradılıb. Bunlardan səmərəli istifadə axtarışınızın daha uğurlu alınmasına səbəb olar.

Ətraflı axtarış zamanı əsasən resursların hansı dildə olması, açar sözlərin səhifə başlığında, altbaşlıqda, yoxsa bütün səhifədə axtarılması, hansı domen genişlənməli saytlarda axtarmalı (*.com, .org, .az*), əgər şəkil axtarılırsa, onun tipi (*jpeg, bmp, gif*), ölçüləri, rəngli olub-olmadığı göstərilir. Siz istədiyiniz göstəricilər üzrə axtarışı davam etdirə bilərsiniz. Bunun üçün onları qeyd etmək və ya seçim edib **Axtar (Search)** düyməsini basmaq lazımdır.

Müxtəlif axtarış sistemlərində axtarışın nəticələrinin müxtəlif olmasının səbəbi həm onların axtarış alqoritmlərinin müxtəlifliyi, həm də axtarışı həyata keçirmək üsullarının fərqliliyidir. Yuxarıda qeyd olunan axtarış sistemlərində resurslar serverin verilənlər bazasına xüsusi proqramlar tərəfindən avtomatik yığılır, axtarış qovluqları üsulu ilə işləyən sistemlərdə isə bu resursları sistemin yönəticiləri yığır. Bu səbəbdəndir ki, axtarış sistemlərində resurs daha çox olur, ancaq onların arasında "lazımsızların" sayı da həddən artıq çoxdur. Axtarış qovluqları ilə işləyən *Yahoo.com* kimi axtarış sistemlərində isə resurslar sayca az olsa da, keyfiyyətli resurs daha çox olur.



downloaded from KitabYurdu.org




Axtarış sistemləri keçidlərin səmərəliliyinə fikir vermədən onları indeksləyir. Buna görə də bu sistemlər İnternetdəki bütün resursları tapır. Digər tərəfdən, əgər siz sorğunu düzgün yazmamısınızsa, onda axtarış istədiyiniz uğurlu nəticəni verməyəcək. Axtardığınız resurs haqqında bildiyiniz bilgilərə əsasən internet-qovluqlardan istifadə etsəniz, daha səmərəli nəticə əldə edə bilərsiniz.

İnternetdə hər hansı bir informasiyanın axtarışı adətən sorğu yolu ilə müxtəlif üsullardan istifadə edilməklə aparılır. Sorğuların düzgün təşkili axtarışın uğurlu nəticələnməsinə təsir edən əsas amildir. Lakin sorğuların təşkili zamanı da müxtəlif problemlər çıxır. Bu problemlərin bir hissəsi əksər axtarış serverlərində olan ətraflı axtarış imkanı, istifadəçilərlə dialoq rejimində həll olunur.

Müxtəlif axtarış sistemlərinin sorğu qaydası müxtəlifdir. Aşağıdakı cədvəldə axtarış sistemlərinin sorğu dillərinin sintaksisi verilib.

> Axtarışla bağlı sorğunu yazarkən ayrı yazılan sözlər arasında *or, and, and not, aralıq (probel)* kimi operatorlardan istifadə edilə bilər. Hansısa sözün sonuna * işarəsi qoyularsa, bu o deməkdir ki, axtarış proqramı həmin sözlə başlayan bütün sözləri axtaracaq.

Adətən kobud axtarış aparmaq üçün açar sözləri probellə, vergülsüz yazmaq kifayətdir. Bu zaman axtarış hər sözə görə aparılır.



downloaded from KitabYurdu.org

+ işarəsi sənəddə olması vacib olan sözlərin qarşısında qoyulur.

“ ” (dırnaq işarəsi) müəyyən söz birləşmələri və ya ifadələr olan sənədləri tapmaq üçün istifadə edilir.

Məsələn: “*Azərbaycan incəsənəti*” yazdıqda axtarış proqramı yalnız “*Azərbaycan incəsənəti*” söz birləşməsi olan bütün sənədləri tapacaq.

Əgər sorğu “*Azərbaycan incəsənəti*”*+teatr* formasında yazılsaydı, onda axtarış proqramı “*Azərbaycan incəsənəti*” sorğusu nəticəsində alınmış resurslar içərisindən yalnız “*teatr*” sözü olanları seçəcək.

Əgər sorğu “*Azərbaycan incəsənəti*”*+teatr+Hacıbəyov* formasında yazılsa, o zaman yuxarıda tapılmış sənədlər içərisindən yalnız Hacıbəyov soyadı ilə bağlı olanlar seçiləcək.

“-” işarəsi isə əksinə, sənəddə vacib olmayan sözlərin qarşısında istifadə olunur.

Məsələn, tutaq ki, siz Azərbaycan incəsənəti ilə bağlı informasiya axtarırsınız və sizi teatr ümumiyyətlə maraqlandırmır.

Bu halda sorğu “*Azərbaycan incəsənəti*”*-teatr* formasında yazıla bilər və bu sorğu nəticəsində axtarış proqramı “*Azərbaycan incəsənəti*” sorğusu ilə alınmış resurslar içərisindən yalnız “*teatr*” sözü olmayanları seçəcək.

Əgər nəyisə axtardığınız zaman ümidiniz doğrulmayıbsa, faydalı hesab olunacaq saytlar yoxdursa, o zaman sorğunuza oxşar (sinonim) sözlər də daxil edin.

Bunun üçün (|) işarəsindən (*Yandex, Yahoo* və s. üçün) və ya (~) tilda işarəsindən (**“Google”** üçün) istifadə edilir.

Məsələn, rusdilli resurslar içərisində “*referatlar*” axtarmaq üçün *“курсовые работы”|сочинение|рефераты* sorğusundan istifadə etmək olar. Bu sorğu nəticəsində daxil edilən sözlərdən heç olmasa birinin olduğu sənədlər tapılacaq.

Əksər axtarış sistemlərində “*Azərbaycan diaspora*”, “*Azərbaycan AND diaspora*”, “*Azərbaycan&diaspora*”, “*+Azərbaycan+diaspora*” sorğusu, demək olar ki, ekvivalentdir.

Daha bir misal. Tutaq ki, qarşınızda belə bir problem durur: tərkibində “*Azərbaycan*” sözü və ya “*diaspora*” sözü olan bütün sənədlərin siyahısını İnternetdən əldə etmək.

Azərbaycan dilini dəstəkləyən axtarış sistemlərində bu sorğunu qısaca *Azərbaycan OR diaspora* kimi vermək olar. Onda tapılan bütün sənədlərdə ən azı “*Azərbaycan*”, ya da “*diaspora*” sözü olacaq.



downloaded from KitabYurdu.org

Əgər sorğu *Azərbaycan AND diaspora* kimi verilsə, onda elə sənədlər tapılacaq ki, bu sənədlərin hər birində eyni zamanda həm "*Azərbaycan*" sözü, həm də "*diaspora*" sözü olacaq. Diqqət yetirin! Bu halda "*Azərbaycan diaspora*" söz birləşməsi olmaya da bilər.

Ümumiyyətlə, axtarış serverlərinin hədsiz geniş imkanları var. Son dövrlərdə bu serverlər axtarışdan əlavə digər xidmətlər də təklif edir. "**Google**"un axtarış imkanlarını təfsilatı ilə *Google.az*-da **Ətraflı axtarış** bəndini seçərək **Basics of Search** və **Advanced Search Tips** menyuları vasitəsilə əldə edə bilərsiniz.

Bəzən elə olur ki, saatlarla əlləşsək də, axtardığımız məlumatı İnternetdə tapa bilmirik. Halbuki həmin sayt İnternetdə var. Bu isə artıq sayı 1 milyardı ötən saytları indeksləməkdə çətinlik çəkən axtarış sistemlərinin qüsurudur.

Son dövrlərdə Qlobal şəbəkədə daha bir nəhəng informasiya mərkəzi formalaşmaqdadır. Bu, **Vikipedia**-dır. Viki (wiki – sürətli, tez) texnologiyası əsasında qurulan bu elektron kitabxana axtarış sistemi də hesab oluna bilər. Bu ensiklopedik informasiya mənbəyinin digərlərindən əsas fərqi informasiyaların konkretliyindədir. Məsələn, "**Google**"da nəyisə axtaranda milyonlarla sayt tapılır, tapılan resursların çoxluğu əslində onun əhəmiyyətini azaldır. Vikipediada isə konkret kataloqlar üzrə konkret informasiya əldə etmək daha asandır. Burada bütün işlər müxtəlif bölmələr və müxtəlif milli dillər üzrə seçilən inzibatçılar tərəfindən görülür. İnzibatçılar informasiyanın tərəfsizliyinə, müstəqilliyinə, yəni reklam xarakterli informasiyalara imkan verilməməsinə cavabdehdirlər. Əsas gözəlliklərindən biri də hər bir şəxs tərəfindən istənilən informasiyanın məqalə kimi daxil edilməsinə, həmçinin kimsə tərəfindən daxil edilmiş yazılara müəllif hüquqlarına hörmət edilməsi şərtilə düzəlişlər edilməsinə imkan yaradılmasındadır. Vikipedia cəmiyyətinin yaradıcısı və əsas əlaqələndiricisi əslən amerikalı Cimmi Wales-dir. Ekspertlər Vikipedianın gələcəkdə internet-reklamdan milyardlarla dollar qazanan "**Google**"u sıxışdıracağını iddia edirlər. Daha geniş məlumat üçün bax: **az.wikipedia.org**

Ərazisinin bir hissəsi işğal altında olan, müharibə labüd olan Azərbaycan üçün hazırda Qlobal dünyada ən populyar açıq informasiya mənbəyinin ciddi əhəmiyyət kəsb etdiyini düşünərək bu ensiklopediya haqqında bir qədər geniş məlumat vermək səmərəli olardı.



downloaded from KitabYurdu.org

Aşağıda "Google" axtarış sisteminin müxtəlif axtarış operatorları haqqında məlumatı təqdim edirik:




"Google" axtarış sistemində axtarış operatorları

Daha uğurlu və konkret nəticəni **Advanced Search (Daha üstün axtarış)** səhifəsindən və ya **Help (Kömək)** səhifəsindən də əldə etmək olar. Müxtəlif misallar üzrə "Google" axtarış sistemini öyrənməyə başlayaq. Axtarış prosesini daha rahat izah etmək üçün "plastik" və "cərrahiyyə" sözlərindən istifadə edək.

plastik cərrahiyyə (heç bir dırnaq işarəsindən istifadə olunmur). Bu halda axtarış verildiyi zaman "Google" sistemi veb-səhifələrdəki yazı və ya cümlələr daxilindən qeyd olunan sözləri tapır. Bu zaman axtarılan sözlərin yan-yana olması əsas götürülmür. Axtarışa verilən sözlər əlavə işarələrdən istifadə edilməyərək yazıldığında "Google" axtarış terminlərindən olan **AND (və)** əmri ilə eyni nəticəni verir. Yəni istənilən sözlər veb-səhifə daxilində harada tapılsa, o, nəticə kimi bizə göstərilir. Nəticə səhifəsində



downloaded from KitabYurdu.org

bəzən yazı daxilində **...** (üç nöqtə) görürük. Üç nöqtə yazının müxtəlif hissələrindən nəticənin seçildiyini bildirir.

"plastik cərrahiyyə" (" " dırnaq işarələrindən istifadə olunarsa).

Dırnaq işarələrindən istifadə edilərək verilən axtarış **phrase (fraza)** axtarışı adlanır. Bu zaman iki sözün yan-yana olduğu nəticələr ekrana verilir.

plastik OR cərrahiyyə (**OR** və ya | operatorundan istifadə olunub).

OR (və ya, yaxud) əmri, mənasından göründüyü kimi, iki sözdən birinin belə olduğu nəticəni tapmaq əmridir. Bu zaman yuxarıda yazıldığı şəkildə axtarışı vermək daha məqsədəuyğundur. Alınan nəticələr sözün birinci və ya ikinci yazılmasından asılı olmayaraq tapılır.

plastik-cərrahiyyə (– operatorundan istifadə olunub).

– (minus) əmri axtarış zamanı ən lazımlı əmrlərdən biridir. Plastik sözünü (material mənasında) axtardığınız zaman sizə ən populyar mövzulardan biri olan *plastik cərrahiyyə* ilə bağlı nəticələrin verildiyini görürsünüz. Belə nəticələrin çoxluğu istədiyiniz mövzunu tapmağınızı çətinləşdirir. Bu zaman axtarışdan sonra cərrahiyyə ilə bağlı nəticə görmək istəmirsinizsə, – əmrini *cərrahiyyə* sözünün qarşısına əlvə etməlisiniz. Belə etdiyiniz təqdirdə axtarış *cərrahiyyə* sözü olan nəticələri çıxacaqdır və *plastik cərrahiyyə* axtarış nəticələrində öz yerini tapmayacaqdır.

juninhio+and zidane (+ operatorundan istifadə olunub).

"*Google*" axtarış üçün yazılan bəzi sözlərə əhəmiyyət vermir və onları axtarışın bir hissəsi etmir. Nəticədə həmin sözlər qaraldılmır. Amma siz həmin sözlərin qarşısına + işarəsi qoysanız, həmin sözlər nəticələrdə qaraldılmış olacaq. Əhəmiyyətli sayılmayan həmin sözlərin bəziləri bunlardır: **how, for, the, and...**

Bundan əlavə, + işarəsi iki söz arasında məsafə buraxılmadan yazılarsa, o sözlərin yan-yana olduğu nəticələr axtarılacaqdır. Bəzən bizim bilmədiyimiz səbəblərdən axtarış nəticə vermir. Bu bizim məlumatsız olmağımızla əlaqədar ola bilər. Ona görə də sırf istədiyiniz sözün nəticədə öz yerini tapmasını istəyirsinizsə, onun qarşısına + işarəsini qoymanız məsləhətdir.

"İbayev*dedi" (* operatorundan istifadə olunub).

Bizə artıq məlumdur ki, dırnaqlar arasında yazılan sözlər bir fraza kimi, yəni sözlərin birlikdə olduğu mətnlər axtarılır. * işarəsi iki söz arasına artırıldıqda və sözlər dırnaq işarələri daxilində



downloaded from KitabYurdu.org

yazıldığında nəticədə ilk sözlə başlayan və sonu ulduz işarəsindən sonrakı sözlə bitən cümlələri görürük.

Azərbaycan 1990...1999 (... operatorundan istifadə olunub).

Müəyyən bir mərhələdə (zaman daxilində) adı yazılan yerlə və ya adamla bağlı nəticələr verir. Həmin dövrlə və axtarılan sözlə bağlı nəticə əldə edə bilərsiniz. Burada rəqəmləri hərflərlə əvəz edə bilərsiniz. Məsələn, dvd a...z

| Axtarış servisi | Axtarış operatorları |
|---|---|
| **Veb Search** | allinanchor:, allintext:, allintitle:, allinurl:, cache:, define:, filetype:, id:, inanchor:, info:, intext:, intitle:, inurl:, movie:, phonebook:, related:, rphonebook:, site:, stocks:, |
| **Image Search** | allintitle:, allinurl:, filetype:, inurl:, intitle:, site: |
| **Groups** | allintext:, allintitle:, author:, group:, insubject:, intext:, intitle: |
| **Directory** | allintext:, allintitle:, allinurl:, ext:, filetype:, intext:, intitle:, inurl: |
| **News** | allintext:, allintitle:, allinurl:, intext:, intitle:, inurl:, location:, source: |
| **Froogle** | allintext:, allintitle:, store: |

**Qeyd:** Tam nəticə əldə etmək istəyirsinizsə, o zaman əmrlərdən sonra yazılan sözləri çalışın qoşa nöqtəyə yaxın yazın.

allinanchor: Osman Gunduz (**allinanchor:** operatorundan istifadə olunub).

Link və ya yazı düymələri üzrə axtarış verə bilir. Bu operator vasitəsilə ondan sonra yazılan hər hansı söz link və ya düymə şəklində mövcuddursa, axtarış nəticələrində öz əksini tapır.

allintext: Meqa tərəfindən (**allintext:** operatorundan istifadə olunub).

Verilən sözləri eyni mətn daxilində tapırsa, nəticəyə verir.

allintitle: Meqa şirkəti (**allintitle:** operatorundan istifadə olunub).

Bu əmr vasitəsilə veb-səhifə başlıqlarına görə axtarış verə bilərsiniz. Səhifə yaradılarkən başlıq proqram təminatında bildirilir. Veb-səhifələrdə başlığın mütləq səhifənin ortasında iri hərflərlə yazılması qaydası yoxdur. Əsas səhifənin xoş dizayna malik olmasıdır.



downloaded from KitabYurdu.org

| Fayl formatı | Suffiks | İzahı |
|---|---|---|
| Adobe Acrobat PDF | Pdf | Bu formatda əsasən kitablar, kitabçalar və digər sənədlər yaradılır. |
| Adobe PostScript | Ps | Elmi sənədlər üçün ən çox istifadə olunan formatdır. |
| Hypertext Markup Language | html or htm | Veb-səhifələr üçün ilkin dil. |
| Lotus 1-2-3 | wk1, wk2, wk3, wk4, wk5, wki, wks, or wku | Böyük ölçülü cədvəl formatıdır. |
| Lotus WordPro | lwp | Lotus yazı proqramının formatıdır. |
| MacWrite | mw | Makintoş sisteminin yazı proqramı formatıdır. |
| Microsoft Excel | xls | Excel proqramının formatıdır. |
| Microsoft PowerPoint | ppt | PowerPoint prezentasiya proqramının formatıdır. |
| Microsoft Word | doc | Word proqramının formatıdır. |
| Microsoft Works | wks, wps, or wdb | Microsoft Works proqramının formatıdır. |
| Microsoft Write | wri | Makintoş-da yazı proqramının formatıdır. |
| Rich Text Format | rtf | Word proqramında bir formatdan digərinə keçə bilmə üçün yaradılmış formatdır. |
| Plain Text | ans or txt | Heç bir əlavə xüsusiyyəti olmayan adi yazı formatı. |

allinurl: meclis faq (**allinurl:** operatorundan istifadə olunub).

Veb-səhifə ünvanının özündə olan sözlərə görə axtarış verə bilərsiniz. Yuxarıdakı misalda Milli Məclisin saytında sualları cavablandırma (*FAQ-Frequently Asked Questions – Tez-tez soruşulan suallar*) bölməsinin olub-olmadığını bilmək üçün axtarış verilib və nəticə alınıb.

author: Osman Gunduz (**author:** operatorundan istifadə olunub).



downloaded from KitabYurdu.org

Müəllifə görə axtarış operatoru. WWW sənədi yaradan və ya müəllifi olanları nəticəyə verir.

cache: www.networkaz.co.cc (**cache:** operatorundan istifadə olunub).

*Cache* operatoru "Google" sisteminin işləmə prinsipi haqda məlumat verə biləcək əmrlərdəndir. Bu operator qarşısında yazılan hər hansı veb-səhifə ünvanının "Google" sistemində nə vaxt qeydə alınması haqda məlumatlara baxa bilərsiniz. Ya da axtarış verdiyiniz veb-səhifə açılmırsa, ya axtarışda ön səhifələrdə deyilsə, onun ümumiyyətlə "Google" tərəfindən qeydə alınıb-alınmadığını "cache:" operatoru vasitəsilə bilmək olar. "Google" qeydiyyatı hər 48 saatdan yenilənir.

define: book (**define:** operatorundan istifadə olunub).

"Google" lüğətindən istifadə üçün *define:* əmri qarşısında tərcümə etmək istədiyiniz sözü yazırsınız. Alman, fransız, holland, ingilis, ispan, portuqal, rus, çin, italyan dillərində sözləri tərcümə etmək mümkündür. Sadalanan dilləri axtarış nəticəsi olan pəncərədə səhifənin sonunda görə bilərsiniz. Əgər iki nöqtə qoymadan *define* və ya *what is* yazsanız, sözün vebdə izahı (ingiliscə) veriləcək.

PHP filetype: doc (**filetype:** operatorundan istifadə olunub).

*Filetype* ən lazımlı əmrlərdən biridir. Əgər siz müəyyən bir formatda sənəd, şəkil... axtarırsınızsa, *filetype:* köməyinizə çatacaqdır. Bunun üçün sənədin adını və *filetype:* əmrinin qarşısına sənədin formatını yazın. Aşağıda mümkün axtarış formatlarının siyahısı göstərilmişdir:

id: dyp.gov.az (**id:** operatorundan istifadə olunub).

ID – identifikasiya (müəyyənləşdirmə) deməkdir. Sayt haqqında qısa məlumat verir.

600 Euros in USD (**in** operatorundan istifadə olunub).

Valyuta dəyişməsi zamanı nə əldə edəcəyinizi "in" operatoru vasitəsilə öyrənə bilərsiniz. Bunun üçün ilk məbləğ, valyuta "in" operatoru və sonra hansı valyutaya dəyişmək istəyirsinizsə, onu yazırsınız və nəticə çıxır.



downloaded from KitabYurdu.org

php inanchor: ilkaddimlar (**inanchor:** operatorundan istifadə olunub).

Domen adı və link daxilində istənilən sözü tapır. *İnanchor:* operatorundan sonra yazılan söz əsas domen adlarında axtarılır. Operatordan əvvəl yazılan sözlər link daxilində və əsas domenə əlavə olunmuş səhifələrdə axtarılır.

info: dyp.gov.az (**info:** operatorundan istifadə olunub).

İnfo – informasiya deməkdir. Müəyyən bir sayt haqqında informasiya verir.

insubject: study abroad (**insubject:** operatorundan istifadə olunub).

"Google Groups" daxilində mövzuya görə axtarış verə bilən operatordur.

Osman Gunduz intext: internet (**intext:** operatorundan istifadə olunub).

*İntext:* mətn daxilindən lazım olan sözü tapır. Operatordan əvvəl yazılan sözlər isə yazının hər hansı bir yerində tapılarsa, məhz həmin mətnin nəticəyə verilməsini təmin edir. Əgər iki fərqli sözü mətn daxilində axtarmaq istəyirsinizsə, iki ədəd *intext:* əmrindən, ya da əvəzində *allintext:* əmrinin qarşısında sözləri bir-birinin ardınca sadalayıb nəticə əldə edə bilərsiniz.

inurl: dyp/telefon inurl: www.meqa.az (**inurl:** operatorundan istifadə olunub).

*İnurl:* əmri vasitəsilə iki cür axtarış vermək mümkündür. Birinci variant domen ünvanının verilən sözlərə görə tapılmasıdır. Bunun üçün *inurl:* əmri qarşısında istədiyiniz sözləri yazırsınız. Verilən sözlər birdən çoxdursa, hər söz qarşısında *inurl:* əmrindən istifadə etməlisiniz. Nəticədə həmin sözlərin mövcud olduğu domen adları tapılır. İkinci variant müəyyən bir sayt daxilində sözə görə axtarışdır. Bunun üçün *inurl:* əmrindən sonra domen adı verilir və əmrdən əvvəl axtarılan söz bildirilir.

link: firststeps.az (**link:** operatorundan istifadə olunub).

Bu operator vasitəsilə müəyyən bir ünvana hansı veb-səhifələr tərəfindən keçid düyməsinin qoyulduğunu təsbit edə bilərsiniz.



downloaded from KitabYurdu.org

army location: azerbaijan (**location:** operatorundan istifadə olunub).

"Google News" ("Google" xəbərləri) içərisindən məlumatı tapır. Axtarış ancaq ingilis dilində aparılmalıdır. İlk olaraq axtardığınız sözü, sonra *location:* əmrini, sonra isə hansı ölkədə axtaracağınızı yazırsınız. Nəticədə axtardığınız ölkədə yerləşən yerli mətbuat mərkəzlərinin hansında məlumatın olduğunu təsbit edə bilirsiniz. İngilis dilində axtarış üçün Amerika standartlarında olan sözlərin qısa yazılışından istifadə etmək lazımdır. Növbəti linkdən www.usps.com/ncsc/lookups/abbreviations qısa yazılış standartlarını öyrənə bilərsiniz.

movie: hulk (**movie:** operatorundan istifadə olunub).

Bu operator vasitəsilə istənilən kino haqda məlumat ala bilərsiniz. Bu məlumatlara (əsasən Amerika) kinoteatrlarda göstəriləcəyi vaxtlar və hansı kinoteatrların göstərməyi planlaşdırması kimi məlumatları əldə edə bilərsiniz.

phonebook: jennifer lopez (**phonebook:** operatorundan istifadə olunub).

Bu operator vasitəsilə telefon nömrələrinin axtarışını vermək olar. Bu sistem heç də bütün ölkələrdə işləmir. Buna səbəb həmin ölkənin daxili telefon nömrələri kitabçasının olmaması, ya da hələ ki axtarış sisteminə daxil edilməmiş olması ilə bağlıdır. Digər bir əlavə – Amerika nömrələrinin axtarışı zamanı white pages (ağ səhifələr) kitablarının birbaşa axtarışı *rphonebook:* operatoru vasitəsilə aparılır.

related: www.meclis.gov.az (**related:** operatorundan istifadə olunub).

Bir-birinə yaxın, ya da bağlı olan saytları axtara bilərsiniz. Milli Məclisin veb-səhifəsinin ünvanını *related:* operatoru ilə birlikdə axtarışa versək, digər dövlət saytlarının nəticədə ön sıralarda yer aldığını görəcəksiniz.

army source: Azeri_Press_Agency (**source:** operatorundan istifadə olunub).

Əgər müəyyən bir xəbər agentliyi mənbəyindən məlumat götürmək istəyirsinizsə, "Google News" ("Google" xəbərləri) vasitəsilə *Axtarış* sözünün hansı mənbədən tapılmasını əmr edə bilərsiniz.



downloaded from KitabYurdu.org

Bunun üçün *source:* əmrinin qarşısına istədiyiniz xəbər agentliyinin adını yazırsınız. Bəzən nəticə olmadığı və ya heç nə tapılmadığı haqda mesaj çıxa bilər. Belə nəticənin alınmasına səbəb mənbənin adının səhv izah olunmasıdır. Əgər *Azeri Press Agency* demək istəyirsinizsə, sözlər arasında altdan xətt işarəsi olması lazımdır. Məs: *Azeri_PressAgency*. Əks halda nəticə çıxmayacaqdır.

stocks: FORD (**stocks:** operatorundan istifadə olunub).

Bu operator vasitəsilə "Google Finance" ("Google maliyyə")-dan böyük korporasiyaların birja məlumatlarını əldə edə bilərsiniz. Məlumatlar əsasən gəlirin artım və enim şkalası üzrə verilir. Nəticələrdə sizə digər axtarış sistemlərinin maliyyə axtarışlarına keçmək üçün link verilir.

iphone store: apple (**store:** operatorundan istifadə olunub).

*store:* operatoru ilə istədiyiniz malı mağaza adı verərək həmin mağaza daxilində axtarmaq olar. Bu axtarışın digər adı *Froogle*-dır. Siz mağazalarda axtarışı daha düzgün ünvandan apara bilərsiniz.

time Baku (**time** operatorundan istifadə olunub).

Vaxtı öyrənmək üçün yaradılmış operatordur. Şəhər adlarının baş hərfləri böyük hərflə yazılmalıdır.

weather Baku, Azerbaijan (**weather** operatorundan istifadə olunub).

Hava məlumatının əldə olunması üçün yaradılmış operatordur. Bütün şəhər adları amerikan ingilis dilində yazıldığı halda nəticə əldə edə bilərsiniz. Məsləhətdir ki, şəhər adı yazıldıqdan sonra vergül işarəsi qoyulsun və ölkə adı yazılsın. O zaman daha tez nəticə ala bilərsiniz.

## Daha mükəmməl axtarış

allintitle: php site: ibayev.googlepages.com filetype: doc

Yuxarıda gördüyünüz kimi, bütün bildiyimiz operatorları birlikdə işlətmək mümkündür. Buna misal olaraq öz saytımdan PHP ilə bağlı yazını çox rahatca tapa bildim.



downloaded from KitabYurdu.org

“Google” hesablama maşını

| Operator | Funksiya | Misal |
|---|---|---|
| + | Əlavə etmə | [ 15.99 + 32.50 + 13.25 ] |
| – | Çıxma | [ 79 - 18 - 19 ] |
| * | Vurma | [ 2 * 3 * 7 ] |
| / | Bölmə | [ 378 / 9 ] |
| ^ və ya ** | Faktorial | [ 4^10 ] və ya [ 4**10 ] |
| % of | Faiz | [ 15% of 93 ] (93-ün 15 faizi nə qədərdir) |
| in | Çevirmə operatoru | 130 lbs in kg, 150 mm in cm |

**Qeyd:** Bütün ölçü vahidləri ingiliscə yazılmalıdır.

Əgər bütün bunlarla baş ağrıtmaq istəmirsinizsə, “Google” operatorlarının hazır şəkildə qurulmuş qutularına istədiyiniz sözü daxil edərək axtarış verə bilərsiniz.

## Wikipedia – indi də azərbaycanca

Hazırda Wikipedia 250-dən artıq dildə olan 12.000.000 məqalədən ibarət açıq ensiklopediyadır. Dünyada qazandığı inanılmaz populyarlıq nəticəsində bu rəqəmlər sürətlə artmaqdadır. Ayda 300 milyonadək insan bu resursa müraciət edir. Dillər arasında Azərbaycan dilinin də olduğuna baxmayaraq, ensiklopediyanın ana dilimizdəki hissəsi çox kasıbdır. Bununla belə, ötən illərə nisbətən Azərbaycan dilində məqalələrin sayı bir neçə dəfə artıb. Ümidvaram ki, bu yazını oxuyan hər kəsin Vikipediaya diqqəti artacaq, Azərbaycan dilində zəngin online ensiklopediyanın yaranmasına kömək edəcək.

## Vikipedia nədir?

**Wikipedia** (azərbaycanca **Vikipedia**) – “Wikimedia Foundation” qeyri-hökumət təşkilatı tərəfindən yaradılan İnternet ensiklopediyasıdır. Vikipedianı **Britannika** kimi digər İnternet ensiklopediyalarından fərqləndirən onun açıq olması, yəni hər kəs tərəfindən redaktə oluna bilməsidir. Vikipedianın yaradıcıları Jimmy Wales və Larry Sanger bir neçə il əvvəl fəlsəfəsi tamamilə fərqli olan, biliklərini paylaşan insanlar sayəsində dünyanın ən dolğun online



downloaded from KitabYurdu.org

ensiklopediyasını yaratmaq istəmişlər. Bu təşəbbüs özünü doğrultmuş və Vikipedia dünyanın ən populyar 25 saytı sırasına düşmüşdür.

Ensiklopediyanın əsas tələbi yazılan məqalələrin və əlavə edilən biliklərin neytral nəzər nöqtəsindən (NPOV – Neutral Point Of View) çıxış etməsidir. Yəni burada "...ən gözəl şəhər Bakıdır" kimi şəxsi fikirlərə yer olmamalıdır.

Təbii ki, resursun açıq olması eyni zamanda bir sıra problemlər yaradır. Məsələn, hazırda Qarabağ mövzusu ətrafında həm azərbaycanlılar, həm də ermənilər fakt və fikirlərini bölüşə bilərlər. Bu halda kimin haqlı, kimin haqsız olduğunu yalnız diskussiyalar və arbitrlərə müraciət (Requests for Arbitration) müəyyən edə bilər.

## Azərbaycanca Vikipedia




2004-cü ilin yanvarından az.wikipedia.org ünvanında Azərbaycan dilində Vikipedia fəaliyyətə başlamışdır. Fikrimcə, buna Azərbaycanın açıq online ensiklopediyası kimi də baxmaq olar. Hazırda burada məqalələrin sayı 20.000-ə yaxındır. Lakin qeyd etməliyəm ki, onların xeyli hissəsi boş və ya şablondur.



downloaded from KitabYurdu.org

Təəssüf ki, gənc ensiklopediyamız üzərində çalışmalara çox az azərbaycanlı cəlb olunduğundan o, əsasən türk qardaşlarımız və güney azərbaycanlı soydaşlarımız tərəfindən qurulur. Məhz bu səbəbdən saytda çoxlu qrammatik və sintaktik səhvlərə, türk, fars və digər əcnəbi sözlərinə rast gəlmək olar. Yenə də bizim Vikipedia üzərində işlədikləri və təməlini qoyduqları üçün hər birinə dərin təşəkkürümüzü bildirmək istərdik. Lakin bu, işin ən qorxulu tərəfi deyil.

Bu yaxınlarda Azərbaycan Vikipediasında "Son dəyişikliklər" bölümündə "İrəvan" və "Ermənistan" sözlərinin yaradıldığı diqqətimi cəlb etdi. Bu dəyişikliklər qeydiyyatdan keçmiş üzv tərəfindən deyil, naməlum şəxs tərəfindən edilmişdi. Neytral görünməyə çalışılsa da, yazıların erməni mənşəli olduğu aşkar sezilirdi. Müəllifin IP-ünvanının (195.250.64.76) Ermənistana mənsub olması da bu şübhələri təsdiqləyirdi. Bəli, ermənilər bizim ensiklopediyamıza Azərbaycan və onun tarixi haqda saxta məlumat daxil edərək növbəti dəfə dezinformasiya yayırdılar. Görünür, Azərbaycanda yaxşı təhsil aldıqlarından ermənilər bu məqalələri səlis və düzgün Azərbaycan dilində yazırlar. Qeyd edim ki, hər bir səhifə üzərində edilən bütün dəyişikliklər "Səhifə keçmişi" bölümündə qeyd edilir. Bu imkandan istifadə edib yuxarıdakı faktın təsdiqini tapa bilərsiniz.

## Mən necə yardım edə bilərəm?

Zəngin Azərbaycanın şəhər və rayonları, şair və yazıçıları, mətbəxi, geyimləri və s. haqda dürüst məlumatınız varsa, maksimum neytrallığı və obyektivliyi qoruyaraq durmadan Azərbaycan Vikipediasına əlavələr edin! Bunun üçün sadəcə qeydiyyatdan keçmək kifayətdir.

Lakin yalnız bununla kifayətlənmək doğru olmazdı. Vikipedia bu gün dünyada güvənilən və çox populyar açıq informasiya mənbəyi kimi tanınır. Tələbələr, jurnalistlər və digər araşdırmaçılar İnternetdə məlumat axtarışında məhz bu resursa üstünlük verirlər. Bunun üçün bizim Azərbaycan dilindəki Vikipedianı qurmaqla yanaşı, ingilis, fransız, rus, alman, ispan və digər dillərdəki vikipedialara da əlavələr etməmiz Azərbaycan və onun ayrılmaz hissəsi olan Qarabağ haqda həqiqətlərin dünyaya çatdırılması yolunda vacib addımlardandır.



downloaded from KitabYurdu.org

## Məqalələrin yaradılması

Vikipediada məqalələrin yazılması olduqca asandır və HTML səhifələrindən fərqli olaraq, xüsusi biliklər tələb etmir. Mündəricatın yaradılması, keçid və şəkillərin əlavə edilməsi, şablonlar və digər funksiyalar avtomatlaşdırıldığından məqalələri qısa müddət ərzində asanlıqla yaratmaq mümkündür. Təsadüfi deyil ki, havaililərin dilində **wiki** (wihi-wihi) – "tez", "cəld" mənasını daşıyır.

Hər zaman neytral nəzər nöqtəsindən çıxış edərək yazın və yazdığınız məqalələrin mənbəyini göstərin. Bu, idarəçilərin və oxucuların məqalənizə etimadını artıracaq və mümkün mübahisələrin qarşısını alacaq. Mənbələri xarici keçidlər vasitəsilə **Ədəbiyyat, Mənbələr, Əlavələr** və ya **Əlavə ədəbiyyat** başlıqlı bölümlərdə sadalayın.

Günümüzdə aktual olmayan, lakin bir neçə il sonra ciddi problemlərə səbəb ola biləcək daha bir vacib məqam müəllif hüquqlarıdır. Əgər əlavə etdiyiniz məqalə, şəkil və ya media faylının bir neçə il sonra ensiklopediyadan xaric olunmağını istəmirsinizsə, ən azı müəllifinin adını qeyd edin.

Yeni məqalə yaratmaq üçün xüsusi **Help: Yeni məqalə yarat** səhifəsində başlığı daxil edib, **Create article** düyməsini seçin. Seçdiyiniz başlıqlı məqaləni redaktə etmək üçün digər səhifəyə keçəcəksiniz. Burada məqalənin mətnini daxil edib **Səhifəni qeyd et** düyməsini seçməklə onu Vikipediaya daxil edin.

Vikipediada mətni formatlaşdırmaq üçün bir sıra özünəməxsus sintaksislərdən istifadə olunur:

**Alınan nəticə Yazılan mətni** bölümlərə və ya başlıqlara ayırmaq üçün istifadə edilir:

| Alınan Nəticə | Yazılan Mətn |
|---|---|
| Yazını bölümlərə və ya başlıqlara ayırmaq üçün istifadə edilir:<br><br>**Başlıq**<br>**Alt başlıq**<br>**Alt alt başlıq** | `==Başlıq==`<br>`===Alt başlıq===`<br>`====Alt alt başlıq====` |
| • Siyahıları asanlıqla yarada bilərsiniz<br>• Bunun üçün hər bir sətirin önünə ulduz əlavə edin<br>   o ulduzların sayı siyahıdakı dərinliyi müəyyən edir | `* Siyahıları asanlıqla yarada bilərsiniz`<br>`* Bunun üçün hər bir sətrin önünə ulduz əlavə edin`<br>`** ulduzların sayı siyahıdakı dərinliyi müəyyən edir` |



downloaded from KitabYurdu.org

| | |
|---|---|
| 1. Həmçinin nömrələnmiş siyahılar yarada bilərsiniz<br>1. struktur üçün idealdır<br>2. və asanlıqla yaradlılr | # Həmçinin nömrələnmiş siyahılar yarada bilərsiniz<br>## struktur üçün idealdır<br>## və asanlıqla yaradılır |
| Horizontal bölgü xətti üçün<br>---<br>simvolundan istifadə edin | Horizontal bölgü xətti üçün<br>----<br>simvolundan istifadə edin |
| İmzanızı əlavə etmək üçün:<br>Rustam<br><br>İmza və vaxtı əlavə etmək üçün:<br>Rustam 00:48, Yan 27, 2006 (AZT)<br><br>Yalnız vaxtı əlavə etmək üçün:<br>00:48, Yan 27, 2006 (AZT) | İmzanızı əlavə etmək üçün:<br>~~~<br>İmza və vaxtı əlavə etmək üçün:<br>~~~~<br>Yalnız vaxtı əlavə etmək üçün:<br>~~~~~ |
| Tarix formatları:<br><br>1. 20 Yanvar, 1990<br>2. 20 Yanvar 1990<br>3. 1990-01-20<br>4. 1990-01-20 | Tarix formatları:<br># [[Yanvar 20]], [[1990]]<br># [[20 Yanvar]] [[1990]]<br># [[1990]]-[[01-20]]<br># [[1990-01-20]] |

Mətnə digər səhifələrə keçidlər də daxil edə bilərsiniz. Keçidlər əsasən iki növ olur – daxili və xarici. Daxili keçidlər Vikipediada mövcud olub-olmayan məqalələrə aparır. Mövcud olmayan məqalələrə aparan keçidlər bu məqaləni yaratmağı təklif edəcək. Xarici keçidlər isə digər İnternet ünvanlarına işarə edir.

| Alınan Nəticə | Yazılan Mətn |
|---|---|
| Azərbaycanın paytaxtı Bakı şəhəridir | Azərbaycanın paytaxtı [[Bakı]] şəhəridir |
| Bakı şəhəri Azərbaycanın paytaxtıdır | Bakı şəhəri [[Azərbaycan\|Azərbaycanın]] paytaxtıdır |
| Bir sözün bir neçə yazılış forması ola bilər. O zaman onları bir yerə yönəltmək zəruriyyəti yaranır.<br><br>"ABŞ" başlıqlı məqaləni "Amerika Birləşmiş Ştatları" başlıqlı məqaləyə yönləndirmək üçün, birincini sağdakı mətn ilə əvəz edin. | #REDIRECT [[Amerika Birləşmiş Ştatları]] |
| Başqa dildə mövcud olan eyni başlıqlı məqaləyə keçid əlavə etmək üçün aşağıdakı keçid növündən istifadə edin:<br>[[dilin kodu:Başlıq]] | [[ar:باكو]]<br>[[en:Baku]]<br>[[ru:Баку]] |
| Məqaləni bu və ya digər kategoriyaya aid etmək üçün sağdakı nümunədən istifədə edin. | [[Category:Azerbaycan]] |
| Məqalədə bu və ya digər kategoriyaya keçid əlavə etmək üçün sağdakı nümunədən istifədə edin. | [[:Category:Azerbaycan]] |
| Xarici, qeyri-viki keçidlərini əlavə etməyin üç yolu:<br><br>1. Görünən keçid: http://code.az/ (tərcih olunmur)<br>2. Adsız keçid: [1] (yalnız mətnin daxilində)<br>3. Adlı keçid: Code.az | #Görünən keçid:<br>http://code.az/ (tərcih olunmur)<br>#Adsız keçid:<br>[http://code.az/] (yalnız mətnin daxilində)<br>#Adlı keçid:<br>[http://code.az/ Code.az] |
| Mətn və şəkil keçidlərindən əlavə olaraq daxili "media" bağlantıları da mövcuddur. | [[media:sound.mp3\|Səs]] |



downloaded from KitabYurdu.org

Şəkilləri və media fayllarını mətnə əlavə etməzdən öncə onları Vikipediaya yükləmək lazımdır. Bunun üçün xüsusi **Qarşıya yükləmə** funksiyasından istifadə edib şəkil, audio və ya hər hansı başqa bir media faylını yükləyin və onun daxili ünvanını məqalənizə əlavə edin. Yükləyərkən mümkün qədər yüksək keyfiyyətli şəkillərdən istifadə edin və yüklədiyiniz şəkillərin müəllif hüquqlarına diqqət yetirin. Şəkilləri əlavə edərkən nümunə üçün mövcud məqalələrdən və ya aşağıdakı misallardan birindən istifadə edə bilərsiniz:

| Alınan Nəticə | Yazılan Mətn |
|---|---|
| Şəkil: WikipediA Açıq Ensiklopedia | `Şəkil: [[Image:wiki.png]]` |
| Sağ tərəfdə yerləşən və başlığı olan şəkil: WikipediA Açıq Ensiklopedia Vikipedia Ensiklopediyası | `Sağ tərəfdə yerləşən və başlığı olan şəkil: [[Image:wiki.png\|frame\|Vikipedia Ensiklopediyası\|right]]` |
| Sol tərəfdə yerləşən, başlıqlı, kiçildilmiş şəkil: WikipediA Açıq Ensiklopedia Vikipedia Ensiklopediyası | `Sol tərəfdə yerləşən, başlıqlı, kiçildilmiş şəkil: [[Image:wiki.png\|thumb\|left\|90px\|Vikipedia Ensiklopediyası]]` |

Mətndə başlığı olan və ehtiyac olduqda kiçildilmiş şəkillərdən istifadə etməyə çalışın. Tələb olunarsa, məqalənizdə adi HTML dilindən də istifadə edə bilərsiniz.



downloaded from KitabYurdu.org

Burada göstərilən nümunələr, bir çox məqalələrin yaradılması üçün kifayət olduğuna baxmayaraq, viki dilinin yalnız bir hissəsidir. Vikipedianın bütün imkanlarını öyrənmək istəyirsinizsə, **Ədəbiyyat** bölümündəki ingilis və rus dillərində bənzər məqalələrə müraciət edə bilərsiniz.

## İnternetdə şəkil axtarışı




"İnternet Explorer"də xüsusi olaraq şəkil axtarılması üçün imkanlar nəzərdə tutulub. Bunun üçün **Search (Axtar)** düyməsini basmaq və sol tərəfdə çıxan pəncərədə **Find a picture** menyusunu seçərək müvafiq sözü qeyd etmək lazımdır.

> www.www.ditto.com axtarış serveri isə şəkil axtarmaq istəyənlər üçün göydəndüşmə sistemdir. Hansısa bir sözü yazmaq kifayətdir ki, onunla bağlı yüzlərlə, minlərlə şəkil ekrana çıxsın.

**"Google"un** da təsvirlərin axtarılması sahəsində imkanları xeyli genişdir. Bunun şahidi olmaq üçün www.google.az-da əvvəlcə sorğu yazmaq üçün nəzərdə tutulan sətrin yuxarısında **Şəkil** menyusunu seçmək, sonra əldə etmək istədiyiniz şəklə uyğun sözü yazmaq və **Go** düyməsini basmaq kifayətdir.

## İnternet-resursu fiziki olaraq harada yerləşir

İnternetdə hansısa veb-serverin fiziki olaraq harada yerləşdiyini, kimə məxsus olduğunu, kompüterinizdən göndərilən sorğunun (siqnalın) bu serverə haradan keçərək və hansı müddətə çatdığını müəyyən etmək üçün xeyli sayda proqram var. Bu tip proqramlar içərisində **NeoTrace** (www.neoworx.com) öz orijinallığı və imkanları ilə fərqlənir. Axtarış üçün proqramın **Adress** bəndinin qarşısına axtardığınız resursun domenini və ya IP-ünvanı daxil edib **Enter** düyməsini basmaq lazımdır.



downloaded from KitabYurdu.org




Qabaqcadan **View** menyusundan **Nodes** bəndini seçsəniz, göndərdiyiniz siqnalın bütün hərəkətini əyani şəkildə müşahidə edə bilərsiniz.

Bu proqramda prosesi xəritə üzərində izləmək imkanı da nəzərdə tutulub.

### Səmərəli axtarışla bağlı bir neçə məsləhət

Tapmaq istədiyiniz informasiyanı dəqiq ifadə etməyə və axtarış proqramında bunu dəqiq yazmağa çalışın. Yalnız bir söz deyil, bir neçə söz də daxil etmək olar. Rus dilində hansısa sözün yazılması rus axtarış serverlərində bu dildə olan veb-səhifələrin tapılmasına kömək edir.

**Diqqət:** Sözün yazılışında cüzi səhv axtarışın keyfiyyətinə ciddi təsir göstərir. Bu sətirlərin müəllifi vaxtilə Atilla haqqında sənəd axtararkən bunun şahidi olub. **Atilla** sözünü yazdıqda axtarış maşını cəmi bir neçə əhəmiyyətsiz səhifə tapdı. Xeyli çalışandan sonra başa düşdüm ki, nəyisə düz etmirəm. Təsadüfən tapdım ki, İnternetdə Atilla ilə bağlı nəhəng informasiya "Attila" (iki "t" və bir "l" hərfi ilə) adı altında daxil edilib. "Attila" sözünü axtarış maşınına daxil etdikdə isə az qala bir milyon səhifə tapıldı.



downloaded from KitabYurdu.org

Bütün əsas axtarış sistemlərində eyni vaxtda nəsə axtarmaq üçün ən yaxşı vasitə "Copernic–2000" proqramıdır (www.copernic.com). Bu proqram *AltaVista, Excite* (www.excite.com), *Yahoo, Hot Bot* (www.hotbot.com), *İnfoseek* (www.infoseek.com), *Lycos* (www.lycos.com) və s. axtarış sistemlərində eyni anda axtarış aparır. Tapılan saytın birdən artıq axtarış sistemlərində adı varsa, yalnız bir dəfə göstərir.

Sorğu nəticəsində tapılan ilk 5-10 sənəd içərisində axtardığınızı tapa bilməmisinizsə, vaxt itirməyə dəyməz, dərhal sorğunuzu dəyişin və yenidən axtarışa başlayın.

Bir axtarış sistemində nəyisə tapa bilməyəndə digərindən də istifadə edin.

Ümumiyyətlə heç bir şey tapa bilmədikdə isə **Chat** və forumlara baş vurun. Düşünürəm ki, sizə kömək edən tapılar.

Xarici serverlərdən informasiya axtaranlar üçün, güman ki, aşağıdakı resurslar xeyli faydalı olacaq:

### Azərbaycan dilində informasiya axtarışı

Artıq güclü axtarış proqramlarının Azərbaycan versiyaları da hazırlanıb. Hazırda ən güclü, ən populyar axtarış robotu "Google" (www.google.com) hesab olunur. Bu axtarış maşınının Azərbaycan versiyasını www.google.az serverində tapa bilərsiniz. Sorğu üçün olduqca rahat mexanizm nəzərdə tutulub. Axtardığınız sənədin dəqiq tapılması üçün Azərbaycan dilində verilmiş əlavə məlumatları nəzərdən keçirmək tövsiyə edilir.

**Diqqət:** Axtarış məqsədilə hansısa sözü daxil edərkən onun hansı şrift standartında yazılmasına diqqət yetirin. Çünki İnternetdə Azərbaycan dilində bir neçə şrift standartında yayılmış informasiyalar var.

Məsələn, əgər siz "Google"da yeni standartda *təhsil* sözü yazsanız, təxminən bir milyonadək səhifə tapacaqsınız. Köhnə şriftlə *təhsil* sözü daxil etsəniz (rus klaviaturası ilə), tapdığınız 2000-dək səhifə, güman ki, əvvəlkilərin içərisində olmayacaq.



downloaded from KitabYurdu.org

Hər hansı mətni axtararkən həmin mətndə ən çox işlənən sözü axtarış maşınına daxil etmək lazımdır. Daha əhatəli mətn üçün bir neçə sözün daxil edilməsi tələb olunur. Müxtəlif ünvanlardan, genişləndirilmiş axtarış üsullarından eyni zamanda istifadə etmək yaxşı nəticə verir. Azərbaycan İnternetinin özünəməxsus azərbaycandilli axtarış sistemləri, təəssüf ki, hələ bir o qədər də inkişaf etməyib. Ümid etmək olar ki, Azərbaycan İnterneti inkişaf etdikcə milli axtarış serverlərimiz də güclü axtarış maşınlarına çevriləcək.

## Azərbaycan domen adlarına uyğun axtarış. Transliterasiya

Bir sıra hallarda lazımi informasiyanı tapmaq üçün URL-axtarış adlanan metod daha konkret nəticələr əldə etməyə imkan verir. Bu üsulla axtarış zamanı açar söz olaraq axtarılan informasiya ilə əlaqəli olan domen adı (ünvan) əsas götürülür. Əksər populyar axtarış sistemlərində mətn üzrə olduğu kimi, müvafiq domen adları üzrə axtarış imkanları da nəzərdə tutulub. Bu üsulla axtarışın çətinliyi milli İnternet resurslarının domen adlarının spesifikliyi ilə bağlıdır. Belə ki, domen adları, bir qayda olaraq, ingilis əlifbasının simvolları ilə verildiyindən çox halda Azərbaycana aid domen adları bu qrafikaya çevirdikdə müəyyən anlaşılmazlıqlar yaranır.

Təkcə *Gəncə (gence, ganja, ganca), Qarabağ (karabakh, garabagh), Mingəçevir (mingecevir, mingechevir)* və s. sözlərlə bağlı domen adlarının İnternetdə ən azı bir neçə variantının mövcud olduğu problemin xeyli ciddi olduğunu düşünməyə əsas verir.

Ümumiyyətlə, bir yazı sistemindəki hərflərin başqa yazı sistemi hərflərilə verilməsi bütün dillərə məxsus problemdir və bu, **transliterasiya** adlanır. Dünyada dillərin transliterasiyası ilə bağlı standartlar olsa da, ölkəmizdə bu sahə, demək olar ki, diqqətdən tam kənarda qalan bir sahə olub. Ehtiyac var ki, Azərbaycan əlifbasının hər bir hərfinin və hərf birləşmələrinin literası müəyyənləşdirilsin və geniş auditoriyaya çatdırılsın. Bu, “ə”, “ç”, “ü”, “ğ”, “ye” və s. hərfləri və hərf birləşmələri olan Azərbaycan sözlərinin ingilis variantlarını dəqiqləşdirməyə imkan verərdi. Bununla da bu sözlərə uyğun domen adları İnternetdə tapmaq asan olardı.

**Hələlik isə** istifadəçilərə tövsiyə olunur ki, milli resursları URL-axtarış üsulu ilə axtarmaq üçün Azərbaycan əlifbası hərflərinin hazırda İnternetdə geniş istifadə edilən sadalanan transliterasiya formaları nəzərə alınsın.



downloaded from KitabYurdu.org

Cədvəldən göründüyü kimi, milli domen adları üzrə axtarış üsulu ilə Mingəçevir şəhərilə bağlı ünvan axtararkən yalnız "*mingechevir*" sözü ilə kifayətlənmək olmaz. Həmçinin Qarabağla bağlı resurslar yalnız "*karabakh*" sözü daxil olan domen adlarıyla deyil, eyni zamanda digər ünvanlarla, məsələn "garabagh" sözü olan ünvanla da fəaliyyət göstərir.

**Türkiyənin arama motorları**

Arabul, www.arabul.com
List2000, www.list2000.com
TTT, www.ttt.com.tr

**Rusiyanın axtarış sistemləri**

Rambler, www.rambler.ru
Yandex, www.yandex.ru
Aport www.aport.ru

**Uşaqlar üçün axtarış sistemləri**

www.ajkids.com
www.yahooligans.com
www.kids.net.au/

## İnternet statistikası

İnternetdə çox asanlıqla sizin veb-saytınızla maraqlananlar və səhifənizə baş çəkənlər haqqında məlumat əldə edə bilərsiniz. Bunun üçün bu cür statistika xidməti göstərən proqramlarda qeydiyyatdan keçməlisiniz. Həmin resurs sahiblərinin sizə verdiyi xüsusi HTML kodunu yerləşdirdikdən sonra saytınızın baxılan səhifələri, baxanların sayı, digər saytlardan sizin sayta verilən keçidlər, saytınıza hansı ölkədən baxılıb, onlar hansı provayderdən İnternetə daxil olublar və s. bu kimi məlumatları əldə edə bilərsiniz.

Məlumatları əldə etmək üçün qeydiyyat zamanı e-poçtunuzu qeyd edirsiniz və hər gün bu ünvana yuxarıda qeyd olunan məlumatlar daxil olacaq. Yuxarıda qeyd olunan kodun veb-səhifənizdə qoyulduğu yerdə sayğac yaranacaq. Bu sayğac səhifədə qoyulandan məlumatların bir qismi sayğacın üzərində əks olunmağa başlayır.



downloaded from KitabYurdu.org

Ölkədə bu cür İnternet statistikası xidməti təklif edən serverlərin ən populyarı www.ilk10.az-dır. Digər bu cür pulsuz serverləri İnternetdən əldə edə bilərsiniz.

## Çat (söhbət). Audio və videokonfranslar

İnternetdə xeyli sayda proqram var ki, onların vasitəsilə eyni anda İnternet üzərindən yüzlərlə insan bir-biri ilə yazışa və danışa bilər. Buna qısaca **IRC (Internet Realy Chat – İnternet bağlantılı söhbət)** və ya qısaca **Çat (Chat – söhbət)** deyirlər. Sadə dildə izah etsək, çat real bir vaxtda həyata keçirilən söhbətləşmədir. Yeganə fərq ondan ibarətdir ki, bu söhbətləşmə elektron formada, kompüterdən istifadə etməklə həyata keçirilir. Yeni tanışlar tapmaq üçün unikal vasitədir. Ən geniş yayılanlar aşağıdakılardır.

ICQ    Yahoo Messenger    Live Messenger    Google talk    Skype

Messengerlər online ünsiyyətini asanlaşdıran və bir çox faydalı imkanı olan xüsusi proqramlardır. Bu proqramları və onlar haqqında daha geniş məlumatı öz saytlarından əldə etmək olar: ICQ (www.icq.com), məşhur *Yahoo* portalının sistemi olan *Yahoo Messenger* (messenger.yahoo.com), "Microsoft" şirkətinin *MSN messengeri* (hazırda *Live Messenger* (get.live.com/messenger) olaraq tanınan proqram), "Google" şirkətinin istehsalı olan "Google talk" (www.google.com/talk) və *IP-phone* xidmətinin keyfiyyəti ilə şöhrət qazanmış *Skype* (www.skype.com)-dır.

Bu xidmətdən yararlanmaq üçün əvvəlcə bu cür proqramlardan birisini kompüterinizə yükləməlisiniz. Qeydiyyatdan keçərkən vacib deyil ki, özünüz haqqında həqiqi olan məlumatları daxil edəsiniz. Adətən söhbətləşmək üçün əsl ad əvəzinə **Ləqəb (Nick name)** məqbul hesab edilir.

Bir sıra proqramlar var ki, bunlar İnternet üzərindən səsli telefon əlaqəsi qurmağa, həmçinin görüntülü və səsli telefon bağlantısına imkan verir. Bu cür proqramlar çox vaxt konfrans proqramları



downloaded from KitabYurdu.org

adlanır. Filialları bütün dünyaya səpələnmiş böyük şirkətlər, beynəlxalq qurumlar bu cür audio-videokonfranslar, eləcə də telekonfranslar vasitəsilə gündəlik iş prosesini tənzimləyir. Audio-konfrans – müxtəlif coğrafi nöqtələrdə olan bir neçə şəxsin kommunikasiya sistemləri, kompüter texnologiyası və ya telefon və s. vasitəsilə səsli rabitəsidir.

Geniş yayılmış bu cür proqramlardan biri də Azərbaycan istifadəçilərinin də çox yararlandıqları ***Paltalk*** (www.paltalk.com) proqramıdır.

Videokonfrans – adi fərdi kompüterin imkanları ilə interaktiv rejimdə insanların bir-birini eşidib görməsinə, verilənlərin mübadiləsini etməyə, onlara birlikdə işləməyə imkan verən rabitə növüdür. Bu cür konfranslar üçün ilkin zəruri şərt İnternet bağlantısının sürətidir. Ölkəmizdə hələlik yalnız bir neçə böyük şirkət və telekommunikasiya qurumu bu xidmətdən yararlana bilir.

İki İnternet istifadəçisinin bu cür konfranslarda iştirakı üçün sadəcə e-poçt və ya IP-ünvanlarının bilinməsi kifayət edər.

Yalnız səsli əlaqə üçün kompüterinizdə mikrofon və səs qurğusunun (səsləndiricinin) olması kifayət edər.

Görüntülü və səsli konfransların qurulması üçün əlavə olaraq sizin veb-kameranız da olmalıdır. Ən ucuz vebkameranın qiyməti 10-15 AZN-dir. Veb-kamera USB-port vasitəsilə kompüterinizə qoşulur. Normal videokonfranslar üçün sürətli İnternet bağlantısının olması zəruridir.

Bir daha təkrar edirik ki, səsli və görüntülü əlaqə yaratmaq mümkün deyilsə və ya bu əlaqə xeyli keyfiyyətsizdirsə, o zaman yazılı söhbətləşmədən (Chat) istifadə etmək daha məqsədəuyğundur.

Bu cür proqramların köməyi ilə yerində tapa bilmədiyiniz dostunuza mesaj da qoya bilərsiniz.

Söhbətləşmək istədiyiniz şəxs həmin an İnternetdə deyilsə, proqram ona mesaj buraxmaqla bağlı sizə sorğu verir.

Çat və forumlarda müəyyən davranış qaydaları var və bu qaydalar müvafiq xidmətləri göstərən resursların başlanğıc səhifələrində qeyd olunur.

**Bu cür davranış qaydalarını müəyyənləşdirən və ona nəzarət edən şəxs *moderator* adlanır.**



downloaded from KitabYurdu.org

Ümumilikdə messencerlər müasir həyatda geniş ölçüdə biznes dünyasında da istifadə olunmaqdadır. Şirkətdaxili və müəssisələr arasında lazımi görüşmələrin, eləcə də səs və videokonfransların təşkili, həmçinin uzaqdan təqdimatların həyata keçirilməsi üçün də istifadə oluna bilər.

Aşağıda ən popuyar messencerlərdən biri – **Skype** haqqında daha geniş məlumat verilir.

### Pulsuz telefon xidməti göstərən pulsuz proqram – Skype

***Addım-addım Skype***




*Skype* proqramından istifadə üçün ilk növbədə sizə kompüter lazımdır. Həmin kompüter isə ən azı *Windows 2000* və ya *XP* əməliyyat sisteminə malik olmalı, İnternetə bağlanmalı, mikrofon və səs qurğuları ilə təchiz edilməlidir. Ən azı 400 MHz-lik prosessor, 128 MB-lıq RAM və 15 MB-lıq boşluq da *Skype*-ın kompüterinizdə işləyə bilməsini təmin edəcək tələblər sırasındadır. Əgər görüntülü danışığa üstünlük verirsinizsə, o zaman bir veb-kameranın olması da tələblər sırasına qoşulur. Bütün bunlar əlinizin altındadırsa, onda addım-addım hərəkət edib www.skype.com saytından *Skype*-ı kompüterinizə yükləyə bilərsiniz. Proses çox asandır və geniş izaha ehtiyac yoxdur. Elə isə fərz edək ki, *Skype* artıq sizin kompüterinizdədir. İndi başqalarına zəng etmək üçün daha nə lazımdır? Əlbəttə ki, pulsuz zənglər üçün qarşı tərəfin də *Skype*-la təchiz edilmiş kompüterinin olması şərtdir. Ancaq bu o demək deyil ki, *Skype* yalnız iki və daha çox kompüter arasında əlaqə üçün nəzərdə tutulur. Əsla! Siz *Skype* proqramının



downloaded from KitabYurdu.org

köməyi ilə adi ev telefonlarına və ya mobil nömrələrə də zəng edə bilərsiniz. Bu isə hələ hamısı deyil.

*Skype*-la nə edə bilərsiniz? Hər şeydən əvvəl qeydiyyatdan keçir və *Skype* ünvanı olduğunu bildiyiniz dostlarınızın adlarını yaddaşa əlavə edirsiniz. Bu sizə onların xətdə olub-olmadığını öyrənməkdə kömək edəcək. Sonra zəng edirsiniz. Sadəcə ünvanlardan birini seçib yaşıl telefon dəstəyini tıqlayırsınız. Adi telefonda olduğu kimi. Qarşı tərəf cavab verdiyi təqdirdə mikrofon vasitəsilə danışıb dinləyici ilə dinləyə bilərsiniz. İstəsəniz, eyni vaxtda özünüzdən başqa ayrı-ayrı yerlərdə olan üç nəfəri də xəttə qoşub danışa bilərsiniz. Danışıq vaxtı müxtəlif materialları göndərə, yazışa, görüntülü ünsiyyətə də girə bilərsiniz. Və bütün bunlar üçün, bir daha qeyd edirik ki, bir qəpik belə ödəmirsiniz...

Burada belə bir haqlı sual da ortaya çıxa bilər ki, yaxşı, bəs kompüterimiz yoxdursa nə edək? Yenə də çıxış yolu var. Birincisi odur ki, *Skype* vasitəsilə adi ev və cib telefonlarına da zəng etmək olar. Özü də bu xidmət kompüterdən-kompütere xidmətindən fərqli olaraq ödənişlidir. Əlbəttə ki, ödəniş deyəndə adi telefonda olduğuna bənzər bir şeydən söhbət getmir. Burada hər dəqiqə danışıq üçün ödənilən təxminən 1-2 qəpikdən söhbət gedir. Yəni müqayisəsi çətin olmayan bir şeydir. Adi telefonda bir dəqiqə üçün bir manat ödənirsə, artıq burada həmin bir manatla düz yarım saat və daha çox danışmaq olar. Pulsuz rejimdən fərqli olaraq, burada sizin *Skype*-ınız *SkypeOut*-la gücləndirilmiş olmalıdır. Bəlli bir miqdarda pulu İnternet vasitəsilə *Skype*-ın hesabında saxlanca yatırmaqla siz öz kompüterinizdən istənilən adi və ya cib telefonuna zəng edə bilərsiniz (bəzi ölkələr hələlik istisnadır). Bu da hələ hamısı deyil. Pullu xidmətlər arasında *SkypeIn* də işinizə yaraya bilər. Əzizləriniz öz adi və cib telefonlarından sizə zəng edə bilərlər. Hətta xətdə olmasanız belə, qorxusu yoxdur. Onlar demək istədiklərini deyə və siz də xəttə bağlanarkən dinləyə bilərsiniz. Bundan həm də qısa yazılı xəbər göndərə və qəbul edə bilərsiniz. Və daha nələr, nələr...

Onu da qeyd edək ki, pulsuz danışıq imkanı verən pulsuz proqramlar yalnız *Skype*-la məhdudlaşmır. Bu sırada *Yahoo! Messenger, PalTalk, MSN Messenger*-in də adını çəkə bilərik. Çox güman ki, *Yahoo! Messenger*-dən istifadə etməyən çox az adam olar. Bir vaxtlar bu, yalnız yazışma üçün (çat) nəzərdə tutulurdusa, indi artıq səsli və görüntülü ünsiyyət üçün də geniş imkanlar açır. Bu



downloaded from KitabYurdu.org

növdən olan digər bir proqram isə *PalTalk*-dır. Xüsusən mühacir azərbaycanlıların daha çox isitfadə etdiyi *PalTalk* dünyada çox məşhurdur. Burada siz müxtəlif qruplara üzv ola və söhbətlərdə iştirak edə bilərsiniz. Burada da görüntülü, səsli və yazılı ünsiyyət imkanları var. Eyni sözləri *MSN Messenger* haqqında da demək olar...

## İnformasiya təhlükəsizliyi. Virus nədir?

İnternetdə işləyərkən sizi gözləyən ən ciddi təhlükə virus vasitəsilə kompüterinizin, daha doğrusu, kompüterinizdəki informasiyanın sıradan çıxmasıdır.

Virus kompüterdə icra edilə bilən bir proqramdır, yəni kompüterinizin əməliyyat sistemində olan imkanlardan istifadə edən əmrlər ardıcıllığıdır. İlk kompüter virusları bir neçə sadə əməliyyatdan ibarət idi. Məsələn, müəyyən bir şərti yoxlayan əməliyyat (məsələn, tarix və ya vaxtı) və şərtdən asılı olaraq məlumatı ləğv edən (məsələn, diski yenidən formatlayan) əməliyyat.

İlk viruslardan bir çoxu özlərini digər fayllara köçürürdü və bu, fayl və disket mübadiləsi zamanı müxtəlif kompüterlərin yoluxmasına gətirirdi. Bu gün isə ən təhlükəli yoluxma üsulu İnternet vasitəsilə hesab olunur. Lakin erkən viruslardan fərqli olaraq, müasir viruslar sadəcə məlumatın silinməsi ilə kifayətlənmir: onlar kompüterinizdəki bütün elektron ünvanları tapıb öz nüsxələrini bütün tanışlarınıza yayacaqlar.

Ümumiyyətlə, **Virus** bir termin kimi sisteminizə zərər yetirən hər hansı proqram təminatı anlayışını verir. Yayılma mexanizmindən asılı olaraq viruslar ciddi təhlükə təşkil edir.

Viruslardakı təhlükə ehtimalı bəzən real təhlükədən qat-qat böyük olur. Bunun obyektiv səbəbləri və faydaları olsa da (istifadəçilərin "həddən artıq" təhlükəsizlik meylinin faydası), bir sıra subyektiv səbəbləri də ola bilər. Məsələn, sırf sınaq üçün yaranmış və yalnız tədqiqat şəraitində mövcud olan bir sıra virusların qorxulu potensial "əməlləri" dərhal ictimaiyyətə çatdırılır və bu virtual təhlükədən istifadə edərək antivirus istehsalçıları öz məhsullarını daha müvəffəqiyyətlə satmaq imkanı əldə edirlər.

Son zamanlar viruslar daha çox məlumat itkisi deyil, sadəcə vaxt itkisi səbəbinə çevrilməkdədir. Yəni, virus məlumata zərər yetirməsə də, normal işə mane olur və virusun təmizlənməsinə müəy-



downloaded from KitabYurdu.org

yən vaxt sərf olunmasını tələb edir. Bu cür viruslar daha çox yeni, təcrübəsiz istifadəçilərin sistemlərini yoluxdurmaqdadır.

### *Virusların iş prinsipi*

Virus faylları sizin kompüterinizə yalnız icra edilən fayllarla birlikdə daxil ola bilər. Mətn sənədləri, rəsmlər, arxivlər, cədvəllər və s. risk obyekti hesab oluna bilməz. Yeganə istisna bir sıra ofis proqramlarındakı ssenarilərdir ki, bunlara **makrovirus** deyilir (makroviruslar hazırda böyük təhlükə təşkil etmir, bu, daha çox proqramların xətalarından irəli gələn problemlərdən qaynaqlanır).

### *Virus kompüterinizə necə keçir?*

! İnternetdən götürülmüş və daxilində virus olan proqramlar və digər informasiya ilə. Bunun qarşısını almaq üçün İnternetdən yüklənən hər bir informasiyanı əvvəlcədən antivirus proqramları ilə yoxlayın.
! Proqramın və ya informasiyanın disketdən və ya fləş-yaddaşdan kompüterə köçürülməsi zamanı. Bunun qarşısını almaq üçün bütün disket və fləş-yaddaşları əvvəlcədən yoxlayın.
! Mürəkkəb sənədlərin daxilində makrosların icrasına icazə verilərkən. Tanımadığınız makrosların icrasına icazə verməyin.

### *Viruslardan əsas müdafiə üsulları*

Viruslardan müdafiə olunmaq üçün bir neçə əsas təhlükəsizlik qaydası mövcuddur:

İnternetdə işləyərkən ehtiyatlı olun:
! Əlavə olunmuş faylları dərhal açmayın.
! *Word* proqramında makrosları qeyri-aktiv edin.
! *Javascript*-i qeyri-aktiv edin.
! *Səyyah* proqramınızı proqramları işə salmayan rejimə keçirin.
! *E-poçt* üçün təhlükəsiz proqramlardan istifadə edin.
! Məktubların daxilindəki proqram və faylların açılmasına qadağa qoyun.
! Əldə etdiyiniz bütün faylları xüsusi antivirus proqramları ilə yoxlayın.



downloaded from KitabYurdu.org

***Kompüterlərlə iş təcrübəniz daha çoxdursa, aşağıdakılara da əl ata bilərsiniz:***

! Sisteminizi bütün fayl uzantılarını göstərəcək hala gətirin. Bu, icra oluna biləcək faylları ayırd etmək üçün əlavə vasitədir. Bu, habelə ikili uzantılı faylları da (məsələn, *picture.jpeg.vb*) müəyyənləşdirməyə kömək edəcək.

! Əldə etdiyiniz hər hansı bir icra oluna biləcək faylı xüsusi proqramlarla yoxlamamış işə salmayın. Bu, habelə hər hansı bir arxivdəki fayllara və ssenari fayllarına (vbs, js) aiddir.

! İnternet səyyah proqramlarınızda (brauzerdə) icra olunan fayllar üçün qadağa və ya sual verərək icra olunması rejiminin aktiv olduğunu yoxlayın. Bu, İnternet səhifələrində olan viruslarla müdafiə üçün lazımdır.

! Sistemin BIOS-unda **boot-sektor** müdafiəsi rejiminin aktiv olduğunu yoxlayın, bu, köhnə virusların kompüterin diskini yoluxdurmasının qarşısını ala bilər.

! BIOS-da yüklənmə ardıcıllığının **'C: only'** (yalnız **C:** diskindən) olmasını təmin edin. Bu mümkün olmasa, ilk yüklənmənin sərt diskdən edilməsini təmin edin. Bu, disket və ya CD-lərdə yüklənmə zamanı icra edilən proqramların qarşısını ala bilər.

! Poçtla gələn faylların ayrıca, sistem qovluqlardan xaric qovluqların daxilinə açılmasını yoxlayın.

! Ən effektiv müdafiə yollarından biri bütün sistemin xüsusi antivirus proqramları ilə vaxtaşırı yoxlanılması hesab oluna bilər. Başqa alqoritmlərlə bərabər, bu yoxlama faylların tərkibinin dəyişilməsinə də əsaslanır (virusla yoluxmuş proqram faylının tərkibi və həcmi dəyişir).

! Hətta antivirus yoxlanmasını müvəffəqiyyətlə keçən, lakin etibarlı olmayan mənbələrdən əldə edilmiş proqramları işə salmayın. Antivirus heç də yüz faiz zəmanət vermir.

! Sistem diskinin işlək variantının ehtiyat nüsxəsini saxlayın, bu halda virusa yoluxmuş sistemi ehtiyat nüsxəsindən bərpa edə bilərsiniz.

! Sisteminizin disklərini mütəmadi olaraq **ScanDisk**lə yoxlayın. Bu, birbaşa viruslara aidiyyəti olmayan bir əməliyyat olsa da, nəticədə bir çox lazımsız faylları ləğv edəcək. Sistemdə lazımsız faylların sayı minimuma gətirilsə, viruslarla mübarizə də asan və daha sürətli ola bilər.



downloaded from KitabYurdu.org

## Haker hücumları

Qlobal şəbəkədə haker adlandırılan xeyli sayda İnternet istifadəçisi var kı, gecə-gündüz zərərli və dağıdıcı proqramlar yazmaq və İnternetdə yaymaqla məşğuldur. Məqsədyönlü şəkildə, müəyyən qrupların təsiri altında fəaliyyət göstərən hakerlər İnternetin normal fəaliyyəti üçün təhlükə mənbəyidirlər və onlarla mübarizə aparmaq xeyli çətindir. Özlərini təsdiqləmək üçün hakerliyə meyil edənlər isə sonda ciddi şirkətlər tərəfindən işə qəbul edilərək faydalı fəaliyyətlə məşğul olurlar.

Ən geniş yayılan haker hücumları adətən başqasının İnternetə daxil olmaq və e-mail qəbul etmək üçün istifadə etdiyi parolunun ələ keçirilməsi ilə bağlıdır.

Müxtəlif proqramlardan istifadə edərək kompüterlərin IP-ünvanlarını öyrənən hakerlər başqa kompüterdə olan və parolla qorunmayan ümumi istifadəli fayllara (sharing) asanlıqla daxil olurlar.

Son dövrlərdə daha geniş vüsət alan təhlükə isə kəşfiyyatçı proqramlar adlanan script və ya viruslardır. Müxtəlif üsullarla (e-poçt vasitəsilə, İnternetdə təhlükəli hesab edilən saytlarda gəzişmələr edərkən və s.) kompüterinizə daxil olan bu cür proqramlar, sözün həqiqi mənasında, əsl kəşfiyyatçı rolunu oynayır. Bu cür proqramın daxil olduğu kompüterdəki bütün informasiyalar və istifadəçinin kompüterdəki bütün hərəkətləri həmin proqram vasitəsilə İnternet üzərindən gizli olaraq onu hazırlayana göndərilir. Kəşfiyyatçıları kompüterinizdə aşkara çıxarmaq və qarşısını almaq üçün **Ad-Aware** (www.lavasoftusa.com) proqramından istifadə edə bilərsiniz. Bu proqram əməli yaddaşı, sərt diski və "Windows"un reyestrini yoxlayır və kəşfiyyatçı proqramları aşkarlayır.

Ümumiyyətlə, İnternetdə informasiya təhlükəsizliyini təmin etmək istəyirsinizsə, antivirus proqramlarından birinin kompüterinizdə olması və onun daim yeniləndirilməsi zəruri şərtlərdəndir. Tanınmış antiviruslardan bəziləri bunlardır: **Norton Antivirus** (www.symantec.com), **McAfee** (www.mcafee.com), **Kaspersky Antivirus, Doctor Veb, Eset Nod32** (www.eset.com) və s.

> Kompüterinizi kənar müdaxilədən qorumaq, ümumiyyətlə sizdən icazəsiz heç bir əməliyyatın baş verməməsini istəyirsinizsə, **ZoneAlarm** (www.zonelabs.com) proqramından (pulsuz versiyası da var) istifadə edə bilərsiniz. Lakin bütün bunlar heç də tam təhlükəsizlik təminatı demək deyil.



downloaded from KitabYurdu.org

## İnternetdə sosial şəbəkələr

### *Keçmişə səyahət və ya hər şey nədən başladı*

"Sosial şəbəkələr" haqqında məlumatlar hələ ötən yüzilin 50-ci illərində yayılmağa başlayıb. Onun məğzi bu idi ki, bütün cəmiyyət və onun üzvləri istər şəxsi, istərsə də işlə bağlı maraqlarını təmin etmək üçün vahid şəbəkədə birləşirlər. Nə qədər fərqli olmalarına baxmayaraq, bir neçə şəxs bu və ya başqa şəkildə vahid kiçik cəmiyyətdə birləşə bilirlər. Belə adamlar, misal üçün, eyni istehsalçının mallarını alanlar ola bilərlər.

Təbii ki, sosial şəbəkələr, bir qayda olaraq, kommunikasiya olan yerlərdə ortaya çıxır. İnternetin meydana gəlməsi ilə insanların ünsiyyət imkanları da xeyli çoxaldı və bu da, əlbəttə ki, "sosiallar"ın inkişafına təsir etdi. Əvvəl-əvvəl istifadəçinin elə də seçim imkanı yox idi. Ünsiyyət istəyirsənsə, e-məktub yaz, yaxud da ən yaxşı halda söhbətlərə qoşul. Ancaq onu da yaddan çıxarmamalı ki, İnternet özü də əvvəllər elə geniş yayılmamışdı və əsasən işgüzar vəzifələrin icrası üçün istifadə edilirdi. Texnologiyanın inkişafı və yeni-yeni istifadəçilərin cəlb olunması ilə kommunikasiya xidmətlərinin sayını da artırmaq mümkün oldu. Məsələn, istifadəçi elə həmin e-poçtda ünvanları qruplar üzrə daxil edə bilirdi. Yəni ünsiyyət üçün şəxsi seçimini formalaşdıra bilirdi.

Forumların, qonaq kitabları və bloqların da meydana gəlməsi ilə İnternet aləmi yeni bir keyfiyyət pilləsinə qədəm qoydu. Elə o vaxtdan hamının anladığı sosial şəbəkələr meydana çıxmağa başladı. Ən diqqətçəkən layihələrdən biri www.livejournal.com resursu oldu. Onun iştirakçıları bütün dünyaya yayılıb və onların sayı milyonlarladır. Özü də ki, bu insanlar passiv kütlədən ibarət deyil, əksinə, bu resursun həyatında əsas rolu oynayırlar. Həmin andan da mütəxəssislər İnternetdə WEB 2.0 adlı yeni texnologiyanın meydana gəlməsi haqqında danışmağa başladılar və bu təzahürü total interaktivliklə əlaqələndirdilər. WEB 2.0-da birləşən resursların fərqli xüsusiyyəti ondan ibarətdir ki, buradakı kontingent istifadəçilərin özü tərəfindən təşkil edilir. Bunun nəticəsində də resursun ziyarətçiləri durmadan artır. Elə əsl nəhəng kitabxana olan www.wikipedia.org resursunu xatırlatmaq yetərlidir. Belə ki, yüksək interaktivlik hesabına öz yaxın rəqibi www.britannika.com resursunu küncə sıxıb. İndi resurslar sadəcə, məsələn, fotoalbom yaratmaq təklif etmir, üstəlik başqa istifadəçilərin fotolarını şərh



downloaded from KitabYurdu.org

etmək, fotoçəkilişin müxtəlif texnika və janrlarının həvəskarları klublarına üzv olmaq imkanları da təklif edir ki, bu da öz növbəsində ingilis dilindəki **community** (ümumi maraqları olan icma) sözünə tam uyğun gəlir. Resurslar əsasən bir mövzu istiqamətində inkişaf edirdi. Bununla da elə həmin foto həvəskarları üçün www.flickr.com, hərrac azarkeşləri üçünsə www.e-bay.com və s. resurslar meydana gəldi.

Reklam verənlər də bu cür gur fəallığı diqqətə almaya bilməzdilər və 1995-ci ildən başlayaraq İnternet ticari məqsədli layihələrlə dolub-daşır. Onlardan birincisi də www.classmates.com oldu. Əlbəttə ki, ilkin olaraq heç də bütün resurslar ticari məqsədlərlə qurulmurdu. Ancaq resursun tam gücü ilə işə düşməsi yetərli idi ki, onun qurucuları dərhal öz baxışlarını nəzərdən keçirib reklam və ya əlavə xidmətlər hesabına gəlir əldə etməyə başlasınlar.

### Hara getməli, hara yollanmalı, hansı şəbəkəyə yazılmalı...

Hal-hazırda sosial şəbəkələrə yalnız xəbəri olmayanlar və tənbəllər üzv deyil. Fəal istifadəçi isə bir neçə resursun həyatında iştirak edir. İnformasiyanın yerləşdirmə prosesinin özü iştirakçılara böyük bir zövq verir. Axı başqa iştirakçılar dostcasına, mehribancasına sənin hansısa hərəkətinə, fikrinə reaksiya verəndə özünü cəmiyyətə lazımlı insan kimi hiss etməyə başlayırsan. Elə istənilən ictimai şəbəkənin işi də buna əsaslanır. Bizim fikrimizcə, problem yalnız yeni başlayan istifadəçinin hansı şəbəkəni seçməsindədir. Axı praktiki olaraq onların hamısı eynidir. Bir də ki, xidmətlər paketi də heç fərqlənmir. Və doğrudan da hər bir istifadəçiyə pulsuz qeydiyyat təklif edilir (yalnız bəzi korporativ resurslarda bu xidmət pulludur), anketi doldurduqdan sonra isə artıq başqa istifadəçilərlə ünsiyyətə başlamaq olar. Elə bu andan da şəxsi bilgilərin təhlükəsizliyi ilə bağlı məsələ meydana çıxır.

Sosial şəbəkələrdə adi qeydiyyat prosedurundan sonra istifadəçiyə bəlli bir xidmət toplusu təklif edilir. Bu toplu da, öz növbəsində, daim genişlənir, özü də, demək olar ki, bütün resurslarda eyni zamanda.

2008-ci ildən etibarən Azərbaycanda da sosial şəbəkələr yaranmağa başlayıb. Bizim şəbəkə yaradanlarımız isə öz xarici həmkarlarının təcrübələrindən yetərincə faydalanırlar. Hazırda



downloaded from KitabYurdu.org

sosial şəbəkələrin Azərbaycan və xarici olaraq ayrılması, bizcə, məna kəsb etmir. Hər şeydən öncə getdikcə daha çox istifadəçi cəlb etməyə can atan "sosiallar" resursun bir neçə dildə variantlarını yaradırlar.

## Sosial şəbəkələri tematik rubrikalar üzrə aşağıdakı kimi qruplaşdırmaq olar

***Dəqiq mövzu istiqaməti olmayan, əslində isə toplu sayıla biləcək resurslar***

- www.myspace.com (ingiliscə): 2003-cü ildə qurulan resursun iştirakçılarının sayı 80 milyona yaxındır. "Dostlarınızın dostları ilə ünsiyyət üçün online icma". Saytın qurucuları onun təyinatını belə müəyyən edir. MySpace günümüzün ən populyar sosial xidmətidir. Şəbəkənin iştirakçıları maraqlar üzrə öz birliklərini qura, bloq yaradıb foto, musiqi və videomateriallar yerləşdirə bilərlər.
- www.mylivepage.ru (rusca): 2005-ci ildə qurulub və iştirakçılarının sayı bir milyona çatır. Siz burada forum, bloq, fotoqalereya və söhbətdən ibarət şəxsi saytınızı qura bilərsiniz. Qurduğunuz sayt sosial şəbəkəyə qoşulur və sizin həmin şəbəkənin xidmətlərindən istifadə imkanlarınız olur.
- www.facebook.com (çoxdilli): hazırda ən geniş inkişaf etməkdə olan sosial şəbəkədir. 2004-cü ilin fevralında Harvard Universitetinin (ABŞ) bir tələbəsi tərəfindən universitetdaxili şəbəkə kimi qurulub. Daha sonra sərhədləri aşaraq dünyanı "işğal" edib. Hazırda azərbaycandilli versiyası üzərində də iş gedir.

***Sinif yoldaşlarının və köhnə dostların axtarışı***

- www.classmates.com (ingiliscə): iştirakçılarının sayı 40 milyona yaxındır. 1995-ci ildə ABŞ-ın Renton şəhərində fəaliyyətə başlayıb. Çağımızda *classmates.com* dünyanın ən nəhəng sosial şəbəkələrindən biridir. Bu şəbəkə keçmişdə bir yerdə oxuyan, yaxud da birlikdə işləyən, ordu xidməti keçən və əlaqələri bərpa (davam) etdirmək istəyən adamlar üçündür. Şəbəkə üzvlərinin xidmətinə foto, bioqrafiya yerləşdirmək, öz icmalarının xəbərlərinin müzakirəsində iştirak etmək



downloaded from KitabYurdu.org

imkanları təklif edilir. *Classmates.com* İnternetdəki ilk sosial şəbəkə hesab edilir.

- www.odnoklassniki.ru (rusca): iştirakçılarının sayı 10 milyona qədərdir və 2006-cı ildən fəaliyyətə başlayıb. *Odnoklassniki.ru* sizə köhnə dostlarınızı tapmağa və onların hazırda nə işlə məşğul olduğunu öyrənməyə yardımçı ola bilər. Siz əlaqəni itirdiyiniz adamlara xəbər göndərə və mümkündür ki, onlarla görüş təşkil edə bilərsiniz. Bu resurs *classmates.com* saytının rusca bənzəridir.
- www.vspomni.ru: bura köhnə dostların görüş yeridir və yenilərinin tapılması imkanlarını da təklif edir. Burada ünsiyyət qurmaq, foto və video yükləmək, öz səhifənizə *Youtube, Flickr, Picasa* və s. resurslarından faylları qoşmaq rahatdır. Birlikdə yaşadığınız, xidmət etdiyiniz, oxuduğunuz və eşqə düşdüyünüz köhnə dostları xatırlamaq xoşdur.
- www.vkontakte.ru: bu şəbəkə layihəsi müxtəlif tədris müəssisələrindən olan adamların öz dostları və həmkarları ilə əlaqə saxlamasına imkan verir. *Vkontakte.ru* resursunda, gerçək həyatda olduğu kimi, informasiya mübadiləsi aparmağa imkan verilir.
- www.vebkrug.ru: bu xidmət insanlığın qlobal problemini – ünsiyyət məsələsini həll etməyi qarşısına məqsəd qoyub. Biz hamımız yüksək sürət və texnologiya dünyamızda adamların necə asanlıqla itib-batdığını başa düşürük. Bizim hər birimiz köhnə dostlar və tanışlarla nə vaxtsa əlaqələrin itirilməsinə görə təəssüflənirik.

***İşgüzar və ya korporativ şəbəkələr***

- www.linkedin.com (ingiliscə): bu resurs da 2003-cü ildən fəaliyyət göstərir və iştirakçılarının sayı 10 milyon nəfərdir. Şəbəkədə sənayenin 150 sahəsini təmsil edən peşəkarlar birləşib. Onun iştirakçıları şəxsi peşə qovluqlarını düzəldir, tərəfdaş və müştəri axtarır, peşə ünsiyyət dairəsini genişləndirirlər.
- www.moikrug.ru (rusca): 2005-ci ildə qurulub və iştirakçılarının sayı açıqlanmır. Ona *LinkedIn* resursunun rus variantı deyə bilərik. Burada işgüzar əlaqələri genişləndirmək, itmiş rabitəni bərpa etmək və işə qəbul məsələləri ilə məşğul olmaq olar.



downloaded from KitabYurdu.org

- www.betylon.com: gerçək mübahisə həvəskarları üçün nadir online layihədir. Burada istənilən məsələ ilə bağlı mübahisə etmək olar. Özü də kiminlə istəsəniz. Üstəlik gerçək pullarla. Bu zaman sizin qumar oyunları ilə bağlı xüsusi biliklərinizin olması heç də tələb edilmir.

***Evlə və ailə ilə bağlı hər şey haqqında***

- www.geni.com (ingiliscə): 2007-ci ildə qurulub və qeydiyyatdan keçən iştirakçılarının sayı 100 mindən artıqdır. Geniş sosial ailə şəbəkəsidir və qohumluq əlaqələri olan insanları birləşdirir. Öz ailə şəcərənizi qurmaqla bərabər ailənin dostları ilə də əlaqə yarada bilərsiniz. İstifadə də rahatdır.
- www.mommybuzz.com (ingiliscə): xüsusi olaraq analar üçün qurulmuş ilk sosial şəbəkədir. Burada analar arasında ünsiyyət məsələsini həll etmək üçün əla imkan var. Təcrübə mübadiləsi etmək, dostlarla və həmfikirlərlə ünsiyyəti qorumaq da imkanlar arasındadır. Sosial şəbəkənin istifadəçi profili, maraqlar, foto və bloqlar kimi ən adi xidmətlərindən savayı *MommyBuzz* istifadəçilərə gecə də daxil olmaqla istənilən vaxt ünsiyyət qurmağa şərait yaradır. Bundan başqa, istifadəçinin şəxsi bilgilərinə baxan dostların dairəsini məhdudlaşdırmaq da olar.

***Azərbaycan sosial şəbəkəsi***

- www.sirr.az (Azərbaycan, ingilis və rus dillərində): Azərbaycanın ilk və tək sosial şəbəkəsi. Hələlik geniş populyarlıq qazanmasa da, reklam olunacağı təqdirdə buna nail ola bilər. 2008-ci ilin mayından fəaliyyətə başlayıb.

## Sosial şəbəkələr və biz

Sosial şəbəkələrin əsas funksiyası müxtəlif adamları saysız-hesabsız ünsiyyət vasitələrilə (şəkil, video, səs, ad günü, xəbərlər, qruplar, daxili yazışma, qruplar, müzakirələr, oyunlar, və s.) vasitəsilə birləşdirməkdir. Azərbaycanda populyar olan sosial şəbəkələr bunlardır: *facebook.com myspace.com odnoklassniki.ru sirr.az* (ən böyük azərbaycandilli şəbəkə) və *vkontakte.ru.*



downloaded from KitabYurdu.org

İndi *facebook.com*-da qeydiyyat prosesi ilə tanış olaq. Qeyd edək ki, başqa şəbəkələrdə qeydiyyat eynidir və ya çox az fərqlənir.

Saytda qeydiyyat üçün göstərilən dillər arasında ingilis, rus, türk və ya başqa bir dil seçirik və yuxarıda **Sign Up** bölməsində ad-soyadınızı, e-mail ünvanınızı, cinsinizi və anadan olduğunuz tarixi yazıb **Sign Up** düyməsinə tıqlayırsınız. Daha sonra açılacaq pəncərədəki 2 sözü köçürüb bir daha **Sign Up** düyməsini tıqlayaq. Yeni pəncərədə qeydiyyatdan keçdiyiniz və e-mail-inizə məktub göndərildiyi bildirilir.

E-mail-inzdəki linki tıqladıqdan sonra *Facebook*da digər e-mail ünvanınızı, bitirdiyiniz universitet və məktəb, işlədiyiniz şirkəti qeyd edirsiniz və avtomatik olaraq şəbəkədə köhnə tanışlarınızla görüşmək imkanı əldə edirsiniz. **Save** düyməsini tıqlayın və əgər sizin şirkət, məktəb və universitetinizdən kimsə varsa, dərhal peyda olacaq və onları artıq dost siyahınıza elə buradaca şəkillərinin üstünə tıqlamaqla seçə bilərsiniz. Seçin və **Add as Friend** düyməsini basın və ya **Skip**-i seçin və növbəti addıma keçin. Burada yaşadığınız şəhəri seçirsiniz və **Save** düyməsini tıqlayırsınız. İndi siz bundan sonra hər zaman görəcəyiniz **Profile – Profil** bölməsindəsiniz.

## Dostları, qrupları, hadisələri və digər imkanları necə tapmalı?

Misal üçün, Emin adlı tanışınızı axtarırsınız. Emin sözünü axtarış pəncərəsinə yazın və lupa işarəsini tıqlayın və ya **Enter** düyməsini basın. Dərhal bu adla bağlı olan bütün adamların siyahısı, bundan əlavə, bu sözlə bağlı səhifələr – **Pages**, qruplar – **Groups**, hadisələr – **Events**, hətta **Facebook** daxilində kiçik proqramlar – **Applications** çıxacaq.

Şəkilləri, videoları necə yükləyək? Profildə başqa nə etmək olar?

***Facebook***-a daxil olduqdan sonra **Profil** bölməsini seçirik və **Add Photos – Şəkil əlavə et, Add Videos – Videolar əlavə et** bölmələrini tıqlamaqla video yükləyə bilərik. Hətta İnternetinizin sürəti buna izn verirsə, elə canlı olaraq videomüraciətinizi kompüterin qabağında yazıb **Post** düyməsinə basmaqla videonu *Facebook*-a yerləşdirmək mümkündür.



downloaded from KitabYurdu.org

**Profil**də **Status**unuzu bir cümlə ilə yaza və ya **Share Link** bölməsindən xoşunuza gələn sayt ünvanını dostlarınızla paylaşa bilərsiniz. Digər imkan **Yazı yazmaq**dır – **Write** böməsini seçin və istədiyinizi yazın.

Sosial şəbəkənin ən vacib və dəyərli tərəfi şərh yazmaq imkanıdır. Başqalarının şəkil və videolarını, qoşulduğunuz qruplar, yaratdığınız birliklərdə həmfikir adamlarla istəklərinizi və fikirlərinizi bölüşmək imkanı şəbəkələri sosiallaşdırır. Misal üçün hansısa qrupa qoşulmusunuzsa, həmin qrupun səhifəsində təqdimatın dərhal altında **The Wall – Şərhlər** bölməsi var. Boş pəncərəyə fikrinizi yazıb **Post** düyməsini tıqlayın – şərhinizin həmin anda *Facebook*-da peyda olduğunu görəcəksiniz. Eyni proses şəkil, video və digər bölmələrə şərh yazmağa da tətbiq olunur.

Ümumiyyətlə, yuxarıda sadalanan funksiyalar bütün sosial şəbəkələrdə var və hansındasa qeydiyyatdan keçib iştirak etmək çox asandır.

## Videonu İnternet-resursa necə yükləməli?

Son dövrlərdə İnternetdə videoların yerləşdirilməsi geniş vüsət alıb. Bununla belə, İnternetdə videofayllar yükləməyə imkan verən saytların sayı elə də çox deyil. *YouTube* saytı bu tip resursların içərisində ən məşhurudur.

Videofayllara baxmaq üçün qeydiyyat tələb olunmur, ancaq sayta öz fayllarını yerləşdirmək üçün oradakı anketi dolduraraq üzv olmaq zəruridir. *YouTube*-a videoları iki formada yerləşdirmək mümkündür: ya kompüterinizdə mövcud olan videofaylın upload edilməsi formasında, ya da kompüterə bağlı olan videokameranın işə salınaraq real vaxtdakı görüntülərin birbaşa qeyd olunmaqla sayta yerləşdirilməsi.

Qeydiyyat prosesi aşağıdakı qaydada gerçəkləşir:

1. Saytı seçirik. Burada elə də çox seçim yoxdur. *Hulu.com* və ya *Youtube.com*. www.youtube.com-da **Sign Up/Qeydiyyat** bölməsinə giririk və bütün digər saytlarda/e-mail-lərdə olduğu kimi, bir neçə pəncərədə verilən suallara cavab verib qeydiyyatdan keçirik. Amma burada başqa üstünlük ondan ibarətdir ki, əgər sizin Gmail, e-mail ünvanınız varsa, artıq *Youtube*-a birbaşa öz e-mail-iniz vasitəsilə daxil ola bilərsiniz.



downloaded from KitabYurdu.org

2. Növbəti səhifədə istifadəçi adı, ölkənizi, xüsusi kodu yazmağı, kişi/qadın bölməsindən seçməyi, doğum tarixini və şərtlərlə razılaşmağı tələb edən bölmələri doldurursunuz və **Create My Account/Mənim hesabımı yarat** düyməsinə tıqlayırsınız.
3. Qarşınızda açılan pəncərə video yükləmək üçündür. Amma unutmayın ki, YouTube müəllif hüquqlarının pozuntusu ilə razılaşmır və bu haqda öz şərtlərində qeyd edib. Videonu yükləmək üçün videonuzun adını, qısa məlumatını, hansı yönümlü video olduğunu seçirsiniz. Bundan başqa əlavə seçimlər də var. Misal üçün, videofaylı hamının görməsinə icazə vermək, ya da ən çoxu 25 nəfərə göstərmək, videonun hansı tarixdə və hansı ölkədə çəkildiyini online xəritədə qeyd etmək, səsvermə və şərhlərlə bağlı müxtəlif seçim etmək kimi imkanlar var. Daha sonra **Upload a video/Videonu yükləməyə keç** düyməsini seçirsiniz.
4. Yeni açılan pəncərədə videofaylı kompüterinizdən seçib (videofayl video/fotokamera və ya əl telefonu ilə çəkildikdən sonra kompüterə köçürülməlidir) **Upload Video/Videonu yüklə** düyməsinə tıqlayırsınız. Unutmayın ki, **Yüklə** düyməsini basdığınızda müəllif hüquqlarını pozmadığınızı bəyan edirsiniz. Bununla da sizin videonuz Youtuba yüklənmiş olur.
5. *Youtube*-da **Upload a video/Videonu yükləməyə keç** düyməsinin sağ tərəfində yerləşən **Use Quick Capture** düyməsi də var. Onu tıqlasanız, kompüterinizdə/noutbukunuzda olan vebkamera ilə özünüzü çəkib, videoşou yaradıb birbaşa İnternetə yükləyə bilərsiniz. Videonu çəkib sadəcə açılan pəncərədə ***Publish/Çap et*** düyməsini tıqlayın və siz artıq İnternetdəsiniz! Videoçəkiliş xoşunuza gəlməsə, *Re-record/Yenidən çək* düyməsindən istifadə edə bilərsiniz.

Youtuba yerləşdirilən videoların maksimum müddəti 10 dəqiqə, maksimum ölçüsü isə 1Gb ola bilər. Yerləşdirilən hər bir video yoxlanılmaqdadır və saytda göstərilməsi üçün bəzən 15-30 dəqiqə keçə bilər.

## Mobil telefonla foto və videoçəkiliş

Telefonunuzda **fotokamera** varsa, onda həyatınızın, həmçinin ətrafınızdakıların özəl anlarını tarixə çevirə bilərsiniz. Fotoaparatla



downloaded from KitabYurdu.org

və ya videokamera ilə təmin edilən telefonlar çox zaman **kamerafon** da adlanır. Fotoaparatın keyfiyyəti telefonun modelindən asılı olur. Ümumiyyətlə, mobil fotoaparatla keyfiyyətli şəkil bir qədər problemli məsələdir. Bu isə mobil fotoçəkilişin – **mobiloqrafiyanın** hələ yeni inkişafa başlaması ilə bağlıdır. Hər bir fotonun müvəffəqiyyəti həm dəqiq seçilmiş andan, həm də alətin (kamerafonun) dolğun işləməsindən asılıdır.

Keyfiyyətli çəkiliş üçün peşəkar fotoqraflar həvəskarlara aşağıdakıları nəzərə almağı tövsiyə edirlər:

1. Mobil telefondakı fotokameranı düzgün tənzimləmək lazımdır. İstehsalçı tərəfindən adətən fotokamera orta keyfiyyətli şəkil çəkmək vəziyyətində olur. **Fotoşəklin ən böyük ölçüsünü** və **minimal sıxılma səviyyəsini** seçin. Normal işıqlanma vəziyyətini yaradın ("gün işığı", "tutqun hava", "ev şəraiti" və s.). Çox halda avtomatik rejim də kifayətdir.
2. İşıqlandırıcını (cürbəcür olur, adi ağ fənərli və ya fləş) ancaq lazım olduqda işlədin. O, zəifdir, ona görə də ancaq yaxın məsafədə normal işləyir, lakin ən yaxın məsafədə parıltı verib şəklin bir hissəsini xarab edə bilər. Bunu sonradan qrafik redaktədə düzəltmək mümkün deyil. Şəkil tünd rəngli alınmasın deyə lazımi işıqda çəkin. İşıqlandırıcı yoxdursa, kameranı parlaq işığa yönəldərək şəkil çəkmək məsləhət görülmür.
3. İşıq az olanda bütün mümkün olan işıqdan istifadə edin, pəncərəni açıb çəkiliş obyektinə yaxınlaşın. Nəzərə alın ki, işıq mənbəyinin şüaları telefonun obyektivinə düşməməlidir (kölgəni bir vərəq kağız və ya jurnalla yaratmaq olar). Ən əsası isə, çəkilişin lazımi rejimlərini (gün və ya gecə, təbii və ya süni işıq, ev və ya küçə şəraiti) quraşdırmağı unutmayın.
4. Mobil telefonla çəkilən şəkli kompüterə köçürərək redaktə etmək olar. Bunun üçün hətta varsa belə, telefondakı deyil, kompüterdəki şəkil redaktorlarından istifadə edin.
5. **Zoom**dan ("zum" kimi tələffüz olunur) istifadə etmək o qədər də məsləhət görülmür.
6. Telefonu obyektə çox yaxınlaşdırmayın (5-20 sm), şəkil ekranda normal görünsə də, qeyri-standart bir şey alınacaq. Amma bu fənd orijinal şəkil çəkmək üçün işlənə bilər. Müxtəlif məsafələrdən şəkil çəkməyə çalışın (çəkiliş nöqtəsini dəyişərək); sonra isə ən yaxşısını seçin.



downloaded from KitabYurdu.org

7. Şəkillər tutqun görünməsin deyə hərəkət edən obyektləri çəkməyə çalışmayın. Hərəkət edən obyekt, çox güman ki, yaxşı görünməyəcək. Mobil telefonun daxili kamerası bir sıra struktur məhdudiyyətlərinə görə hərəkəti göstərə bilmir. Buna görə də, mümkünsə, hərəkətin bir anlıq dayanmasını gözləyin. İnsan, heyvan və texnikanın hərəkətlərində belə dayanma, dönmə və s. anlar olur. Həmin an çəkməyiniz gərəkdir. Nəzərə alın ki, telefonun ekranı kompüterə nisbətən keyfiyyətsiz olduğundan normal şəkil telefon ekranında pis görünə bilər. Odur ki, keyfiyyətsiz hesab etdiyiniz şəkli qabaqcadan kompütərə köçürüb yoxlayın, bəlkə gərəyiniz oldu.
8. Kadrı çəkən kimi mobil telefonu həmin dəqiqə yığışdırmağa tələsməyin, çünki həqiqi fotoaparatlardan fərqli olaraq, kamerafonun matriksi şəkli yavaş "oxuyur". Yəni, nəzərə alın ki, çəkmək üçün düyməni basdığınız anla real çəkilişin baş verməsi müddəti bir neçə saniyə çəkə bilər. Yeni başlayan mobiloqraflar (mobil telefonla foto və video çəkənlər) çox zaman bu amili nəzərə almadıqlarından istədikləri nəticəni ala bilmirlər. Ümumiyyətlə, çəkərkən telefon aparatını tərpənməz saxlamağa çalışın.
9. Kameranın obyektivini həmişə təmiz saxlayın.
10. Etiket qaydalarına riayət edin. Gizli çəkilişlərdən istifadə etməyin.

### Piksel nədir?

Adətən rəqəmsal fotoaparatda və fotoaparatla təmin olunan telefonda əsas parametr kimi piksellərin (nöqtələrin) nə qədər olması göstərilir. Görəsən hazırda 0.3, 0.6, 1.3, 2.0, 3.2 MPix və s. rəqəmlərlə qeyd olunan bu piksel nəyin göstəricisidir? Fotoaparat neçə piksel olmalıdır ki, çəkilən şəkil normal alınsın? Ümumiyyətlə, keyfiyyətli şəkil nə deməkdir?

İstənilən şəklə ekranda diqqətlə baxdıqda və ya şəkli böyütdükdə görmək olar ki, hər bir şəkil, əslində, çoxlu sayda nöqtələrdən ibarətdir. İngiliscə **picture element** (şəklin elementi) sözündən götürülən **piksel** sözü məhz ekranda olan şəklin, necə deyərlər, nöqtələrinin (elementlərinin) sayını (cəmini) göstərir. Kompüterlə işləyənlər bilirlər ki, keyfiyyətli şəkil üçün minimal qəbul olunan normal keyfiyyət göstəricisi bir düymdə (2.5 sm) 300 nöqtə qəbul olunub.



downloaded from KitabYurdu.org

Eyni zamanda, keyfiyyət parametri olaraq 2 ədədin hasili kimi göstərilən işarələrdən də istifadə edilir. Məsələn, 1024x780. Bu göstərici ekranda şəklin şaquli və üfüqi istiqamətdə piksel üzrə ölçüsünü göstərir. Ekran nə qədər çox nöqtə göstərmək qabiliyyətinə malikdirsə, o qədər keyfiyyətli hesab edilir. Deməli, şəklin ölçüsü ilə keyfiyyət arasında müəyyən əlaqə tapmaq olar. Bu əlaqənin qrafiki aşağıda göstərilib. Təxmini olaraq qəbul etmək mümkündür: bir düymdə olan piksellərin sayını şəklin ölçülərinin hasilinə vursaq, təxminən şəkildəki piksellərin cəmini verəcək. Demək, buradan həm də belə qənaətə gəlmək olar ki, şəklin ölçüsünü tapmaq üçün piksellə göstərilmiş ölçünü 300-ə bölmək kifayətdir. Əlbəttə, başqa parametrlər də var ki (fotoaparatın obyektivi və s.), şəklin keyfiyyətinə təsir edir.

| Şəklin formatı, sm (düym) | Ölçü | Meqapiksel |
|---|---|---|
| 9x13 (3.5x5) | 1050x1500 | 1.3 |
| 10x15 (4x6) | 1200x1800 | 2 |
| 13x18 (5x7) | 1500x2100 | 3.2 |
| 15x20 (6x8) | 1800x2400 | 4 |
| 18x24 (7x10) | 2100x3000 | 6 |
| 20x30 (8x12) | 2400x3600 | 8.5 |
| 30x40 (12x16) | 3600x4800 | 18 |

Cədvəldən görünür ki, A4 formatlı keyfiyyətli şəkil üçün 8 MPiksel olan fotoaparat, hamının daha çox istifadə etdiyi 10x15 formatlı keyfiyyətli şəkil üçün 1.3, maksimum 2.0 MPiksel gərəkdir. Əgər fotoaparatda 0.1 və ya 0.3 meqapiksel qeyd olunubsa, demək, onunla ancaq adi mobil telefon aparatının ekranı ölçüsündə (məsələn, 4x5 sm) normal bir şəkil çəkə bilərsiniz. Böyük formatlarda şəkil çap etməyəcəksinizsə, əlavə xərc çəkərək yüksək pikselli fotoaparat olan telefon əldə etməyə lüzum yoxdur.

### 3GP videoların emalı

Mobil telefonla videosüjet çəkmək "azarına" tutulanları həmişə 2 sual düşündürüb: telefondakı videonu kompüterə köçürüb ona da-



downloaded from KitabYurdu.org

ha komfortla baxmaq (və ya kimə isə göstərmək) və kompüterin yaddaşındakı cürbəcür formatlı videoları əksinə, mobil telefona köçürüb onu dost-tanışa göstərmək (və ya kimə isə MMS yollamaq). İndi bir az da irəli gedərək videosüjetlərin üzərində işləməkdən, yəni onların kompüter emalından danışaq.

### Mobil telefonların başqa cihazlarla birləşmə funksiyaları

* **Data** (məlumat) **kabeli** mobil telefonları fərdi kompüterlərə qoşmaq üçündür. 2 növü var: COM-port üçün və USB data kabelləri. USB data kabelləri hazırda daha çox işlədilir. USB kabelləri COM-port üçün nəzərdə tutulanlara nisbətən daha sürətlidir. USB kabelindən istifadə edərkən unutmaq lazım deyil ki, kompüterə qabaqcadan mobil telefonun drayverlərini yükləmək lazımdır.

* **IrDA (**Infrared Data Association**)** – işıqdiod quruluşlu ötürücüdən və fotodioddan ibarət qəbuledicidən ibarət infraqırmızı diapazonda işləyən cihazdır. İnfraqırmızı port vasitəsilə yayılan dalğaların uzunluğu 850-880 monometrdir. İnfraqırmızı port vasitəsilə mobil telefonlar bir-biri və kompüterlə əlaqə yarada bilir, lakin bu əlaqə **Bluetooth** rabitəsindən dəfələrlə zəifdir. Xatırladırıq ki, televizorun və başqa məişət cihazlarının da pultları IrDA ilə işləyir. Mobil telefonlara quraşdırılmış IrDA sistemi ilə məlumat ötürülməsi sürəti cihazın gücündən asılı olaraq 3 Kbit/s-dən 115 Kbit/s-dək ola bilər. Lakin noutbuklarda quraşdırılmış IrDA vasitəsilə bəzən 4 Mb/s sürəti ilə də məlumatlar ötürülə bilər.

* **Bluetooth** ingiliscədən tərcümədə "mavi diş" deməkdir, azərbaycanca **blutuz** kimi tələffüz olunur. **Bluetooth** hazırda mobil telefonlarda ən çox istifadə olunan informasiya mübadiləsi vasitəsidir.

**Bluetooth**-dan hazırda nəinki mobil telefonlarda, informasiyanın hava ilə ötürülməsi lazım olan hər yerdə – adi fərdi kompüterlərdə, noutbuklarda, printerlərdə, fotoaparatlarda, videokameralarda, qulaqcıqlarda və s. sahələrdə istifadə olunur.

**Bluetooth** texnologiyası ilə təmin olunan cihazlar 10 metrdən 100 metrədək məsafədə bir-biri ilə məlumat mübadiləsinə imkan verir. Cihazlar arasındakı divarlar belə əlaqəyə mane ola bilmir.

**Bluetooth**-un özəlliklərini 1998-ci ildə "Ericsson" firması işləyib hazırlayıb. Sonradan bu göstəriciləri **"SonyEricsson", IBM, "Intel", "Toshiba"** və **"Nokia"**nın təsis etdiyi **Bluetooth Special Inte-**



downloaded from KitabYurdu.org

**rest Group** adlı qrup da qəbul edib. Hazırda **Bluetooth**-un 2.0 versiyası daha çox işlədilir.

**Mobil telefonların kompüterə qoşulması haqqında daha geniş məlumatla 5-ci bölümdə tanış ola bilərsiniz.** Mobil telefonu kompüterə necə qoşmaq olar?

Artıq sizin mobil telefonunuz var və onun bütün imkanlarından istifadə edib yorulmusunuz. Mobil telefonla daha nə etmək olar?

Yəqin ki, çoxunuz telefona musiqi və şəkil yükləməyi, telefondakı şəkilləri kompüterə ataraq üzərində müxtəlif redaktələr etməyi arzulayırsınız. Əlbəttə, bunun üçün birbaşa mobil telefon vasitəsilə İnternetə qoşularaq WAP resurslarından istifadə etmək olar. Ölkəmizdə mobil İnternet kifayət qədər baha olduğundan bu üsul heç də səmərəli deyil. Əgər sizin və ya dostunuzun kompüteri varsa, mobil telefonu ona qoşmaqla telefondan daha səmərəli istifadə edə bilərsiniz.

İndiki halda mobil telefonu kompüterə qoşmaq üçün 3 üsuldan istifadə olunur: **data kabeli, infraqırmızı port (bu üsul çox zaman qısaca IrDA adlanır) və Bluetooth vasitəsilə.**

Siz telefonunuz üçün hansı variant mümkündürsə, yalnız onu seçə bilərsiniz. Məsələn, bizdə müəyyən qədər geniş yayılan "**Nokia 3100**" telefonunu ancaq kabel vasitəsilə qoşmaq olar. Belə ki, bu modeldə nəinki **Bluetooth**, heç infraqırmızı port da yoxdur. "**Nokia 6100**" modelini həm kabellə, həm də infraqırmızı portla kompüterə qoşa bilərsiniz. "**Nokia 6230**" modeli isə 3 variantın istənilən birindən istifadə edilərək kompüterə qoşula bilər.

## Data kabeli

Qoşulma üçün ən çox istifadə olunan üsul kabel bağlantısı qurmaqdır. Əksər mobil telefon aparatlarında bu cür qoşulma üçün imkanlar nəzərdə tutulub. Qeyd etmək lazımdır ki, telefonun yaddaşının yenidən proqramlaşdırılması, həmçinin bərpası üçün məhz sözügedən kabeldən istifadə edilir. Müxtəlif telefon aparatları üçün müxtəlif də data kabelləri olur. Yəni, "**Nokia**" üçün nəzərdə tutulan kabel "**Motorola**" üçün tam gərəksiz ola bilər. Hətta mümkündür ki, eyni şirkət tərəfindən buraxılan müxtəlif modellərin hər biri üçün ayrıca kabel gərək olsun. Ən yaxşısı budur ki, telefon alınanda ona uyğun da kabel alınsın.



downloaded from KitabYurdu.org



COM-port kabeli






USB-port kabelləri

Data kabelləri kompüterə qoşulma formasına görə 3 cür olur:
– COM-port vasitəsilə kompüterə qoşulanlar;
– COM-port və USB-portların istənilən biri vasitəsilə qoşulanlar;
– USB-port vasitəsilə qoşulanlar.

COM-port vasitəsilə qoşulan kabellərin üstünlüyü ondan ibarətdir ki, bunun üçün əlavə proqram təminatına ehtiyac olmur. Qüsuru isə onun vasitəsilə məlumatötürmə sürətinin aşağı olmasıdır. Bu tip kabel vasitəsilə qoşulma ancaq xeyli əvvəllər buraxılan telefonlar üçün istifadə olunur. Əsasən **"Siemens", "Samsung", "Nokia"** və digər telefonlarda bu qoşulma daha çox mümkündür.

İkinci tip kabel hər iki formanın qarışığı olsa da, əslində, elə COM-port rejimində işləyir. Bu tip kabel dəstinə USB siqnalını COM-portun dəstəkləyəcəyi vəziyyətə gətirən COM-USB interfeys çeviricisi əlavə olunur. Belə ki, USB vasitəsilə kompüterə qoşulan kabel öz drayveri (yəni bu kabelin öz proqram təminatı) kompüterə yüklənən kimi virtual olaraq kompüterdə COM-port yaranır. Məsələn, tutaq ki, sizin COM-portu olmayan noutbukunuz, COM-kabeliniz və telefonunuz var. İndi necə etməli? Əlbəttə, bu zaman məhz yuxarıda qeyd olunan çevirici olarsa, demək, qoşulmaq üçün problem yoxdur. Beləliklə, əslində, kompüterdə fiziki cəhətdən mövcud olmayan COM-port vasitəsilə telefon və kompüter arasında informasiya mübadiləsi yaranır. Bu üsulun mənfi tərəfi əlavə proqram təminatına (kabel proqramına) ehtiyac olmasıdır.



downloaded from KitabYurdu.org

Yalnız USB-port vasitəsilə qoşulan kabellər üçün də kompüterə əlavə proqram yükləmək lazım gəlir. Bu üsulun da mənfi cəhəti telefon aparatının USB interfeysidir. Bir sıra hallarda isə proqram təminatını yeniləşdirmək və ya bərpa etmək mümkün olmur. Son dövrlərdə ən geniş yayılan qoşulma məhz USB kabelləri vasitəsilə gerçəkləşir.

Data kabelinin seçimi qarşıya qoyulan məqsəddən asılı olaraq dəyişə bilər. Əgər telefonda elementar transfer işləri aparılacaqsa, yəni hansısa fayllar kompüterdən telefona və ya əksinə yüklənəcəksə, onda 1-ci tip kabel sizə bu məqsəd üçün kifayət edər. Yox, əgər telefonda yaddaşın yenidən proqramlaşdırılması, həmçinin bərpası əməliyyatı aparılacaqsa, onda yalnız COM-port vasitəsilə qoşulmadan istifadə tövsiyə olunur.

Çoxları soruşur ki, kabeli haradan əldə etmək olar. Data kabelini həm kompüter mağazalarından, həm də telefon satışı mərkəzlərindən almaq olar.

## Data kabellərinin qiymətləri

Data kabelləri elə də baha deyil. Hazırda Bakıda müxtəlif ölkə və firma istehsallı, məsələn, standart miniUSB kabelləri 4-5 AZN-dir. Təbii ki, yarmarkalarda bunlardan da ucuz kabel tapmaq mümkündür.

Adətən hər bir telefon aparatı üçün özünün əsl kabelinin tapılması tövsiyə olunur. Yadda saxlamaq lazımdır:

– əgər telefonun korpusunun aşağı hissəsində qoşulma üçün kommunikasiya portu nəzərdə tutulubsa, demək, onun özəl data kabeli də olmalıdır;
– data kabellərinin üzərində verilən CD diskinə kabelin öz proqram təminatı ilə bərabər telefonu idarə etmək (kompüter vasitəsilə) üçün gərəkli proqram təminatı da olur. Diqqət yetirsəniz, bu cür disklərdə telefonunuz üçün lazım olan digər fayllar (şəkil, musiqi, oyun və s.) da tapa bilərsiniz;
– bununla belə, qoşulmanı dəstəkləyən istənilən kabeldən də bacardığınız formada istifadə edə bilərsiniz. Kabel alarkən ehtiyatlı olmaq gərəkdir: ola bilər ki, yaddaşı yeniləməyə imkan verən kabel vasitəsilə İnternetə girmək mümkün olmasın.

Ümumiyyətlə, kabelin mağazada yoxlanılaraq alınması daha düzgün olardı.



downloaded from KitabYurdu.org

### Data kabeli vasitəsilə kompüterə qoşulma

Data kabeli vasitəsilə qoşulma olduqca sadədir. Hər bir kompüter istifadəçisi bunu gerçəkləşdirə bilər. Proses bu ardıcıllıqla həyata keçirilir:





1. Müvafiq data kabeli (USB və ya USB-COM) və onun proqramı (drayveri) əldə olunur. Onları telefon mağazalarından və ya İnternetdən əldə edə bilərsiniz. Müvafiq kabellər proqram təminatları ilə birgə telefon mağazaları tərəfindən satılır. Proqramlar adətən CD-də təklif olunur.
2. Əgər proqram İnternetdən əldə olunmuşsa və arxiv (sıxılmış) formasındadırsa, əvvəlcə açılaraq kompüterdə müəyyən bir qovluğa köçürülür.
3. Proqramın (hər kabelin öz proqram təminatının) kompüterə yüklənməsi prosesi aparılır. Bu proses CD-dən proqramın avtomatik yüklənməsi və ya kompüterə köçürdüyünüz qovluqdakı **setup.exe** faylı işə salınmaqla gerçəkləşdirilə bilər. Eyni zamanda, **İdarəetmə paneli**ndə **(Control Panel)** yeni avadanlığın quraşdırılması funksiyasını aktivləşdirməklə prosesi avtomatik deyil, kompüterə köçürdüyünüz qovluğun yerini qeyd etməklə də icra edə bilərsiniz.
4. Kompüter yenidən yüklənir.
5. Kompüter və telefonun uyğunlaşdırılmasını – sinxronlaşdırılmasını **(Synchronize)** gerçəkləşdirən proqram təminatı kompüterə yüklənir. Bu tip proqramlarla kompüterdən istifadə edərək telefonun içindəki fayllarla müəyyən əməliyyatlar aparmaq, telefonu kompüter vasitəsilə idarə etmək olur. Adətən hər bir telefon istehsalçısının özünün məxsusi proqram təminatı var. Məsələn, **"PC Suite"** – **"Nokia"** üçün, **"Mobile Phone Manager"** – **"Siemens"** üçün və ya **"EasyGPRS"** –



downloaded from KitabYurdu.org

**“Samsung”** üçün və s. Bununla belə, universal proqram təminatlarına rast gəlmək olar, məsələn, **“MobTime Cell Phone Manager 2006”, “Mobile Action”** və s. Bu proqramlar kompüterə yükləndikdən sonra **İş masası**nda **(Desktop)** və ya **Start/Programs** menyusunda onların adları və müvafiq işarələri yaranır.

6. Kompüterin yenidən yüklənməsi həyata keçirilir.
7. Kompüter və telefon kabel vasitəsilə birləşdirilir. Normal halda kompüter dərhal telefonu “tanıyır” və ekranın aşağı sağ küncündə, indikatorlar lövhəsində (saatın yanında) yeni avadanlığın tapılması ilə bağlı informasiya çıxır. Ekranda yeni avadanlığın proqram təminatının yüklənməsini tələb edən pəncərə yaranır. Yuxarıda artıq bu cür drayverin yüklənməsi həyata keçirildiyindən həmin pəncərədə proqramın avtomatik yüklənməsini göstərən bənd seçilərək proses avtomatik olaraq davam etdirilir və sonda **Finish** düyməsi basılır.
8. 5-ci bənddə qeyd olunan uyğunlaşdırma (sinxronlaşdırma) proqramı işə salınır. Proqram kompüterin portlarına və telefonun modelinə uyğun tənzimlənir. Normal halda bu tip proqramlar işə salınan kimi avtomatik olaraq kompüterə qoşulan telefonu tapmalı və bu haqda məlumat verməlidir.

Bu ardıcıllıqların icrası uğursuz olarsa, verilən tövsiyələrdən istifadə etməyə çalışın.

Aşağıda bir neçə telefon modelinin kompüterə qoşulma prosesi addım-addım verilib.

> **Qeyd:** **“Nokia”** şirkəti öz telefonları üçün məxsusi olaraq **DKU** tipli kabel, həmçinin telefonun idarə edilməsi üçün **“Nokia PC Suite”** proqram təminatı buraxır. Bu proqramın ən son versiyaları artıq digər telefon aparatlarını da dəstəkləyir. Əgər kabeliniz orijinal deyilsə, onda yaxşı olardı **“MobiMB”** proqram təminatından istifadə edəsiniz.

**“MobiMB”** şirkəti tərəfindən buraxılan bu proqram təminatı ilə nəinki əksər telefonlarla kabellə işləmək olar, bu proqram, həmçinin, **IrDA** və **Bluetooth** vasitəsilə qoşulmanı da dəstəkləyir.

**“Siemens”** telefon aparatları üçün daha çox **DES (Data Exchange Software)** və ya **SiMoCo (Siemens Mobile Control)** proqram təminatlarından istifadə edilir. Bu tip aparatlarla, həmçinin, **MRM (Mobile Phone Manager)** proqramı ilə də işləmək olar.



downloaded from KitabYurdu.org

**“Motorola”** telefonları üçün istifadə olunan kommunikasiya proqramları daha çoxdur. İstifadəçilər arasında ən çox populyar olanlar isə **MPT (Mobile Phone Tools)** və **ME (MobilEdit)** proqramlarıdır.

### Sizi hansı problemlər gözləyə bilər?

Telefonu kompüterə qoşduqdan sonra bəzi hallarda gözlənilməz problemlər qarşıya çıxır. Mümkün problemlərin bir neçəsini diqqətə çatdırırıq:

1. Qoşulmadan sonra telefon və kompüter arasında əlaqə yaratmaq və ya informasiya mübadiləsi etmək mümkün deyil. Birincisi, dəqiqləşdirin, siz həqiqətənmi kompüterinizə data kabeli üçün telefonunuzun modelinə uyğun olan proqram təminatı yükləmisiniz.
2. Kabelin proqram təminatı yoxdur. Belə halda USB və ya USB-COM interfeys çeviricisi istehsalçısının adını üzərindən oxumaq və onun öz saytından, həmçinin başqa saytlardan axtarmaqla müvafiq proqramı tapmaq olar.
3. Telefonu kompüterdən idarə edən proqramınız yoxdur. Belə halda telefonun modelinə uyğun istehsalçının öz saytında və ya başqa saytlarda axtarış verməklə bu proqramı da əldə edə bilərsiniz.
4. Bütün bunlardan sonra problem həll olunmazsa, böyük ehtimalla, kabelin özündə qüsur var. Onu digəri ilə əvəz etmək və yenidən prosesi təkrarlamaq gərəkdir.
5. Əgər proqram telefonu müəyyənləşdirə bilmirsə, təkrar edirik ki, tənzimləməni əllə gerçəkləşdirməyə cəhd edin. Portların hansının seçilməsini dəqiqləşdirin.
6. Bundan da bir şey çıxmırsa, ümumiyyətlə, hər hansı başqa avadanlığı (rəqəmli fotoaparat, **Bluetooth** adapteri, **flash-cart** və s.) kompüterə qoşub yoxlayın, əgər həmin avadanlıqla da eyni problem çıxarsa, onda sizin **“Windows”** sisteminiz xarab olub, mütləq sistemi təzədən qurun.
7. Əgər bundan sonra da heç bir şey əldə edə bilmirsinizsə, servis mərkəzlərinə və ya bu sahədə məlumatlı dost-tanışlarınıza müraciət edin.



downloaded from KitabYurdu.org

*Diqqət*. Kompüterdə adətən iki COM-port olur. Kabeli quraşdırmaq istədiyiniz port açıq olmalıdır, yəni həmin porta qabaqcadan modem və ya digər qurğu qoşulubsa, onun drayverləri kompüterdən ləğv olunmalıdır (**Uninstall**). Əgər telefonu idarə edən proqramınız porta müraciət edərkən "Portun açılması mümkünsüzdür..." cavabını verirsə, deməli, port məşğuldur. Bunu **Setting** > **Control Panel** > **System** > **Hardware Device Manager** > **Ports** əmrlərini ardıcıl yerinə yetirərək də yoxlamaq olar. Əgər portlarda hansısa drayver qeyd olunubsa, onu mütləq silmək lazımdır.

Əgər proqram özü telefonu tapa bilmirsə, onda proqramın tənzimləmə menyusuna daxil olaraq kabelin hansı porta bağlandığını seçmək lazımdır. Hansı porta bağlandığını isə yuxarıdakı abzasda qeyd olunmuş əmr ardıcıllığı ilə öyrənə bilərsiniz.

Mobil telefona yükləmək mümkün olan çoxlu sayda proqramları bir neçə qrupa bölmək olar:

– musiqi, şəkil və loqotiplərin redaktəsini, çevrilməsini və telefona yüklənməsini gerçəkləşdirən proqramlar, pleyerlər və s.;
– telefon kitabçasını redaktə edən proqramlar;
– drayver tipli proqramlar (məsələn, telefonu modem kimi istifadəyə imkan verən proqramlar);
– Java tipli proqram və oyunlar;
– telefonun öz proqram təminatını dəyişməyə imkan verən proqramlar.

Bu proqramların bəziləri telefonu istehsal edən firmalar tərəfindən, əksəri isə müxtəlif kommersiya qurumları və həvəskarlar tərəfindən yaradılır. İnternetdən bu tip proqramların istənilən birini əldə etmək olar. Bəzi proqramlar pulludur.

Data kabeli vasitəsilə kompüterə qoşulmuş mobil telefona müxtəlif proqramlar yükləməklə nə əldə etmək olar? **Beləliklə, siz:**

– müxtəlif formatlı mahnılar və polifonik musiqiləri yükləyə,
– şəkillər və loqotiplər yükləyə,
– telefon kitabçanızı redaktə edə,
– MP3 formatlı musiqi yükləyə (telefonunuz bu formatı dəstəkləyirsə),
– telefon və kompüter arasında müxtəlif faylların mübadiləsini apara,
– kompüterdə SMS və MMS hazırlaya, redaktə edə və göndərə,



downloaded from KitabYurdu.org

– telefonunuzdakı fotoları kompüterə köçürə və ya əksinə edə,
– telefonunuz videoformatı dəstəkləyirsə, 3GP fayllarını kompüterdən telefonunuza və əksinə yükləyə,
– daxil olan və çıxan zənglər jurnalını redaktə edə,
– Java dəstəkli telefonlar üçün kompüterdən Java oyunları və Java proqramları yükləyə,
– yeni proqram təminatı yükləyə,
– proqramın versiyasını yeniləşdirə,
– telefonunuzdan İnternetə qoşulmaq üçün modem kimi istifadə edə,
– elektron məktublaşma apara və s. edə bilərsiniz.

## Etiket

İlk dəfə e-poçtdan istifadə edən hər kəs onsuz indiyədək necə tab gətirməsi haqqında düşündüyü kimi, telefonsuz da gündəlik həyatın necə qurulacağı, işlərin necə görüləcəyi çoxlarımız üçün düşündürücüdür. Kütləvi formada telefondan istifadə, telefonun ifrat dərəcədə həyatımıza daxil olması yeni etiket qaydaları diktə etməyə başlayıb. Yəqin ki, siz ictimai nəqliyyatda, digər ictimai yerlərdə ucadan danışan görəndə, konsert və tamaşaların şirin yerində telefonların əcaib zəng çaldığını eşidəndə, bir neçə dəqiqə birisi ilə telefonla danışandan sonra “yox, siz səhv düşmüsünüz” deyənləri eşidəndə hirsinizdən nə edəcəyinizi bilməmisiniz.

Beləliklə, müasir həyat özü mobil telefondan istifadə ilə bağlı yeni birgəyaşayış qaydaları tələb edir. Bu cür etiket qaydalarının hazırlanması və cəmiyyətdə dəstəklənməsi xeyli faydalı ola bilərdi. Fikrimcə, vətəndaş cəmiyyəti subyektləri, KİV bu istiqamətdə xeyli iş görə bilər. Əlbəttə, hər bir adam öz şəxsi mobil telefonundan sərbəst istifadə etmək hüququna malikdir. Bununla belə, o, başqasının da hüquqlarının pozulmasına şərait yaratmamalıdır.

Aşağıda mobil telefondan istifadə sahəsində beynəlxalq aləmdə qəbul olunmuş bəzi etiket qaydalarını təqdim edirik:

1. Şəxsi mobil telefonların başqa adamların həyatına təhlükə yarada biləcəyi yerlərdə (təyyarələr, cərrahiyyə əməliyyat kompleksləri, yanacaqdoldurma stansiyaları və s.) söndürülməsi tövsiyə olunur.



downloaded from KitabYurdu.org

2. Tamaşa, kino, konsert zamanı, muzey və sərgilərdə, müxtəlif ictimai yığıncaqlar, konfranslar, mərasim və rituallar zamanı, həmçinin xüsusilə dərs və ya mühazirə zamanı şəxsi mobil telefonu söndürmək və ya səssiz rejimə çevirmək lazımdır.
3. İş yerində, ictimai tədbirlərdə telefonunuzu yüksək səs rejimində qoyaraq qısa müddətə də olsa oranı tərk etmək məsləhət görülmür.
4. Mobil telefon nəqliyyat vasitəsi idarə edilərkən işlədilməməli və ya bu halda **Bluetooth** texnologiyasından (Hands free) istifadə edilməlidir.
5. Başqa cür razılaşdırılmayıbsa, biznes görüşləri və danışıqlar vaxtı mobil telefonları söndürmək və ya səssiz rejimə keçirmək lazımdır.
6. İctimai yerlərdə (kafe, restoran, mağaza, ictimai nəqliyyat və s.) mobil telefonun siqnal və səsi ətrafdakılara hörmət əlaməti olaraq mümkün qədər azaldılmalı və asta danışılmalıdır.
7. Ətrafdakıları təhqir və ya narahat edə biləcək səslər (söyüş, kobud sözlər və s.) telefonun çağırış siqnalı kimi işlədilməməlidir.
8. Başqasının mobil telefonundan icazəsiz istifadə və ya onun nömrəsinin başqa adama icazəsiz verilməsi yolverilməzdir.
9. Mobil operator tərəfindən müştərinin olduğu yerin təyin edilməsi, onun nömrəsinə müxtəlif informasiya mesajlarının göndərilməsi, habelə müştəriyə yönələn başqa hərəkətlər yalnız müştərinin razılığı ilə olmalıdır.
10. Telefon danışığı gizli saxlanmalıdır, mobil rabitə operatorları müştəriləri haqqında məlumatları yaymamalıdır. Bu, yalnız qanunvericilikdə nəzərdə tutulduğu hallarda məhdudlaşdırıla bilər.

## SMS etiketi

Mobil telefonla informasiya mübadiləsində əsas yerlərdən birini SMS tutur. Ucuz, sadə olması, istənilən an abonentə yetişə bilməsi xüsusiyyətləri SMS-i kifayət qədər populyarlaşdırıb. Artıq beynəlxalq aləmdə SMS istifadəçiləri arasında da SMS göndərilib-qəbul edilməsi ilə bağlı müəyyən ümumi qaydalar formalaşıb. Bu qaydalar **SMS etiketi** adlanır. Bir sıra ölkələrdə SMS etiketi kifayət qədər fərqlidir. Əgər hansısa ölkədə toplantı vaxtı SMS göndərmək



downloaded from KitabYurdu.org

normal hesab olunursa, başqa ölkədə bu, anormal sayılır və hətta ola bilər ki, SMS-lə məşğul olmağa görə bir də sizi həmin tədbirə dəvət etməsinlər.

Aşağıda SMS-etiketin bəzi qaydaları ilə tanış ola bilərsiniz:

1. Başqa biri ilə söhbətləşərkən SMS-lə məşğul olmaq tövsiyə edilmir.
2. Başqa biri ilə müəyyən müddət SMS əlaqəsində olduğunuz zaman onu xəbərdar etmədən əlaqəni kəsmək normal sayılmır.
3. Rəsmi tədbirlər, toplantılar zamanı uzun müddət SMS-lə məşğul olmaq tədbirə hörmətsizlik kimi qəbul edilir.
4. Rəsmi məktublaşmaq, rəsmi dəvətlər üçün SMS-dən istifadə məqsədəuyğun hesab olunmur. Əlbəttə, əgər başqa çıxış yolu qalmayıbsa, bu faktın özünü qeyd etməklə göndərilən mesaj, güman ki, normal qarşılanacaq.
5. Əgər SMS məktubunuza cavab verilməyibsə, bu, hörmətsizlik kimi qəbul edilməməlidir.
6. SMS əlaqəsi zamanı yerində işlədilmiş smayliklər (məktublaşma zamanı hissləri ifadə etmək üçün istifadə olunan işarələr) daha anlaşıqlı informasiya mübadiləsinə imkan yaradır və bu, normal qəbul olunur.

## "Casus" proqramlar

İnternetdə olduğu kimi, mobil rabitə sistemində də "casus" ("**spyware**") proqramlar peyda olmağa başlayıb. İnternet istifadəçiləri bilir ki, "casus" proqramlar kompüterdəki bütün əməliyyatlar (hansı mətn yığıldı, kimə məktub getdi, kimdən gəldi, gün ərzində kompüterdə hansı parollar yığıldı və s.) haqqında məlumatları qabaqcadan müəyyənləşdirilən ünvana yollamaqla məşğul olur.

Eynilə mobil telefona "oturmuş" "casus" proqramlar da mobil telefonda baş verən bütün prosesləri (daxil olan, çıxan zənglər, SMS-lər və s.) digər lazımi ünvana (telefona və e-poçt ünvanına) SMS formasında ötürür. Hələlik bu tip proqramlar "**Symbian**" əməliyyat sistemi olan smartfon və kommunikatorlar üçün geniş yayılıb.

Məsələn, Tayvanda "Vervata" şirkəti tərəfindən istehsal olunan "**FlexiSPY**" proqramı hazırda ciddi müzakirə predmetinə çevrilən "casus" proqramlardandır. Hərçənd ki, yaradıcıları onu "casus" kimi qəbul etmirlər və öz saytlarında açıq-aşkar onun satışı ilə məş-



downloaded from KitabYurdu.org

ğuldurlar. Həmin saytda bu "casus"un hansı model telefonlara yüklənə bilməsi haqqında məlumat və quraşdırılması üçün təlimat da yerləşdirilib.

Həmin proqramı hansısa smartfona yüklədikdən sonra telefonda baş verən bütün proseslər başqa bir telefona ötürülür. Bu proqram "oturduğu" telefondan göndərilən bütün SMS-lərin surətlərini də lazımi ünvana göndərmək qabiliyyətinə malikdir. Bir sözlə, əsl izləyicidir. Burada onu da qeyd etmək lazımdır ki, proqramın avtomatik quraşdırılmaq funksiyası hələlik yoxdur.

Diqqətçəkən məqam ondan ibarətdir ki, telefonda casusun olmasını müəyyən etmək çox çətindir. Ekranda heç bir interfeys və piktoqram əmələ gəlmir. Yalnız **Dispetçer** menyusunda **Phones** piktoqramı peyda olur.

Proqramı telefondan təmizləmək üçün **F-Secure Mobile** antivirus resursundan istifadə etmək tövsiyə olunur.



downloaded from KitabYurdu.org

## Beynəlxalq jurnalist qurumlarının internet-resursları

Beynəlxalq Mətbuat İnstitutu – www.freemedia.at
Beynəlxalq Söz Azadlığı Mübadiləsi – www.ifex.org
Beynəlxalq Jurnalistlər Federasiyası – www.ifj.org
Sərhədsiz Reportyorlar Təşkilatı – www.rsf.org
Jurnalistləri Müdafiə Komitəsi – www.cpj.org
XIX Maddə – www.article19.org
Dünya Mətbuat Azadlığı Komitəsi – www.wpfc.org
Dünya Qəzetləri Assosiasiyası – www.wan-press.org
Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi – www.cascfen.net
Kanada Jurnalistləri Söz Azadlığı Uğrunda – www.cjfe.org
Azadlıq Evi – www.freedomhouse.org
İnsan Haqlarını Müşahidə – www.hrw.org
Beynəlxalq Xəbər Təhlükəsizliyi İnstitutu – www.newssafety.com
Sürgündə Olan Jurnalistlər Şəbəkəsi – www.exiledjournalists.net
Dünya İcma Radio Yayımçıları Assosiasiyası – www.amarc.org
Beynəlxalq Mediaya Dəstək – www.i-m-s.dk



downloaded from KitabYurdu.org

## Jurnalist qurumları

**Azərbaycan Mətbuat Şurası**
Qərarlar. Bülletenlər. Monitorinq. Beynəlxalq əlaqələr. Yeniliklər. Kitabxana.
www.presscouncil.az

**Jurnalistlərin Həmkarlar İttifaqı**
Xəbərlər. Qanunvericilik. Layihələr. Məqalələr. Jurnalist qurumları. Media qurumları. Media hüquqları.
www.juhiaz.org

**İnternyus Azərbaycan**
Xəbərlər. Hadisələr. Məqalələr. Donorlar.
www.internews.az

**Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutu**
Haqqında. Əlaqə. Xəbərlər. Bloqlar. Fotoqalereya. Azərbaycanda təzyiqlərlə üzləşən media subyektləri.
Dil: AZ/EN/RU
www.irfs.az

**Azərbaycan Söz Azadlığı Fondu**
Xəbərlər. Layihələr. Məqalələr. İctimai TV. Fotoarxiv. Bülletenlər.
www.azfreespeech.org

**Nəcəf Nəcəfov Fondu**
Haqqında. Fond. Layihələr. Kitabxana. Pressa. Forum.
www.nnf.az

**AGB Nielsen Media Research**
AGB Nielsen media araşdırmaları şirkətinin rəsmi İnternet saytı.
Dil: EN
www.agb.az

**Müstəqil Mətbuat Mərkəzi**
AR Mərkəzi Seçki Komissiyası yanında Müstəqil Mətbuat Mərkəzinin rəsmi İnternet saytı. Haqqında. AR Konstitusiyası. Məlumat bülletenləri. Seçki məcəlləsi. Beynəlxalq müşahidəçilər üçün məlumat. Xarici KİV, qaynar xətlər.
Dil: AZ/EN/RU və s.
www.cecipc.az

**Gəncə Media Mərkəzi**
Gəncə şəhərinin informasiya mərkəzi Məktəblər. Teatrlar. Xəstəxanalar. Mehmanxanalar. Bank və bankomatlar. Vağzallar. Restoranlar. Apteklər. Notariuslar. QHT.
www.ganca.az

**Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF)**
Ana səhifə. Xəbərlər. Qarabağ. Yarışmalar. İmkanlar.
www.iepf-ngo.org

## Qəzetlər və jurnallar. Elektron xülasələr

**İKT Portalı**
İKT xəbərləri
www.xeberler.az

**"Yeni Azərbaycan" qəzeti**
"Yeni Azərbaycan" qəzetinin İnternet versiyası.
www.yeniazerbaycan.com

**"Yeni Müsavat" qəzeti**
"Yeni Müsavat" qəzetinin İnternet versiyası.
www.musavat.com



downloaded from KitabYurdu.org

**“Respublika” qəzeti**
“Respublika” qəzetinin İnternet versiyası. Xəbərlər. Qanunlar. Fərmanlar. Faktlar və rəqəmlər. Müsahibələr.
www.respublica.news.az

**“Azadlıq” qəzeti**
“Azadlıq” qəzetinin İnternet versiyası.
www.azadliq.az

**525-ci qəzet**
“525-ci qəzet”in İnternet versiyası.
www.525ci.com

**Xalq Cəbhəsi**
Gündəlik, ictimai-siyasi qəzetin İnternet versiyası.
www.xalqcebhesi.az

**SƏS qəzeti**
“Səs” qəzetinin İnternet versiyası.
www.ses-az.com

**Bizim Əsr**
“Bizim Əsr” qəzetinin İnternet versiyası.
bizimasr.media-az.com

**“Ədalət” qəzeti**
Ədalət qəzetinin İnternet versiyası.
www.adalet-az.com

**Xalq qəzeti**
“Xalq qəzeti”nin İnternet versiyası.
www.xalqqazeti.com

**“Azərbaycan” qəzeti**
Rəsmi dövlət qəzeti. Milli Məclisin orqanı.
www.azerbaijan.news.az

**“Exo” qəzeti**
“Exo” qəzetinin İnternet versiyası.Sayt rus dilindədir.
www.echo-az.com

**“Kaspi” qəzeti**
“Kaspi” qəzetinin veb-səhifəsi. Gündəlik ictimai-siyasi qəzet.
www.kaspi.az

**“Şərq” qəzeti**
“Şərq” gündəlik ictimai-siyasi qəzetinin İnternet versiyası.
www.sherg.az

**“Zaman” qəzeti**
“Zaman” qəzetinin İnternet versiyası
www.zaman.com.az

**“Ekspress”**
“Ekspress” gündəlik qəzetinin İnternet versiyası.
www.express.com.az

**“Ayna” qəzeti**
“Ayna” qəzetinin İnternet versiyası.
www.ayna.az

**“Birja” qəzeti**
“Birja” qəzetinin İnternet versiyası. Elanlar.
www.birja-vdv.az

**“Rabitə Dünyası” qəzeti**
Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin qəzeti.
www.rabitadunyasi.info.az

**“İRS” jurnalı**
Rubrikalar. Xəbərlər. Arxiv. Qarabağ haqqında.
www.irs-az.com

**“Üç nöqtə” qəzeti**
“Üç nöqtə” qəzetinin İnternet versiyası.
www.ucnoqta.com

**“İqtisadiyyat” qəzeti**
Həftəlik iqtisadi qəzet. Real iqtisadiyyat. Sığorta. Enerji.



downloaded from KitabYurdu.org

Tenderlər. Aktual mövzular. Maliyyə, bank məlumatları.
www.iqtisadiyyat.com

**"Çempion" qəzeti**
"Çempion" idman qəzetinin İnternet versiyası.
www.champion.com.az

**"Azərbaycan Neft Təsərrüfatı" jurnalı**
Jurnal haqqında. Arxiv. Abunə. Müəlliflər üçün bölmə. Redaksiya haqqında.
www.antjournal.az

**"İntellektual mülkiyyət" jurnalı**
Abunə. Qanunlar. Rekvizitlər. İstinad.
intellect.musigi-dunya.az

**"Önər" jurnalı**
Məqalələr. Ədəbiyyat. Mədəniyyət. Maraq dünyası. Elm. Kitablar. Sənət. Poeziya. Arxiv.
www.onerjurnali.narod.ru

**Qanun**
İctimai-siyasi, elmi hüquq jurnalı. Yeniliklər. Nəşrlər evi. Müsahibə. Arxiv. Fraqmentlər.
www.qanun.az

**Azerbaijantoday.com**
Xəbərlər portalı. Gündəm. Siyasət. Dünya. Ölkə. İqtisadiyyat. Mədəniyyət. Hadisə. İnternet. İdman. Texnologiya.
www.azerbaijantoday.com

**Yeni Qafqaz qəzeti**
www.yeni-qafqaz.net

**İnternet News**
"İnternet News" qəzetinin İnternet versiyası. Xəbərlər. "AzNet". İnterdünya. İnteranbar. İT və QHT. İntericmal. Mobil dünya.
www.internet.news.az

**Dalğa**
Dalğa jurnalının elektron versiyası
hem.passagen.se/dalqa

**Bakı-Xəbər**
Siyasət. Analiz. Hadisə. Yaşam. Nəbz. Sosium. Müsahibə.
www.baku-xeber.com

**Bakinskiy Raboçiy**
Sayt rus dilindədir.
www.br.az

**Zerkalo**
Sayt rus dilindədir.
www.zerkalo.az

**Naş Vek**
Rus dilində.
nashvek.media-az.com

**Nedelya**
Sayt rus dilindədir.
www.nedelya.az

**Azerbaijan İnternational**
Sayt ingilis dilindədir
www.azer.com

**Baku Sun**
Sayt ingilis dilindədir
www.bakusun.az

**Azernews**
Sayt ingilis dilindədir
www.azernews.net

**Day.az**
Sayt rus dilindədir.
www.day.az

**Europa+**
www.europaplus.az



downloaded from KitabYurdu.org

**Today.az**
Sayt ingilis dilindədir. Son xəbərlər. Siyasət. Biznes. Cəmiyyət.
www.today.az

**Kompass**
İngilis və rus dillərində
www.kompass.azeri.com

**"Real Azərbaycan" qəzeti**
www.realazer.com

**Media Forum**
Xəbərlər. Forum. Siyasət. Hüquq. Cəmiyyət. Analiz. Monitorinq. Araşdırma. Sosial. İdman.
www.mediaforum.az

**Times.az**
Müstəqil İnternet qəzeti. Siyasət. İqtisadiyyat. Cəmiyyət. Mədəniyyət. Texnologiyalar. İntervyu. Ölkə. Kriminal.
www.times.az

**Azerbaijan Today International Magazine**
"Azerbaijan Today" jurnalının rəsmi İnternet saytı. Siyasət. Biznes və iqtisadiyyat. Cəmiyyət. Vakansiyalar. Əlaqə.
Dil: EN
www.azerbaijantoday.az

**Qarapapaqlar jurnalı**
Tiflis şəhərində işıq üzü görən "Qarapapaqlar" jurnalının rəsmi internet saytı.
www.qarapapaqlar.borchali.net

**İnformasiya resursları kataloqu**
Qafqaz xəbərləri. Azərbaycan xəbərləri. Qarabağ hadisələri. Qədim Bakı
Dil: EN
www.resources.net.az

**AZERFON**
Azerbaijan Financial Online News – maliyyə xəbərləri saytı.
www.azerfon.az

**"Dəyərlər" BİAP**
"Dəyərlər" BİAP İnformasiya və Analitika portalı. Ana səhifə. Xəbərlər. Dünya. Siyasət. İqtisadiyyat. Cəmiyyət. İnsan Haqları. Analitika-müsahibə. Mədəniyyət. Elm və texnologiya. İdman və sağlamlıq. Maraqlı hadisələr. Qalereya.
Dil: AZ/EN/RU
www.deyerler.org

**Milli Xəbər Portalı**
Siyasət. Müsahibə. Analitik. Toplum. Təhsil. Gənclik. Diaspor. Maraqlı. Dünya.
www.qaynar.info

**"Cbnextra" xəbər portalı**
Xəbərlər. İdman. İş.
www.cbnextra.com

**Azerbaijannews.net**
Azərbaycan haqqında məlumatlar.
Dil: EN
www.azerbaijannews.net

**Azərbaycan Birlik Təşkilatı**
Azərbaycan Birlik Təşkilatı və "Birlik press" qəzetinin rəsmi saytı. İslam. Cəmiyyət. Siyasət. Qadın aləmi. Sosial. Uşaq dünyası. Poeziya. Dünya. Toplum. Gündəm.
www.birlik-az.org

**"Bizim yol" qəzetinin internet saytı**
Siyasət. Araşdırma. Şərh. Müsahibə. Gündəm. Yazarlar. Xəbər xətti. Dünya. Kriminal.
www.bizimyol.az

**İslam Dünyası**
Tədbirlər. İslamda qadın. İslam aləmi. İslam tarixi. Dinin əsasları. Dualar. Ziyarətgahlar. İslamda ailə.
Dil: AZ/RU/TR
www.islam-azeri.az



downloaded from KitabYurdu.org

**IT Magazine**
"IT Magazine" İnternet və kompüter texnologiyalarına aid jurnal. Haqqında. Redaktor heyəti. İntellekt klub. İntellekt mükafatları. Əlaqə məlumatları. Dil: AZ/RU
www.itmagazine.az

**"Professional" jurnalı**
Xəbərlər. İntervülər. Maraqlı məqalələr.
www.professional-media.az

**Impress Ltd**
"Architech", "Passaj" və "Autograph" jurnallarının rəsmi saytı. Dil: EN/RU
www.journal.az

**Economist.az – iqtisadi elektron jurnal**
Haqqında. Məqalələr. Qanunlar. Statistika. Əlaqə.
www.economist.az

**Analitika.az – Cənubi Qafqaz xəbərləri**
Cənubi Qafqaz ölkələri haqqında bütün xəbərlər. Dil: EN/RU
www.analitika.az

**Azərbaycanda Mədəniyyət Mətbuatı**
Ölkədə baş verən mədəniyyət yeniliklərini geniş ictimaiyyətə çatdırmaq məqsədilə qurulmuş İnternet saytı. Ana səhifə. İcmal. Xəbərlər. Linklər. Layihə. Forum.
Dil: AZ/EN/RU
www.press.az

**Azərbaycan Online**
Ana səhifə. Dövlət. Tarix. Film. Qəzetlər. Radiolar. Televiziyalar. Mahnı sözləri. Münasibətlər.
www.azerbaijan-online.com

**Xəbərçi.com – Azərbaycandan xəbərlər və şayiələr**
Futbol xəbərləri. İş elanları. Online oyunlar. Dil: RU
www.azerbaijanskiy.narod.ru

**Azərbaycan xəbərləri**
Region. İqtisadiyyat. Siyasət. Elm. İdman. Əyləncə. Şəhərlər.
Dil: EN
www.azerinews.com

**Online xəbər saytı**
İqtisadiyyat. Siyasət. Mədəniyyət. Cəmiyyət. İdman. Turizm. Analitika. Müsahibə. Dil: RU
www.1news.az

**Caspian Energy**
"Caspian Energy" jurnalının İnternet saytı.
Dil: EN/RU
www.caspenergy.com

**Directory.com.az**
Müxtəlif media orqanlarından xəbərlərin toplandığı İnternet saytı.
Dil: RU
www.directory.com.az

**Ekspert**
Ekspert jurnalının İnternet saytı. İcmal. Sosial. Sənaye. Maliyyə. Sahibkarlıq. İnteqrasiya. Geoekonomika. Makroiqtisadiyyat.
Dil: AZ/EN/RU
www.ekspert.az

**EL**
"EL" jurnalının İnternet saytı. Nəşriyyat. Redaksiya. Reklam. Mətbuat yayımı.
www.el.ans.az



downloaded from KitabYurdu.org

**Futbol-az**
Xəbər saytı. Çempionlar liqası. UEFA kuboku. Azərbaycan kuboku. Komandalar haqqında.
www.futbol-az.com

**Gündəlik elektron qəzet**
Siyasət. İqtisadiyyat. Mədəniyyət. Xarici siyasət. Dünya. Güney Azərbaycan. Əyalət. Cəmiyyət. İdman. Kriminal
www.paralel.az

**Azərbaycanın online marketinq jurnalı**
Haqqında. Əlaqə. Xəbərlər. Forum
www.mak.az

**Consulting & Business**
Azərbaycanda biznes jurnalı. Rubrikalar. Xəbərlər. Arxiv. Əlaqə.
Dil: RU

www.**consulting.azeri.com**

**"Presspost" qəzetinin İnternet saytı**
Xəbərlər. Siyasət. Bölgə. Hüquq. Araşdırma. Sosial. Şou-biznes. Mənəviyyat. İqtisadiyyat. Kriminal. Qarabağ. Dil: AZ/EN/RU
www.presspost.az

**Hesabat**
Hesabat jurnalının İnternet saytı.
Üzə çıxan. Xüsusi reportaj. İşgüzar. Son nöqtə.
www.hesabat.az

**"Aşbaz" jurnalının internet saytı**
Kulinariya xəbərləri. Müsahibələr. Reseptlər. Dil: RU
www.ashpaz.az

**Həftə**
Həftə qəzetinin rəsmi İnternet saytı. Aktual. Siyasət. Baxış. Planet. İqtisadiyyat. Sağlamlıq. Mədəniyyət. İdman. Cəmiyyət. Sosial. Maliyyə.
www.hefte.az

**Həftə İçi**
Həftə İçi qəzetinin İnternet saytı. Başlıqlar. Gündəm. Siyasət. Geopolitika. İqtisadiyyat. Sosium. Mədəniyyət. İdman.
www.hafta-ichi.com

**Press-reliz Yayım Xidməti**
Layihə haqqında. Press-relizi necə tərtib etməli. Mövzu. Fəaliyyət sahəsi. Dil: AZ/EN/RU
www.press-release.az

**Marketinq**
Aylıq işgüzar jurnal
Haqqında. Reklam. Abunəlik. Arxiv
www.marketinq.az

**Musiqi dünyası**
"Musiqi dünyası" elmi-publisistik musiqi jurnalının İnternet saytı. Kataloq. Arxiv.
www.musigi-dunya.az

**Elman**
"Elman" jurnalının İnternet saytı. Gündəlik. Cavabdeh. Məktublar. Elmanın qonağı.
www.elman.az

**Milli QHT Forumu – Xəbərlər**
QHT tribunası. Layihələr. Beynəlxalq əməkdaşlıq. QHT qanunvericiliyi. Hesabatlar. Donorlar. Regional QHT. Elanlar
www.mqfxeber.az

**Azərbaycan Bələdiyyə Sistemi jurnalı**
Jurnal haqqında. Xəbərlər. Eksklüziv. Təhlillər. Sənədlər. Sitatlar.
www.municipality.az



downloaded from KitabYurdu.org

**Azərbaycan tələbə jurnalı – Xəzər Universiteti**
Dil: EN
www.khazar.org/jas

**“Alma” qəzeti**
Müsahibə. Layihə. Təhsil. Gənclik. Reportaj. Güney. Mədəniyyət. Ədəbiyyat. Əyalət. Kriminal. Sosial.
www.almaqezeti.com

**Azad Qarabağ**
İctimai-siyasi qəzet-Layihə haqqında, Kitabxana, Forum, Axtarış, Linklər.
www.azadqarabag.azerall.info

**Autograph**
Avtograf avtomobil jurnalı. Avtoxəbərlər. Avtoşou. Sürücülük testi. Dil: RU
www.autograph.journal.az

**Aysel**
Elə-belə. Qadın məsləhətxanası. “Aysel”in qonağı
www.aysel.az

**Azerbadjanskie İzvestiya**
“Azerbadjanskie İzvestiya” qəzetinin İnternet saytı. Siyasət. İqtisadiyyat. Maliyyə. Mədəniyyət. Sosial. Dünya. Diaspor.
Dil: RU
www.azerizv.az

**Obozrevatel**
“Obozrevatel” qəzetinin İnternet saytı. Cəmiyyət. İqtisadiyyat. Siyasət. Region. Mədəniyyət.
Dil: RU
www.obozrevatel.net

**Azeri.ru**
Azərbaycan haqqında online xəbərlər. Layihə haqqında. Diaspor. Etnoqrafiya. Mədəniyyət. Adət-ənənələr. Linklər. Dil: RU
www.azeri.ru

**Qütb**
“Qütb” jurnalının İnternet saytı. Panoram. Nəzər nöqtəsi. Müsahibə. Əsas mövzu. Aktual. Təqdimat. Təqvim. Dil: AZ/RU
www.qutb.org

**Son dədiqə**
“Son dədiqə” xəbər saytı. Gündəm. Kriminal. Araşdırma. Yaşam. Ölkə içi. Müsahibə. Dünya. İdman. Şou-biznes. Diaspora. Qarabağ. Avto. Terrorizm. İslamın səsi
www.sd.com.az

**Versiya.az – Azərbaycandan və dünyadan ən operativ xəbərlər**
Siyasət. İqtisadiyyat. Cəmiyyət. Mədəniyyət. Dünya. İdman. Kriminal.
www.versiya.az

**“Azərbaycan Konqresi” qəzeti**
Qəzetin layihəsi. Arxiv. Xəbərlər. Əlaqə
www.azcongress.ru

**Contact**
Xəbər saytı.
www.contact.com.az

**“Yeni Çağ” İctimai-siyasi-dini qəzet**
Son xəbər. Gündəm. Siyasət. Araşdırma. Müsahibə. Sosial. Dünya. Maraq. Tarix. Mənəviyyat. Əlaqə.
www.yenicag.az

**“Azərbaycan – bu gün və sabah” jurnalı**
Baş redaktordan. Analitika. Sivilizasiyaların dialoqu. Siyasət. Geosiyasət. Vətəndaş cəmiyyəti. Layihələr. Müəlliflər. Redaksiya heyəti. Arxiv. Əlaqələr.
Dil: AZ/EN
www.todayandtomorrow.az



downloaded from KitabYurdu.org

**AzeriFootball**
AzeriFootball xəbər saytı. Xəbərlər. Dünya çempionatı. Klublar. Yığma. Tarix. Mətbuat. Dil: RU
www.azerifootball.com

**E-market – Azərbaycanın işgüzar portalı**
İqtisadiyyat. Maliyyə. Avtomobillər. Cəmiyyət. Sağlamlıq. Mobil rabitə. Kompüter texnologiyaları.
Dil: RU
www.emarket.az

**"ATV maqazin" jurnalının İnternet saytı**
Haqqında. Fotoqalereya. Müsahibələr. İş saatı. Mistika. Gözəllik və sağlamlıq. Şou-biznes.
www.atvmaqazin.az

**Azər xəbər**
Gündəlik. Siyasət. İqtisadiyyat. İdman. Dünya. Texnologiya. İncəsənət. Təhsil. Səhiyyə.
www.azerxeber.com

**Azadlıq çırağı**
Haqqında. Kitabxana. Faydalı linklər. Əlaqə. Podkastlar. Media xülasəsi. Tədbirlər təqvimi
www.azadliqciragi.org

**Xəbərnamə – məşhur xəbərlər**
Canlı bölmə. Məşhur xəbərlər. Yeni xəbərlər. Günün məşhur xəbəri. Həftənin məşhur xəbəri. Ayın məşhur xəbəri
www.xebername.com

**Cənubi Qafqaz, orta Asiya, MDB türk imzasında**
Qafqazın tarixi. Cənubu Qafqaz. Şimali Qafqaz. MDB. Xəbərlər.
Dil: RU
www.atc.az

**İşgüzar insanlar üçün informasiya bazası**
Şirkətlər. Elanlar. Korporativ xəbərlər. Dil: AZ/EN/RU/TR
www.azinba.com

**İnformasiya axtarış sistemi**
İqtisadiyyat. Kriminal. Mədəniyyət. Siyasət. Daşınmaz əmlak. Bürclər. Musiqi Dil: RU
www.okey.az

**GUAM ölkələrinin birinci xəbər saytı**
Xəbərlər. Elanlar. Siyasət. İqtisadiyyat. Əlaqə. Dil: RU
www.guamtimes.info

**Mətbuat.info – Xəbər portalı**
Vacib xəbərlər. Top 10 xəbər
Dil: AZ/EN/RU
www.metbuat.info

**İşgüzar xəbərlər**
Xəbərlər. Analitika. Biznes maraqlar. Müsahibələr. Dil: RU
www.ceo.az

**Lent.az**
Müstəqil online qəzet
www.lent.az

## İnformasiya agentlikləri

**Novosti–Azerbaycan**
"Novosti–Azerbaycan" İnformasiya Agentliyinin rəsmi İnternet saytı. Online xəbərlər. Azərbaycan xəbərləri. MDB xəbərləri. Dünya xəbərləri. Azərbaycanın regionları. Dağlıq Qarabağ. Siyasət. İqtisadiyyat. Cəmiyyət. Mədəniyyət.
Dil: AZ/RU
www.newsazerbaijan.ru



downloaded from KitabYurdu.org

**AzərTAc – Azərbaycan Dövlət Teleqraf Agentliyi**
Rəsmi xronika. Siyasət. Qanunlar və fərmanlar. İqtisadiyyat və maliyyə. Mədəniyyət. Elm və təhsil. Kənd təsərrüfatı. Kriminal. İdman.
www.azertag.com

**"Azəri-Press" İnformasiya Agentliyi**
Siyasət. Xəbərlər. İqtisadiyyat. İdman. Mədəniyyət. Analitika. Türk dünyası, Rusiya, İran, Gürcustan, Ermənistan, Qafqaz və Otra Asiya xəbərləri.
www.apa.az

**"TREND" Analitik-İnformasiya Agentliyi**
Son xəbərlər. Aktual şərh. Ekskluziv. Siyasət. İqtisadiyyat. Rəsmi xronika. Analitik təhlil. Cəmiyyət. Bölgələrdə. Xarici xəbərlər. İdman. Hava. Valyuta kursları. Arxiv.
www.trend.az

**Turan Müstəqil İnformasiya Agentliyi**
Siyasət. İqtisadiyyat. Maliyyə. Energetika. Telekommunikasiya. Tenderlər. Mədəniyyət. Din. Nəqliyyat.
www.turaninfo.com

**3rd View agentliyi**
Agentlik haqqında. Tərəfdaşlar. Direktorlar şurası. Xidmətlər. Dünyada. Vətəndaş cəmiyyti. KİV.
Dil: AZ/EN/RU
www.3view.az

**"Olaylar" İnformasiya Agentliyi**
Ölkə. Siyasət. İqtisadiyyat. Cəmiyyət. Mədəniyyət. İdman. Kriminal. Texnologiya. Müsahibə. Güney xəbərləri.
www.olaylar.az

**"Fineko" Analitik İnformasiya Agentliyinin biznes məlumat portalı**
İqtisadiyyat. İnvestisiya. Kredit. Sığorta. Tenderlər.
Dil: AZ/EN/RU
www.abc.az

**İqtisadi İnformasiya Agentliyi**
Redaksiya. Müəlliflər. Reklam haqqında. Əlaqə
Dil: AZ/EN/RU
www.yeni-iqtisadiyyat.com

**ABC.az**
"Fineko" analitik informasiya agentliyinin biznes məlumat portalı. İqtisadiyyat. Sərmayə. Özəlləşdirmə. İpoteka. Kredit təşkilatları. Sığorta. Lizinq. Konsaltinq. Fond bazarı. Valyuta bazarı. Biznes əlaqələr.
www.abc.az

**Kompas–Azərbaycan CO**
PR ve reklam. İnformasiya agentliyi
Dil: EN
www.compass.com

**"Prant" Daşınmaz Əmlak üzrə İnformasiya Agentliyi**
Dil: RU/EN
www.prant.net

**365 Online İnformasiya Agentliyi**
Siyasət. İqtisadiyyat. Cəmiyyət. Maliyyə. Region. Dünya. Mədəniyyət. İdman.
Dil: RU
www.365.az

**"İnterfax" Azərbaycan İnformasiya Agentliyi**
Siyasət. İqtisadiyyat və maliyyə. Elm və təhsil. Mədəniyyət. Cəmiyyət. İdman. Xarici xəbərlər.
Dil: AZ/RU
www.interfax.az



downloaded from KitabYurdu.org

**Novosti.az**
www.novosti.az

## Televiziya və radio. TV proqramları

**Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurası**
Şura haqqında. Qanunlar. Sənədlər. Lisenziya qaydaları. Yayımçılar haqqında məlumat. Mətbuat üçün.
www.ntrc.gov.az

**AzTV**
Azərbaycan Dövlət TeleRadio Şirkəti. Xəbərlər. Şirkətin tarixi və strukturu. Proqramlar. Canlı yayım.
www.aztv.az

**"Lider" TV**
Proqramlar. Verilişlər. Radio "Lider". "Bizim əsr" qəzeti.
www.lidertv.com

**"Space" TV**
Müstəqil televiziya və radio şirkəti. Şirkət haqqında. Xəbərlər. TV. Radio. Yayım. Layihələr.
www.spacetv.az

**ANS**
ANS şirkətlər qrupunun rəsmi İnternet səhifəsi. Şirkət haqqında. Xəbərlər. TV proqramlar. ANS ÇM. Musiqi çarxları.
www.ans.az
www.anspress.com

**Bürc FM radiosu**
Bürc FM xəbər. Radionun tarixi. Proqramlar. Sabahın xeyir. Poliqon. Çicək. İstəklər. Təbriklər. Musiqi.
www.burc.fm

**107fm**
Radio "Lider". Tarix. DJ-lər. Qalereya.
www.lider.fm

**Anten 101 FM**
Xəbərlər. Verilişlər. Aparıcılar. Rubrikalar.
www.antenn.az

**Azadlıq Radiosu**
Xəbərlər. Mətbuat. Kontekst. Verilişlər. Audio. Arxiv.
www.azadliqradiosu.az

www.azadliq.org

**VOAnews.com**
Amerikanın səsi. Dünya. ABŞ. İran Azərbaycanı. Elm, təhsil və mədəniyyət. Qadın proqramı. İqtisadiyyat və biznes. ABŞ–İraq. İnsan hüquqları.
www.voanews.com/azerbaijani

**"Odlar Yurdu "radiosu**
Xəbərlər. Verlişlər. Bağlantılar. Tarix. Şəkillər.
www.radioodlaryurdu.com

**BBC Azərbaycan**
Radio. Proqramlar. Tezliklər. Xidmətlər. Haqqında. Xəbərlər. İdman. Hava. Dil: AZ/RU/TR və s.
www.bbc.co.uk/azeri
www.bbcazeri.com

**İctimai Televiziya**
Haqqında. Xəbərlər. Radio. Verilişlər. Rəsmi sənədlər. Müəllif proqramları. Təhsil. Əyləncə. Kino, dublyaj redaksiyası.
Dil: AZ/EN
www.itv.az

**"Sürət" avtomobil verilişi**
Veriliş haqqında. Sürətin kollektivi. Reydlər. test drive. Ehtiyat hissələri.



downloaded from KitabYurdu.org

Usta məsləhətləri. Avtomobil sığortası. Avtomobil xəbərləri.
www.suret.az

**Kabel televiziyası**
Qoşulma. Xidmətlər. Tariflər. Kanallar. Dil: AZ/RU
www.ktv1.az

**"Günaz" TV**
Güney Azərbaycanın milli televiziyası. Televiziya. Bloqlar. Xəbərlər. Yardım. Əlaqə. Haqqında.
www.gunaz.tv

**Teleradio Radio Televiziya Yayımı və Peyk Rabitəsi İstehsalat Birliyi**
Ümumi məlumat. İdarə heyəti. Hüquqi sənədlər. Xəbərlər. Tarix. Statistika. Albom.
www.teleradio.rabita.az

**"Ailə" TV**
60 xarici kanalı əhatə edən kabel televiziyası şirkətinin rəsmi İnternet saytı.
Dil: AZ/EN/RU
www.aile.tv

**Europa Plus**
"Europa Plus" radiosunun Azərbaycan şöbəsinin rəsmi İnternet saytı.
Dil: RU
www.europa.az

**"Xəzər" TV**
Ana səhifə. Verilişlər. Həftəlik proqramlar. Yazarlar. Peyk məlumatları. Əlaqə.
www.xazar.tv

**"Kəpəz" TV**
Haqqında. TV-proqramlar. Gəncənin kataloqu. Əlaqə
www.kapaz.tv



downloaded from KitabYurdu.org

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. İnternet-jurnalistikanın formalaşmasının bəzi aspektləri. Rasim Əliquliyev və b., Bakı, 2008.
2. İnternet. Azərbaycan İnternet resursları. Osman Gündüz, 2008.
3. Mobil telefon və kompüter. Osman Gündüz, 2007.
4. İnternet-jurnalistika. Kalmıkov A.A, Koxanova L.A., 2005.
6. "Online" jurnalı.

downloaded from KitabYurdu.org

**Müəllif:** Osman Gündüz
*Azərbaycan İnternet Forumunun prezidenti, Multimedia İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzinin direktoru*

**Redaktor:** Rasim Əliquliyev
*AMEA-nın müxbir üzvü, İnformasiya Texnologiyaları İnstitutunun direktoru, texnika elmləri doktoru, professor*

**Jurnalistlər üçün informasiya texnologiyaları**

**Tərtibatçı:** Allahverdi Kərimov
**Korrektor:** Kəmalə Cəfərova,
Xəyalə Mustafayeva

downloaded from KitabYurdu.org

**Kitabı əldə etmək üçün əlaqə:**
Multimedia Mərkəzi. AZ 1001, Bakı, M.Əfəndiyev küçəsi, 5.
Tel. 492-44-44, www.cit.az, www.aif.az, E-mail: osman@cit.az

**Yığılmağa verilib: 01.12.2008. Çapa imzalanıb: 12.01.2009**
Formatı 70x100 1/16, Sifariş. Tirajı 300 nüsxə.

mətbəəsində çap edilib.

downloaded from KitabYurdu.org